**Məhəmməd Füzuli**

# Heyrət, ey büt...

- 14197 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı
"Araz" -2013

84(5Aze)
F 99

**Redaktoru və naşiri:**
***Əlirza Sayılov***

**"Heyrət, ey büt..."**
*Seçilmiş əsərləri*
***Bakı, "Araz" nəşriyyat, 2013, 216 səh.***

*Böyük Azərbaycan şairi və mütəfəkkiri Füzulinin lirik şeirlər toplusuna ölməz sənətkarın sənət xəzinəsindən nadir incilər daxil edilmişdir. Lirikası bir-birilə bağlı iki hissədə əhatə olunub: "Məhəbbət şərgiləri", "Həyat hikmətləri". Birinci hissədə aşiqanə şeirləri, ikincidə ictimai-fəlsəfi, əxlaqi-tərbiyəvi mahiyyət daşıyan əsərləri təqdim edilmişdir.*

*Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş bu kitab Füzuli poyeziyasının pərəstişkarlarına yeni hədiyyədir.*

F $\frac{4986521365}{050}$ 2013

© "Araz", 2013

# Füzulinin gözəllik idealı

*Böyük sənətlə, sənətkarla doğma xalqı arasında həmişə ilahi bir ünsiyyət, bağlılıq olur. Xalqla Füzuli arasında əsrlərcə davam edən ünsiyyət, qırılmaz mənəvi əlaqənin milli ruhumuzla, zövq və səliqəmizlə, əxlaqi-fəlsəfi, bədii-estetik təfəkkür və anlayışlarımız bağlı olduğunu hamı təsdiq edər. Bu, çox təbiidir, həqiqi sənətkarları mənsub olduqları xalqdan, onun mənəvi həyatından, tarixindən ayrı təsəvvür etmək olmur. Eləcə də Füzulisiz Azərbaycan xalqını, onun dil və mədəniyyət tarixini, əxlaq, fəlsəfə, sənət və ədəbiyyatını düşünmək mümkün deyil. Füzuli böyük milli iftixarımız, mənəvi müasirimizdir!*

## I

*Füzuli Orta əsrlər zülmət səltənətində işığa boylanan, nəcabət və gözəlliyə, xoşbəxtlik və azadlığa can atan doğma xalqının ümid, və arzularından yaranmışdı. On altıncı yüzillikdə Azərbaycanda və qonşu ölkələrdə feodal-ruhani münasibətlərin və sinfi ziddiyyətlərin kəskinləşdiyi, müharibələrin min-min insanı yurd-suz, xanımasız qoyduğu bir dövrdə Füzuli təkcə Azərbaycan xalqının deyil, eyni əzablı tarixi yol keçən Şərq ellərininin iztirab və təlaşlarını əks etdirmiş, istək və arzularından yazmışdır. Böyük ədəbiyyatşünasımız Firudin bəy Köçərli buna görə deyirdi:*

*"Füzuli... aləmi-insaniyyətdə tamam qəmzədələrin və*

*möhnətkeşlərin yüklərini götürmək və məzlumların halına yanmaq üçün xəlq olunmuşdur".*

*F.Köçərli bununla Füzulinin şəxsiyyət və yaradıcılığının başlıca cəhətinə -yüksək humanist mahiyyətinə və dərin bəşəri məzmununa işarə etmişdir. Füzuli, həqiqətən, Şərq ədəbiyyatında ardıcıl fəlsəfi humanizmin qüdrətli nümayəndəsi, nəcib insanpərvərlik ideallarının atəşin carcısıdır. Bu baxımdan, onun Azərbaycan bədii-ictimai-fəlsəfi fikir tarixində yerini yalnız Nizamiyə bərabər tutmaq olar.*

*Müasir cəmiyyətimizdə insan amilinin bunca böyük məna və əhəmiyyət kəsb etdiyi, mənəvi-əxlaqi problemlərin bu günkü meyar və tələblər səviyyəsindən qoyuluşu bu qədər aktual səciyyə aldığı şəraitdə Füzulinin insanpərvərlik idealları ilə qanadlanan poeziyası əsl örnək, tərbiyə məktəbi ola bilər.*

*Füzuli, böyük sələfi Nizami Gəncəvi kimi, insanı varlığın tacı, yaranmışların əşrəfi bilir. Şair "qələm sədəfində insandan qiymətli gövhər, insan gövhərində sözdən bahalı cövhər" tapmadığını yazır. Lakin Füzulinin pərəstiş etdiyi insan təkcə zahiri gözəlliyilə yox, həm də batini gözəlliyilə dünyanı bəzəyən, ona məna verən insandır. Zəkası, hünər və zəhmətilə yerin calalını artıran insan!*

*Füzulinin gözəllik idealını məşuq gözəlliyi ilə, vüsal cırpıntıları ilə məhdudlaşdıranlar yanılırlar. Füzuli şeirinin qüdrəti hümanizm və azadlıq ideallarına sədaqətdən doğan misilsiz səmimiyyətdədir. Dahi sənətkarın poeziyasının bütün dövrlər və nəsillər üçün əziz və qiymətli edən başlıca səbəb budur.*

*Kamil insan tərbiyə etmək-böyük şairin humanist konsensiyasının əsasını təşkil edir. Lirikasında olduğu kimi, epik əsərlərində də, bu məsələyə mərkəzi yer verməsinin özü Füzulinin insanlıq və azadlıq amalı ilə bağlıdır.*





*"Demə ki, can boş bir qəfəsdir. Həqiqəti düşünüb axtarsan, idrak əhlinin bu sirrə heyran qaldığını görərsən. Alim olsan da, biliksiz olduğunu etiraf et ki, alimi məğrur görüncə, nadan dedilər. Pəhrizkarlıq riyakarlıq gətirirsə, təqlidə yol vermə, ondan ikrah et; elm təkəbbür artırırsa, himayə olunmağındansa, məhvi yaxşıdır.*

*Həris acgöz axmaqlığından elə güman edir ki, fağır yoxsul tənbəlliyindən yoxsul, dövlətli hədsiz calışqanlığından dövlətli olur. Yoxsul nədən ötrü gərək fəğfur və xaqana baş əysin, nədən ötrü gərək Key* və Kəsradan** minnət götürsün?! Könül evində allahdan qeyrisinə yer vermə; sən öz Kəbəni bütxanəyə cevirmə! Ağıllı adamsan, hər özün kimi qafildən irşad gözləmə. Qabağına çıxan hər şeyi iynə kimi deş, keç. Ölüm haqdırsa, ehtiyac və məhrumiyyət icrə öl, minnətlə verilən neməti istəmə! Ölüm məhrumiyyətdən qurtulmaq özü bir nemətdir. Odda yansan da, şam kimi gül ki, alovla canlanan şamın əbədiyyəti onun yanmağındadır..."*

*Bəşərsevərlik şairə insan xislətindəki pislikləri görməyə mane olmur. İnsani keyfiyyətləri məhəbbətlə tərif və təbliğ edən Füzuli, mənəvi eybəcərliyi də eyni qüvvət və hərarətlə rədd edir, nifrətlə damğalayır. Divanlarında –məxsusən qəsidə və qitələrində, eləcə də epik əsərlərində -"Söhbətül-əsmar","Bəngü Badə", "Leyli və Məcnun"-məhdud icəri aləminə qapılıb, burnundan uzağı görməyən, yaxşını yamana, yamanı yaxşıya çıxarmağı özlərinə peşə edən xudpəsənd adamlar şairin tənqid hədəfidirlər. Şəxsi ləyaqət və istedadlarına görə yox, ata-baba şöhrətinə, əsil-nəsəbə görə cəmiyyətdə vəzifə, mövqe tutub yaşayanlar, Füzulinin*

* Key - Keyxosrov.
** Kəsra - Ənuşirəvanın ləqəbi

*fikrincə, inkişaf və tərəqqinin düşmənləridir. Bunlar bütün varlıqları ilə kamal və istedad adamlarına qarşı durublar. Bədxahlıq, yaltaqlıq, ikiüzlülük, satqınlıq, riyakarlıq, təkəbbür və lovğalıq bunların təyinedici sifətləridir. Füzuli bunlara "əhli-dünya" deyir. Və hünər əhlini onlara qarşı qoyur. Şair göstərir ki, bəzən "libasi-faxir"-gözəl geyim bəlalərinə sadə camaatın gözünə kül üfürmək üçün gərək olur. Ancaq ipək paltar, daş-qaş arifin gözünü qamaşdıra bilməz.*

*Gözəl paltar adamlıq nişanəsi olmadığı kimi, gözəl danışıq da, hələ insanlığı göstərmir. Sədi demiş, tutuquşuya da şirin danışmağı öyrətmək olar. Füzuli deyir ki, zatında şərarət olan adam elmi istehlar-terminlər işlətməklə, alim olub həqiqətə vara bilməz. Qara daşı rəngləməklə yaqut, tutuquşuya təlim verməklə insan düzəltmək olmaz. Şeirin orijinalı belədir:*

Hər kimin var isə zatında şərarət küfrü,
İstilahati-ülum ilə müsəlman olmaz.
Gər qara daşı qızıl, qan ilə rəngin edəsən,
Təbə təğyir verib, ləli-bədəxşan olmaz.
Eyləsən tutiyə təlim ədayi-kələmat,
Nitqi insan olur, amma özü insan olmaz.
Hər uzun boylu şücaət edə bilməz dəva,
Hər ağac kim, boy ata, sərvi-xuraman olmaz.

*Estetik idealı surət və məna gözəlliyi olan Füzuli insana olduqca tələbkardır. O, mənəvi-əxlaqi düşgünlüyü "aləm sədəfində ən bahalı gövhər" olan insana yaraşdırmır. Mənəvi təmizlik və gözəllik onun üçün hər şeydir. Təvazökarlıq, ürək işıqlığı, nəzər genişliyi oxucuya ilk tövsiyyəsidir. Şair açır ki, ədavət, kin-küdurət, hirs və həsəd adamı adamlıqdan çıxarır; bu kimi heyvani hisslər*





*yalnız ətrafdakıların deyil, şəxsin özünün də məhvinə səbəb ola bilər. Füzuli bu kor xislətlərin mənəviyyatda kök salmasında feodal-ruhani mühiti və əxlaqını, köhnə dünyanın amansız qayda-qanunlarını müqəssir bilir. Və onda belə bir qənaət var: gözəlliyin, nəcabətin, yaxşılığın-eybəcərlik, müxənnətlik, yamanlıq üzərində qələbəsi labüddür. Xeyirin Şər üzərində qələbəsi kimi! Türkcə (azərbaycanca-F.C.) divanına yazdığı müqəddimədə farca bir şeir parçası var. Məzmunu belədir ki, parlaq bir inci torpaqda xar olub, illərcə qədir-qiymətsiz orada yatsa da, onun etibar aynasına azacıq qubar qona bilər. Torpaqdan götürüləndə, görərsən, həmam gövhərdir ki, var. Şahların tacına yaraşıq verən gövhər! Necə ki, qayıdıb öz dilimizdə deyir ki: "Torpaqda yatmaqla tiladan*" cila getməz"...*

*Füzuliyə görə, insanlığın, xosbətliyin, azadəliyin yolu daşlı-kəsəkli, qanlı-qadalı yoldur. Bu yol dözüm, müqavimət və mübarizə yoludur, taleyə boyun əymək yox, tale yaratmaq yoludur:*

Qiyas et şəmdən, vəhm eylə çərxin inqilabından,
Kim, ol baş almağa qəsd etməyincə, taci-zər verməz.

Bəla zimnində rahət olduğun izhar edər xəlqə
Fələk, bihudə xari-xüşkdən gülbərgi-tər verməz.
Füzuli, dəhrdən kam almaq olmaz olmadan giryan,
Sədəf su almayınca, əbri-nisandan gühər verməz.

*Deməк, fədakarlığı bacaranlar, hər cür çətinliyə, əziyyətə sinə gərə bilən iradəli adamlar xoşbəxtliyə qovuşa bilərlər. Və ona layiqdirlər. Bu, Füzuli lirikasında yüksək əxlaqi əhəmiyyət daşıyan*

* Tila - qızıl.

*güclü motivlərdən biri, bəlkə də başlıcasıdır. Məsələnin bu şəkildə qoyuluşu dahi şairin qabaqcıl dünyagörüşü, həyata gələcəyə nikbin nəzərilə bağlıdır. Şair özü hamıdan gözəl deyib:*

Aqil kişi durbin* gərəkdir,
İnsana ümid bir dirəkdir.

## II

*Füzulinin bədii dühası məhəbbət lirikasında daha parlaq şəkildə özünü göstərir. Bu da təbiidir, çünki Füzuli qəlb şairidir. O, şeiri "könül xəzinəsinin gövhəri" adlandırır.*

*Böyük şairimiz ədəbiyyatın bir çox şəkillərində ölməz əsərlər yaratsa da, lirik şeirlər, aşiqanə qəzəllər yazmağı daha çox xoşlamış, qocalıq çağlarında belə, yaradıcılığının bu sahəsini vurğunluqla davam etdirmişdir.*

*Qəzəl janrı qədim keçmişə malikdir. Ərəb, fars, türk xalqlarının ədəbiyyatında zəngin ənənəsi olan qəzəlin bir janr kimi formalaşması, kamilləşməsində Əbu Nuvas, Əbül-Əla Məərri, Qətran, Xaqani, Sənai, Nizami, Sədi, Hafiz, Nəsimi, Nəvai, Xətai və Füzulinin müstəsna xidməti olmuşdur.*

*Şərqin qüdrətli sənətkarlarından sonra Füzulinin qəzəl yazması, "nazik-nəzm"-lirik şeirdə nə tək müvəffəq olması, bu sənət cığırında çoxlarını üstələyib qələbə qazanması ədəbiyyat tarixi üçün nadir hadisə idi.*

*Füzuliyə qədər Sədi və Hafiz lirikada əlçatmaz zirvə hesab olunurdu. Cahanşümül İran poeziyası ilə rəqabət apara biləcək Azərbaycan şeirinin nümunələrini vermək çox müşkül görünürdü.*

* Durbin - uzaqgörən.





*Çətinlik bir də onda idi ki, Füzuli sələfləri-Qətran, Xaqani, Nizami, Marağalı Əvhədidən fərqli olaraq bu şeiri ana dilində-azəri türkcəsində yaratmalı idi. Nəsimidən sonra türk şairinin fars dilində kəkələməsinə Füzuli dözmürdü...*

*Nəsiminin, ümumiyyətlə, türkdilli ədəbiyyatda qoyduğu kredo keçilməzdi. Bununla belə, deməliyik ki, Nəsimi ilə Füzuli arasında yüz, yüz əlli il davam edən əbədi-tarixi inkişaf prosesi-lirik şeir cərəyanı nümayəndələrinin doğma dilimizdə yaratdıqları poetik nümunələr Azərbaycan bədii dilini və nəticə etibarı ilə ədəbiyyatını həll edici qələbə mövqeyinə çıxara bilməmişdi. Bu cürə, xoşbəxtlikdən, Füzulinin adına çəkilmişdi.*

*Deməк, XVI yüz illikdə belə, Füzuli kimi bir sənətkarın türkcə (azərbaycanca) "nəzmi-nazik" yaratmağın "ikən düşvar" olduğunu söyləməsi səbəbsiz deyildi:*

Ol səbəbdən farsi lafzilə çoxdur nəzm kim,
Nəzmi-nazik türk ləfzinə ikən düşvar olur.
Ləhceyi-türki qəbuli-nəzmi-tərkib etməyib,
Əksərən əlfazı namərbutu nahəmvar olur.
Məndə tövfiq olsa, bu düşvarı asan eylərəm,
Novbahar olğac tikandan bərgi-gül izhar olur.

*Füzuli, sanki dodaqlarında xəfif təbəssüm, özündən qabaqkı şeirin üfüqlərinə boylanır, sələflərini anıb düşünür: "Fars dilində şeir ona görə çoxdur ki, türk dilində nazik nəzm yaratmaq çox çətindir!" İkinci beytdə ehtiva olunan məna, fikrimizcə, Füzulinin əleyhdarlarının-nihilistlərin türk dilinə, türkcə şeirə münasibətini ifadə edir. Guya türk dili nəzmin tərkiblərini (əruzda) qəbul etmir, türkün sözü çox halda kələkötür, uyuşuqsuz, kobud görünür... Yox, şairin bacarığı olarsa, o çətini asan eyləmək olar. Necə olur, yaz*

*gələndə, kolun-tikanın arasından qızıl gül boylanır, əlvan, incə, ətirli ləçəklərini göstərir; türkün "kələkötür, uyuşuqsuz" sözlərindən sənət çələngi hörmək olmazmı? Olar, şairin istedadı olarsa, bu, mümkündür!*

*Füzuli böyük inamla, istedadına müyəssər olan ləyaqətlə Azərbaycan dilində yazmış olduğu əsərlərilə xalqımızın başına əbədiyyət çələngi taxmışdır. Heç vaxt solub-saralmayan, ətrini-təravətini, məna və gözəlliyini bu gün də saxlamaqda olan sənət çələngi!*

*Bununla, F.Köçərlinin yazdığı kimi, Füzuli, həm də bədii dilimizin banisi olmaq haqqını qazanmışdır:*

*"Və həqiqətdə demək olur ki, türk dilinə rövnəq verən və onun xarü xaşakdən təmizləyib bir köycək və çəmənə bənzədən Füzuli olubdur. Və bununla biz türklərin üstə ümumən və Azərbaycan türklərinin boynuna xüsusən böyük bir minnət qoyubdur...."*

*Bu baxımdan Füzulinin Azərbaycan bədii dili tarixindəki mövqeyini Sədinin fars, Nəvainin özbək-cığatay, Şekspirin ingilis, Puşkinin rus bədii dili, eləcə də ədəbiyyatı tarixindəki mövqeyi ilə müqayisə etmək olar.*

*Maraqlıdır ki, Füzuli sənətin bu şah yoluna lirika ilə çıxmışdır. Və kamillik dövründə, o zaman ki, "Leyli və Məcnun"u yazırdı, xar edilən, xəstə düşən şeirə məhz eşqə, məhəbbətə dair kitabı ilə "əlac etmək", "rəvac vermək" istədiyini bildirirdi. Çünki şair məhəbbəti həyat iksiri kimi tanıyırdı.*

*O, sənət yolunu belə müəyyənləşdirmişdi:*

Məndən, Füzuli, istəmə əşari-mədhü zəmm,
Mən aşiqəm, həmişə sözüm aşiqanədir.

*Məhəbbət mövzusunun yalnız Füzuli yaradıcılığında deyil,*





*ümumiyyətlə, Şərq ədəbiyyatında, bunca vüsətlə, dərin, yüksək ehtirasla işlənilməsi humanizm idealları ilə bağlı idi. Orta əsrlərdə feodal-patriarxal münasibətlərin hökm sürdüyü şəraitdə cismani-mənəvi əsarət altına alınmış insanın, şəxsiyyətin azadlıq, xoşbəxtlik meyllərini ədəbiyyata gətirmək üçün mövzusu olduqca əlverişli idi. Böyük ictimai ideallarm ifadə vasitəsi olan bu mövzu, akademik Məmmədcəfər Cəfərovun qeyd etdiyi kimi, Şərq ədəbiyyatı üçün az qala üslubi səciyyə daşıyır və bu cəhəti başa düşmədən bu gün onun ideya istiqamətini dərk etmək çətin olur.*

*Məhz bu mənada biz deyirik ki, gözəllik və məhəbbət Füzuli lirikasının canını təşkil edən başlıca mövzuddur. Şairin tərənnüm etdiyi eşq gercək –real eşq olmaqla, geniş fəlsəfi məna ehtiva edir: gözəllik eşqi, həyat eşqi, məslək, eşqi, vətən eşqi, insanlığa eşq, azadlığa eşq, azadəlik eşqi, sənət eşqi!..*

*Füzuli eşqə məna verərkən, həyatın, yaranışın əsasında bir eşq, sevda görür. Göydəki ulduzlar da, Ay da, Günəş də şairin gözündə eşqin, gözəlliyin timsalıdır.*

Günəş lövhi deyil göydə şüa üstündə zərrin xətt,
Fələk almış əlinə bir varaq hüsnün kitabından.

*Olmaya yazbaşı coşub çağlayan sular da, bir gülüzlünün sərv boyunun arxasınca qoşar:*

Su ki, sərgərdan gəzər, başında vardır bir hava,
Qaliba, bir gülrüxün sərvi-xuramanın gəzər.

*Füzulinin bu misraları ustadı Nizamini yada salır, o da, yaranışın törəsində birər eşq görür, kainat əsərləri və bunlar arasındakı əlaqələri, məsələn cazibə qanununu-eşq əlaqələri kimi*

*şərh edir:*

Eşqsiz olsaydı xilqətin canı,
Dirilik sarmazdı böyük cahanı
..Eşqin yanğısından gözəl şey nə var?
Onsuz nə gül gülər, nə bulud ağlar.
Eşq düşsə daşın da qəlbinə əgər,
Gövhərdən özünə məşuq düzəldər.
Maqnit olmasaydı eşqin əsiri,
Çəkməzdi özünə dəmir zənciri
Kəhrəbanın eşqə düşməsə canı,
Elə cəzb etmədi quru samanı.

*Füzuli də eşqsiz həyatı qəbul etmir, gözəlliyi mənasız sayır. Eşqin insanı kamal əhlinin arasına çıxardığını, qol-qanad verib böyük əməllərə qoşduğunu, can atdığı "hər murad mənzilinə rəhbər olduğunu" deyir. Eşq-vəhdət-birlik aləmidir; öylə bir aləm ki, orada sultan ilə gedayə fərq qoyulmaz...*

*Füzulinin sevgi,dostluq, vüsal, ayrılıq, intizar, dözüm, fədakarlıq, ümid və s. dərdini vəziyyətləri tərsim edən məhəbbət şərqiləri həcmcə kiçik, mənaca böyük sənət əsərləridir. Qəlbi oynadan, ruhu uçuran gözəl bir nəğməni, incə bir melodiyanı, zəngin bir muğamı açmaq nə qədər çətindirsə, Füzulinin qəzəllərini açmaq da, eləcə çətindir. Bu şeirləri şərh etmək, duymaq, başa düşmək səviyyə, zövq və səliqə tələb edir. Bu şeirlər klassik intellektual poeziya nümunələri olduğundan, burada intellektsiz keçinmək olmur. İnsanın qəlb həyatını, onun dərin qatlarını, sirli-sehirli aləmini işıqlandıran Füzuli şeirləri bədii-fəlsəfi məzmununa və yüksək emosionallığına görə dahi alman bəstəkarı Bethovenin sonetləri, variasiyaları ilə müqayisə oluna bilər.*





*Mürəkkəb, ziddiyyətli zamanədə möhlət, əzab-iztirab dolu ömür keçirən, fəqət ruhdan düşməyən, əyilməyən lirik qəhrəmanın, üsyankar şəxsiyyətin tale yolunu əks etdirirkən, şair qaranlıqdan-işığa, bədbəxtlikdən-xoşbəxtliyə, zülmətdən azadlığa doğru çırpınan insanın, insanlığın qələbəsinə inam bəsləyir.*

*Füzuli bu çətin, ağır həyat yoluna həm də insanı mənəvi təkamülə aparan "sınaq yolu" kimi baxır.*

Sərhədi-mətlub pür möhnət, təriqi-imtahar,
Mənzili-məqsud pür asib, rah-azimun...

*Fəqqət, "arzuların sərhəddi möhnətlə dolu, məqsəd mənzili qorxulu" olsa da, lirik qəhrəman yorulub yarı yolda qalmır. Bütün məhrumiyyət və nakamlıqlarına, ağır mənəvi böhranlarına baxmayaraq, həyat qüvvələrini özünə qaytarır, yaşamaq və yaşatmaq üçün fərdi və ictimai həyatdakı acılara sinə gərib, zamanın amansız yürüşünə şəxsiyyət və mənliyini imtahana çəkən məhək tək baxır.*

*Füzulinin özü də, qəhrəmanları kimi, ideal uğrunda, yaşadığı mühitlə, cəmiyyət və zamanla üz-üzə dayanmışdır. Və bu döyüşdə biz onu boyaboy, bütün mənəvi-fiziki qüdrət və əzəmətli görürük:*

Deyil bihudə gər yağsa fələkdən başıma daşlar,
Binasın tişeyi-ahıma viran etdiyimdəndir!...

*Şair-üsyankar şəxsiyyət feodal dünyasının binasına-özülünə əl qatmışdır, o da, qarşılıqlı olaraq, daş-qalağa çıxmışsa, bu qanunauyğunluqdur.*

*Müxalif dövr talecə bir olanları birləşdirir; Füzuli də qəhrəmanlarının taleyini bölüşür. Bəs qurtuluş nədədir, nicat*

*sahili görünürmü? Füzuli qurtuluşu eşqdə görür:*

Bəhrlər seyr eyləsən, mütləq tər olmaz damənin,
Gər havayi-eşqdən məmluv isən yelkən kimi.

*Sənin varlığın, kömləyin-köynəyin eşq havası ilə dolu isə, yelkən kimi, dənizlər adlayıb keçsən də, ətəyin belə, bulaşmaz!*

*Böyük şairimiz əbədiyyəti-eşqdə, eşqi –fədakarlıqda tapır:*

Verməyən canın sənə bulmaz həyati-cavidan,
Zindeyi-cavid ona derlər ki, qurbandır sənə.

*Füzulinin böyük eşqi qarşısında öz kiçikliyini hiss edən bəzi burjua ədəbiyyatşünasları yalnız olaraq, şairin vəsf etdiyi eşqin "ilahi eşq"-tanrı eşqi olduğunu iddia edirlər. Azərbaycan füzulişünaslığının nailiyyətlərindən biri, bəlkə də birincisi bundadır ki, Füzuli yaradıcılığının məna və əhəmiyyətini dünyəvilikdə görür və başlıca çıxış nöqtəsi olaraq, böyük şairimizin əsərlərində tərənnüm edilən eşqin real olduğunu müdafiə edir.*

*Bizim möhkəm əqidəmizə görə, Füzuli dünyabaxışındakı sufizm meyllərinə, yaradıcılığındakı məlum ziddiyyətlərə baxmayaraq, bir para Şərq-Qərb tədqiqatçılarının iddialarına rəğmən "allaha mərifət yetirməklə məşğul olan" ilahi eşqi, allaha qovuşmağı təlqin edən "mömin müsəlman", "əlini-ətəyini bu dünyadan çəkmiş təkyə-dərviş həyatı keçirən" sufiməslək şair olmaqdan çox-çox uzaqdır. Füzulinin sənətkar təbiəti buna ziddir, onda qalmış ki, yaradıcılığı ümumbəşəri qayələri ola!*

*Füzuliyə görə, eşq insan üçün böyük səadətdir, hər hansı bir səadətə qovuşmaq üçün isə, çətinliklərə, əziyyətə, məhrumiyyətə dözmək, iradə göstərmək, fədakarlığı bacarmaq başlıca şərtdir.*





*Bu, şairin məhəbbət lirikasından çıxardığımız ümdə nəticədir. Və məsələnin bu şəkildə qoyuluşu, şübhəsiz, Füzulinin məhz nikbin dünyagörüşü ilə bağlıdır.*

# III

*Füzuli yaradıb yaşadığı dövrdə qabaqcıl fikirlərini, zəmanəsinin senzurasından keçirmək istəyirmiş kimi, çox vaxt məhəbbət mövzusunda yazdığı şeirlərində misralar arasında verib keçir. Məsələn, o, məhəbbət şərqilərindən birini bu beytlə bitirir:*

Ey Füzuli, odlara yansın büsati-səltənət,
Yeydir ondan, həqq bilir, bir guşeyi-külxan mana.

*"Sor" rədifli qəzəlində məhrumiyyətlər içərisində çapalayan fağır kimsəsizlərin cəmiyyətdəki vəziyyətinə acıyır, onların dərdinə şərik olur:*

Gözüyaşlıların halın nə bilsin mərdümi-qafil,
Kəvakib seyrini şəb ta səhər budar olandan sor.

*Böyük sənətkar zəmanəsinin ən həssas adamı kimi, feodal-ruhani mühitinin rəzalətlərini görüb dəhşətə gəlir. Füzuli və onun lirik qəhrəmanı yaşadığı mühitdən qat-qat yüksəkdə durduğuna görə, onun eybəcərliyini, yaramazlığını yaxşı görə bilir. Bu baxımdan, mütəfəkkir şairin ictimai-fəlsəfi məzmunu şeirləri, qəsidələri, məxsusən, qitələri daha maraqlıdır. Bu kimi əsərlərdə üsyankar şəxsiyyətin Orta əsr məhkumluğuna qarşı etirazını, qəzəb və nifrətini duyuruq. Şair və onun qəhrəmanı cəmiyyətin, xalqın taleyini düşünür. "Dust biparva, fələk birəhm, dövran bisükun". "Vəfa hər kimsədən kim, istədim, ondan cəfa gördüm"*

*"Mənəm ki, qafiləsalari-karivani-qəməm", "Ənisül-qəlb" bu sayaq əsərlərdəndir.*

*Füzulinin dövrün xasiyyətnaməsini verdiyi "Dust biparva..." şeirində şairin çağdaşı olan ziyalığın ictimai həyata gözüacıq münasibəti hər beytdə duyulmaqdadır. Bu, həm də əhvali-ruhiyyə şeiridir. Füzulinin özünü, hətta onun portretini də burada görmək olar. Və maraqlıdır ki, bütün bunlar aşiqin-üsyankar şəxsiyyətin həyəcanları,-sevinc və kədəri, istək və arzuları, ümid və xəyal qırıqlığı-bir sözlə mənəviyyat prizmasından keçirilir. "Dost qayğısız, fələk rəhmsiz, zaman qərarsızdır. Dərd çox, həmdərd yox, düşmən güclü, baxt dönükdür". Şair istəklə imkan arasındakı təzada işarə ilə "istək günəşinin hərarətli, ümidin kölgəsinin belə görünmədiyini" yazır. "İdbarın rütbəsi uca, tədbirin əsası puçdur. İnsan çaş qalır,ağıl-idrak karsız, himmətsiz görünür. Bu, azmış kimi, yer-yerdən tənə sədaları ucalır! İnsan yurdunda qəribə bənzəyir. Məqsəd mənzili uzaq, vüsal yolu qorxuludur. O, sadəlövh bir hərif, dünya fitnə-fəsadla dolu..."*

*"Küləklər qarşısında lalə ləçəyi necə davamsızdırsa, bilik də bacarıq da hadisələr tufanı önündə, eləcə durumsuzdur. Sular üzərində sərv şəkilləri baş-ayaq durduğu kimi, dövlətin-taleyin də təsiri tərsinə çevrilmişdir. Şadlıq camı çəpələnmiş, içində bir gilə də olsun həyat şərbəti qalmamışdır".*

*Təfriqə əmələ gəlib. Məmləkət içrə cəmiyyətin tutub getdiyi yol qorxuncdur, "Ah. bilməm nə edim ki, bir müvafiq rəhnümun-yolköstərən də yox!" Şairin görünüşü də daxili aləmilə həmahəngdir: onun saralmış bənizini qanlı yaş zolaqları alıb. Füzuli özü də heyrət içindədir: bu mavi fələk onun üzünə gör nə boyalar yaxmış!...*

*"Vəfa hər kimsədən kim, istədim..." mətləli şeirdə isə. Füzuli böyük ümumiləşdirmə yolu ilə gedərək, romantik qəhrəmanın-*



14197



*Məcnunun kədərini bəşəri kədər səviyyəsinə qaldırır:*

Kimə kim, dərdimi izhar qaldım, istədim, istəyib dərman,
Özümdən həm betər bir dərdə onu mübtəla gördüm.

*Füzulinin qəhrəmanı ümid və istəklərlə yaşamaq istəyir. Fəqət, ümid qapısına ayaq qoyarkən, çaş-baş qalır. Hünər kələfinin ucundan tutmaq istəyir, əlində əjdahaya çevrilir. Deməк, hünər də, istedad da bu mühitdə insanı xoşbəxtlik yoluna çıxara bilmir, bəzən isə, şəxsiyyətin düşməninə çevrilir. Füzuli və onun qəhrəmanının üsyanı da buradan doğur. Bəzən qəhrəman xəyalında qurduğu azad sevgilər, azad əməllər dünyasından ayrılıb başdan-ayağa rəzalət və çirkab içərisində çapalayan real həyata nəzər salınca, pərişan olur. Tapdığı ən əziz, ən gözəl nemətdən məhrum edilmiş kimi, qəm dəryasına batır. Bu ruhi təlatüm çox vaxt onda eyni zaman vahidində baş verdiyi üçün, bir şeirdə Füzulinin həm güldüyünü, həm də ağladığını görürük. Bununla belə, Füzulinin şeirlərində aşiqin-lirik qəhrəmanın uca, azadə pərvazları, fələyin bağrını sökən qartal qiyyələri, haykırıqlarıdır aparıcı....*

Cifeyi-dünya deyil kərkəs kimi mətlibumuz,
Bir bölük ənğalarız, Qafi-qənaət bəkləriz!

*Füzuli və onun qəhrəmanlarının təbiətini, xarakterini bu kimi beytlər daha aydın, daha dəqiq ifadə edir.*

Dövləti-dünya üçün çəkmən səlatin minnətin,
Fəqr sultanı mənəm kim, dövlətimdir cavidan!

*Şair, əbədiyyət kimi bir dövləti varkən, sultanların minnətlə verdiyi dövlət və minnətə etina etmirdi. Kərkəs-leşxor leşə qonar,*



Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

*Füzuli deyir ki, biz bir bölük əngəlarıq-gözlədiyimiz qənaət Qafidır!*

*Füzuli özünü Yer üzərində "allahın kölgəsi" sayan sultanları çakər-nökər adlandırır, xadim olmayan vəzirləri, vəkilləri, katibləri "əhli-fəna" hesab edirdi. Vəzifə (nazir) müraciətlə yazırdı: "Zaman, şərait səni hakimiyyətə yetiribsə, çalış ki, vəzifə başında nagah təbiətin dəyişməsin. Divan-dövlət dəbdəbəsi səni məst etməsin. Olmaya, insaf və ədalət üçün mismarlandığın halda, fəsad əhlinə çönəsən, imanını atıb da, köməkçilərin, yaxınların səndən şeytan düzəltmiş olalar...*

*Qaziyə-xalq hakiminə dediyi söz budur:*

*"Çalış ki, dünyəvi ehtiraslar, hökm verərkən, səhvə salmasın səni. Elmin, mərifətin xalıq içərisində səni hörmətə yetiribsə, rüşvətxorluq tanrı hüzurunda üzüqara etməyə (adamlıqdan çıxarmaya)* səni.."*

*Dövlət və xalq problemi Füzulinin qəsidə və qitələrində xüsusilə diqqəti çəkir. Yuxarıda gətirdiyimiz misallar qitələrindir. Qəsidələrində isə, dövlət və xalq münasibətləri məsələsi daha geniş, daha dərin şəkildə qoyulur. Və mövzunun ayrıca şərh olunmağa dəyəri var. Burada isə, lirikası ilə bağlı olaraq, bütövlük xatirinə qısaca qeydlərimizi veririk.*

*Füzuli də, böyük sələfi Nizami kimi, zəmanə hakimlərini ədalətli olmağa çağırır, onların yatmış vicdanını yuxudan oyatmaq istəyir. O da, sultanı xalqın qulu adlandırır. Onun əsas vəzifəsini xalqı firavan və xoşbəxt yaşatmaqda, mədəniyyət, elm və maarifi yaymaqda görür. Şair "hökmüdür vasiteyi-mövtü həyati xəlqin"- deyə ölkənin, xalqın ölüm-dirim məsələsinin hakimin ağıllı və ya ağılsız qərarında tapır. Hökmdə-qərarda riyaya, yalana yol*

* Lənətlənməyəsən





*vermək, olmaz. Verilərsə, zalimə qılınc vermək kimi bir şeydir:*

Vay ol hakimə kim, eyləyə hökmündə riya,
Verə zalımlara öz nəfi üçün istila!.

*Demək, ustad sözdən şimşək qayırmağı da bacarırdı. Füzuli zəmanə padşahlarını xalq qəzəbilə qorxudur, zalimlərə acınacaqlı aqibətlərini göstərirdi. O, "mənəm-mənəm" deyən sultanları bayquşa, istila etdikləri ölkəni xarabaya oxşadırdı:*

Ey, olub sultan, deyən: "Dünyada məndən qeyri yox!"
Sən səni bir cüğd bil, dünyanı bir viranə tut...

*Hakim-rəiyyət məsələsi Füzulinin "Ənisül-qəlb" ("Könül sirdaşı") əsərində daha aydın və parlaq ifadəsini tapmışdır. Şair göstərir ki, hakimin xeyri üçün kəndli bir ağac əkib. O ağacdan özü də bəhər gözləyir. Hakim isə, ağacı kəsib, ondan taxt-rəvan düzəldir...*

*Şair hakimə üz tutaraq deyir ki, sən kəndlinin malına ortaqsan, sənin yeməyin-içməyin, əyin-başın onun zəhmətindən, dövlətindəndir. Belə olduqca, heç olmasa özünün xatirinə onu müdafiə etməlisən. Nə edəsən ki, onu çalıb-çapan sən özünsən!."*

*Şahid beyt budur:*

Deyilsən şadların halına agah, dərk qılmazsan
Ki, şah xəlqi soyar, ancaq verər əyana ehsanı...

*Füzuli qocalıq çağlarında yazdığı bu əsərində zalimlərin taxt-rəvanının əzəl-axır məzlumların göz yaşı selində qərq olacağını xəbər verirdi.*

*Mütəfəkkir şair təcrübədə görmüşdü ki, hakimlərin dəyişməsilə xalq həyatında heç bir şey dəyişmir. Və bunlar xalqa bir şey verməyə qadir deyillər.*

*Böyük şairin ölməz sənəti, beləliklə, əsarətdə yaşayan xalqların ictimai oyanma tarixinə təsirsiz qalmırdı. Füzuli, göründüyü kimi, yaradıcılığının dərin xəlqi mahiyyəti və yüksək humanist idealları ilə XVI yüzillikdə yeni Azərbaycan renesansını dühasına müyəssər bir ləyaqət və əzəmətlə təmsil edirdi.*

*Füzulinin milli-coğrafi sərhəd tanımayan ölməz poeziyası bu gün də dostluq, qardaşlıq, beynəlmiləlçilik ideyalarının qələbə və təntənəsinə yol açır. Şairin Şərqin üç əsas dilində yaratmış olduğu əsərlər dünyamızda bu gün də davam edən əsarətgətirici müharibələrə, zülm və zorakılığın hər cür təzahürrünə qarşı insanların ürəyində amansız nifrət və qəzəb doğruur.*

*Füzuli bu gün də, mənəvi müasirimiz kimi, qabaqcıl bəşəriyyətin tərəqqi və təkamülə doğru hərəkət seyrində öz qüdrətli, insanpərvər poeziyası ilə yaxından iştirak edir. Füzuli şeiri bu gün də azadlıq və istiqlaliyyət uğrunda çarpışan, sülh, əmin-amanlıq, xoşbəxtlik və gözəlliyə can atan məzlum Şərq üçün, dünyamız üçün böyük ümid və təsəlli mənbəyi, mübarizə və fədakarlıq məktəbidir.*

***Firuz Sadıqzadə***



# Məhəbbət şərgiləri



*Bəhrlər seyr eyləsən, mütləq tər olmaz damənin,*
*Qər havayı-eşq ilə məmluv isən yelkən kimi...*

# QƏZƏLLƏR

Heyrət, ey büt, surətin gördükdə lal eylər məni,
Surəti-halim görən surət xəyal eylər məni.

Mehr salmazsan mənə, rəhm eyləməzsən bunca kim,
Sayə tək seydayi-zülfün paymal eylər məni.

Zəfi-tale manei-tovfig olur, hər necə kim,
İltifatın arzuməndi-vüsal eylər məni.

Mən gəda, sən şahə yar olmaq yox, amma neyləyim,
Arzu sərgəşteyi-fikri-mühal eylər məni.

Tiri-ğəmzən atma kim, bağrım dələr, qanım tökər,
İqdi zülfün açma kim, aşüftəhal eylər məni.

Dəhr vəgf etmiş məni növrəs cavanlar eşqinə
Hər yetən məhvəş əsiri-xəttü xal eylər məni.

Ey Füzuli, qılmazam tərki-təriqi eşq kim,
Bu fəzilət daxili-əhli-kamal eylər məni.





Ey mələksima ki, səndən özgə heyrandır sana,
Həqq bilir, insan deməz hər kim ki, insandır, sana.

Verməyən canın sana bulmaz həyati-cavidan,
Zindeyi-cavid ana derlər ki, qurbandır sana.

Aləmi pərvaneyi-şəmi-camalın qıldı eşq,
Çün Məsihi-vəqtsən, can vermək asandır sana.

Çıxma yarım gecələr, əğyar tənindən saqın,
Sən məhi-övci-məlahətsən, bu nöqsandır sana.

Padşahım, zülm edib aşiq sana zalım demiş,
Xubrulardan yaman gəlməz, bu böhtandır sana.

Ey Füzuli, xubrulardan təğafüldür yaman,
Gər cəfa həm gəlsə onlardan, bir ehsandır sana.

Dustum, aləm səninçün gər olur düşmən mana,
Ğəm deyil, zira yetərsən dust ancaq sən mana.

Eşqə saldım mən məni, pənd almayıb bir dustdən,
Hiç düşmən eyləməz ani ki, etdim mən mana.

Canü tən olduqca, məndən dərdü dağ əksik deyil,
Çıxsa can, xak olsa tən, nə can gərək, nə tən mana.

Vəsl qədrin bilmədim, hicran balasın çəkmədən,
Zülməti-hicr etdi çox mübhəm işi rövşən mana.

Dudü əxkərdir mana sərv ilə gül, ey bağban,
Neylərəm mən gülşəni, gülşən sana, gülxən mana.

Ğəmzə tiğin çəkdi ol məh, olma ğafil, ey könül,
Kim, müqərrərdir bu gün ölmək sana, şivən mana.

Ey Füzuli, çıxdı can, çıxman təriqi-eşqdən,
Pəhgüzari-əhli-eşq üzrə qılın mədfən mana.





Ğəm diyarında əcəl peyki güzar etməz mana,
Yox sanıb varım məgər kim, etibar etməz mana.

Yar cövr etməz mana əğyar təlim etmədən.
Billah, əğyar eyləyən ehsanı yar etməz mana.

Dağıdır hər ləhzə rəxti-eyşimi ahım yeli,
Qanğı nahəq zülmdür kim, rüzgar etməz mana.

Eşq zövqilə xoşam, tərki-nəsihət qıl, rəfiq,
Mən ki, tiryaki mizacəm, zəhr kar etməz mana.

Çərxdən aşurmadan yadınla əhi-atəşin,
Qədr edib gərdun şərərdən zər nisar etməz mana.

Nəqdi-can təraci-ğəmdən saxlamaq düşvardır,
Eşq ta səngi-məlamətdən hasar etməz mana.

Yadi ləlinlə Füzuli gözləyib rahi-ədəm,
Var bir tədbiri, amma aşkar etməz mana.

Ğəmdən öldüm demədim hali-dili-zar sana,
Ey güli-tazə, rəva görmədim azar sana.

İç meyi-nab ki, bağrından edər cümlə kabab,
Atəşi-eşqlə üşşaqi-cigərxar sana.

Meyi-gülgunda deyil nərgisi-məstin əksi,
Qədəh olmuş, göz açıb, aşiqi didar sana.

Arizin gül-gül edibdir meyi-gülgün tabı,
Vəh ki, bir güldən açılmış neçə gülzar sana.

Bağə seyr et bu rüxi-ləl ilə kim, qönçəvi gül
Göstərə xuni-dilü dideyi-xunbar sana.

Der idim qamətinə sərv, vəli özgə imiş
Hərəkatü rəvişü şivəvü rəftar sana.

Əyilib tərfi-binaguşinə, dərdi-dilimi
Ya o taqın deyə, ya türreyi-tərrar sana.

Mən giriftarinamü fitnədən olman azad,
Hiç kim olmasın, ey şux, giriftar sana.

Ləli-nabın həvəsi bağrımı qan eylədiyin,
Ah kim, qanlı yaşım qalmadı izhar sana.

Ey Füzuli, fələyin var səninlə nəzəri,
Kim, ğəmü möhnətini verdi nə kim var sana.





Ğəmzəsin sevdin, könül, canın gərəkməzmi sana?
Tiğə urdun cismi üryanın, gərəkməzmi sana?

Atəşin ahımla eylərsən mənə təklifi bağ,
Bağban, gülbərgi-xəndanın gərəkməzmi sana?

Yelə vermə dağıdıb hər yan, ayaqlardan götür,
Ey pəri, zülfi-pərişanın, gərəkməzmi sana?

Ey kamanəbru, rəqibə vermə ğəmzəndən nəsib,
Ox atarsan daşa, peykanın gərəkməzmi sana?

Yandırıb canım, cahansuz etmə bərqi-ahımı,
Asiman, xurşidi-rəxşanın gərəkməzmi sana?

Küfr zülfündən məni mən eyləmək layiqmidir,
Sufi, insaf eylə, imanın gərəkməzmi sana?

Tutalım kim, əşk seylabına yoxdur etibar,
Ey Füzuli, çeşmi-giryanın gərəkməzmi sana?

Ey bıvəfa ki, adət olubdur cəfa sana,
Billah, cəfadır, olma demək bivəfa sana.

Gah nazü gah kirişməvü gah işvədir işin,
Canın sevənlər olmasa yey aşina sana.

Min can olaydı kaş məni-dilşikəstədə,
Ta hər birilə bir gəz olaydım fəda sana.

Eşqində mübtəlalığımı eyb edən sanır,
Kim, olmaq ixtiyar ilədir mübtəla sana.

Ey dil ki, hicrə doymayıb, istərsən ol məhi,
Şükr et bu halə, yoxsa gələr bir bəla sana.

Ey gül, ğəmində əşk rüxi-zərdim etdi al,
Bildirdi ola surəti-halım səba sana.

Düşmənəz çü şah qübri, Füzuli, gədalara,
Olşahdan iltifat nə nisbət mana, sana?





Canımın cövhəri ol ləli-gühərbarə fəda,
Ömrümün hasili ol şiveyi-rəftarə fəda.

Dərd çəkmiş başım ol xali-siyəh qurbanı,
Tab görmüş tənim ol türreyi-tərrarə fəda.

Gözlərimdən saçılan qətreyi-əşkim gühəri
Ləblərindən tökülən lölöi-şəhvarə fəda.

Çaki sinəmdə olan qanlı ciyər parələri
Məst çeşmində olan ğəmzeyi-xunxarə fəda.

Parə-parə dili-məcruhi-pərişanımdan
Səri-kuyində olan hər itə bir parə fəda.

Canü dil qeydini çəkməkdən özüm qurtardım,
Canı cananəyə etdim, dili dildarə fəda.

Ey Füzuli, nola gər saxlar isəm canı əziz,
Vaxt ola kim, ola ol şuxi-sitəmkarə fəda

Mənim tək hiç kim zarü pərişan olmasın, ya rəb!
Əsiri-dərdi-eşqi daği-hicran olmasın, ya rəb!

Dəmadəm cövrlərdir çəkdiyim birəhm bütlərdən,
Bu kafərlər əsiri bir müsəlman olmasın, ya rəb!

Görüb əndişeyi-qətlimdə ol mahi, budur virdim
Ki, bu əndişədən ol məh peşiman olmasın, ya rəb!

Çıxarmaq etsələr təndən çəkib peykanın ol sərvin,
Çıxan olsun dili-məcruh, peykan olmasın, ya rəb!

Cəfavü cövr ilə mötadəm, onlarsız nolur halım,
Cəfasına hədü cövrünə payan olmasın, ya rəb!

Deməк kim, ədli yox, ya zülmü çox, hər hal ilə olsa,
Könül taxtına ondan qeyri sultan olmasın, ya rəb!

Füzuli buldu gənci-afiyət meyxanə küncündə,
Mübarək mülkdür, ol mülk viran olmasın, ya rəb!





Sübh salıb mah rüxündən niqab,
Çıx ki, tamaşayə çıxa əftab!

Rişteyi-canım yetər, et bir gireh,
Salma səri-zülfi-səmənsayə tab.

Məst çıxıb, salma nəzər hər yana,
Görmə rəva kim, ola aləm xarab.

Kəsmə nəzər canibi-üşşaqdən,
Naleyi-dilsuzdən et ictinab.

Şamlər əncüm sayıram sübhə dək,
Ey şəbi-hicrin mənə ruzi-hesab.

Duzəxə girməz sitəmindən yanan,
Qabili-cənnət deyil əhli-əzab.

Saldı ayaqdan ğəmi-aləm məni,
Ver mənə ğəm dəfinə, saqi, şərab!

Rəhm qıl üftadələrin halına,
Hiç gərəkməzmi sənə bir savab?!

Yar sual etsə ki, halın nədir,
Xəstə Füzuli, nə verərsən cavab?

Qılsa vəslin şamımı sübhə bərabər yox əcəb,
Rəsmdir fəsli bahar olmaq bərabər ruzü şəb.

Gün ki, sayən düşdüyü yerdən durar, bir vəchi var,
Gəlsə aliqədrlər fəxr əhli durmaqdır ədəb.

Olmadan meyxaneyi-eşqində məsti-cami-zövq,
Düzmədi bəzmi fələkdə Zöhrə qanuni-tərəb.

Cənnəti vəslindir ol məqsəd ki, iman əhlinə
Qılsa haq ruzi cəhənnəm atəşi, oldur səbəb.

Ğaliba məqsəd vüsalındır ki, dün-gün durmayıb,
Çərx sərgərdan gəzər, bilməz nədir rəncü təəb.

Bəsteyi zənciri-zülfündür nəsimi-tərmizac,
Təşneyi-cami-vüsalındır mühiti-xüşgləb.

Qılma feyzi-neməti-vəslin Füzulidən diriğ,
Yoxdur özgə məqsədi, səndən səni eylər tələb.





Ol ki, hər səhər gülərdi çeşmi-giryanım görüb,
Ağlar oldu halıma, birəhm cananım görüb.

Eyləyən təyini-əczayi-müdava dərdimə,
Tərk edib, cəm etmədi hali-pərişanım görüb.

Lalərüxlər köksümün çakına qılmazlar nəzər,
Hiç bir rəhm eyləməzlər dağı pünhanım görüb.

Tut gözün, ey dudi-dil, çərxin ki, dövrün tərk edib,
Qalmasın heyrətdə çeşmi-gövhərəfşanım görüb.

Pərtövi-xurşid sanmın, yerdə kim, dövri fələk
Yerə vurmuş aftabın mahi-tabanım görüb.

Suda əksi-sərv sanmın kim, qoparıb bağban,
Suya salmış sərvini, sərvi xuramanım görüb.

Ey Füzuli, bil ki, ol gül arizin görmüş deyil,
Ol ki, tən eylər mənim çaki-girabanım görüb.

Yürü, yetir mənə, ey simi-əşk, bidad et,
Gər ağcan ilə alınmış qul isəm, azad et!

İtirmə itləri avazının, könül, zövqün,
Yetər qara gecə hərzə-hərzə fəryad et!

Xarab olan könül, ey büt, sənin məqamındır,
Təğafül eyləmə, bir qaç daş ilə abad et!

Eşitmədinmi, könül, eşq müşgül olduğunu,
Sənə bu müşgül işi dedi ki, bünyad et?!

Xilafi-adətə çox olma, ey pəri, mail,
Yetər füsun ilə təsxiri-adəmizad et!

Səba əsirləri qəsdin eyləmiş ol gül,
Bizi pəm onda əgər düşsə fürsətin, yad et!

Füzuli, istər isən izdiyadi-rütbeyi-fəzl,
Diyari-Rum gözət, tərki-xaki-Bağdad et!





Səba, əğyardən pünhan, ğəmimı dildarə izhar et,
Xəbərsiz yarımı hali-xərabımdan xəbərdar et.

Gətir yadım onun yanında, vər görsən ki, qəhr eylər,
Xəmuş olma, yenə düşnam təqribilə təkrar et.

Könül ğəm günlərin tənha keçirmə, istə bir həmdəm,
Əcəl xabından, əfğanlar çəkib, Məcnunu bidar et.

Çü yox eşq atəşi bir şölə çəksə taqətin, ey ney,
Baş ağrıtma, dəmi-eşq urma, ancaq naleyi-zar et.

Məni rəşk oduna pərvanə tək, ey şəm, yandırma,
Yetər xürşidi-rüxsarın çırağı-bəzmi-əğyar et!

Giriftari-ğəmi-eşq, olalı azadeyi-dəhrəm,
Ğəmi-eşqə məni bundan bətər, ya rəb, giriftar et!

Füzuli, baxmaq olur ol günəş yadilə xürşidə,
Nə vəch ilən kim, olsa gün keçər, fikri-şəbi-tar et!

Can çıxır təndən, könül, zikri-ləbi-yar eyləgəc,
Tən bulur can yenlədən ol ləfzi təkrar eyləgəc.

Qılma, ey əfğan, gözün bidar, məsdi-xab ikən,
Olmaya bir fitnə peyda ola, bidar eyləgəc.

Söhbətimdən ar edib, ey gül, məni tərk etmə kim,
Gül olur əfsürdə tərki-söhbəti-xar eyləgəc.

Varımı fikri-dəhanınla yox etdim, kim, qəza,
Böylə əmr etmiş mənə, yoxdan məni var eyləgəc.

Ərzi-rüxsar et bu gün, ey məh, güm olsun göydə gün,
Öylə kim, əncüm olur, gün ərzi-rüxsar eyləgəc.

Hər zəban bir tiğdir guya Züleyxa qətlinə,
Yusifi almaqda əhli-eşq bazar eyləgəc.

Naleyi-zarım, Füzuli, xoş gəlir ol gülrüxə,
Açılır gül könlü, bülbül naleyi-zar eyləgəc.





Könlüm açılır zülfi-pərişanını görgəc,
Nitqim tutulur qönçeyi-xəndanını görgəc.

Baxdıqca sənə qan saçılır didələrimdən,
Bağrım dəlinir navəki-müjganını görgəc.

Rənalıq ilə qaməti-şümşadı qılan yad,
Olmazmı xəcil sərvi-xüramanını görgəc!

Çox eşqə həvəs edəni gördüm ki, havasın,
Tərk etdi, sənin aşiqi-nalanını görgəc.

Kafər ki, deyil mötərifi-nari-cəhənnəm,
İmanə gələr ataşi-hicranını görgəc.

Naziklik ilə qönçeyi-xəndanı edən yad,
Etməzmi həya ləli-dürəfşanını görgəc?

Sən hali-dilin söyləməsən nola, Füzuli,
El fəhm qılır caki-giribanını görgəc.

Gər deyil bir mah mehrilən mənim tək zar sübh,
Başın açıb, nişə hər gün yaxasın yırtar sübh?

Gün deyil, hər gün bir ay mehrilə köksün çak edib,
Tazə-tazə dağlardır kim, qılır izhar sübh.

Tiği-xurşid ilə rəf olsa, yeridir kim, müdam,
Yandırıb pərvanəyi, şəmə verir azar sübh.

Sübhi şamü, şamı sübh olmuş mənəm aləmdə kim,
Şam şəmi-bəzm olub, ayrıldı məndən yar sübh.

Gör nə aşiqdir ki, bir xurşid vəslin bulmağa,
Sərf edər hər ləhzə min-min lölöyi-şəhvar sübh.

Eşqdə sadiqliq izhar etdi dağın göstərib,
Ğaliba derlərdir kazib, qıldı ondan ar sübh.

Hicr şamında ğəm etmişdi, Füzuli, qəsdi-can,
Olmasaydı mərhəmətdən dəm urub qəmxar sübh.





Qansı mahın, bilməzəm, mehrilə olmuş zar sübh,
Hər gün eylər xəlqə bir daği-nihan izhar sübh?

Batdı əncüm, çıxdı gün, ya bir əsiri-eşqdir,
Tökdü dürri-əşki, çəkdi ahi-atəşvar sübh?

Nola gər əmvatə ehya versə sübhün dəmləri,
Zikri-ləlindir kim, eylər dəmbədəm təkrar sübh.

Bir müsəvvirdir ki, zərrin kilk ilə hər gün çəkər,
Səfheyi-gərdunə nəqşi-arizi-dildar sübh.

Müjdə bir xurşiddən vermiş məgər badi-səhər,
Kim, nisar eylər ona yüz min düri-şəvar sübh?

Aşiqi-sadiqdir izhari-ğəm eylir hər səhr,
Ah ilə xəlqi yuxusundan qılır bidar sübh.

Ey Füzuli, şami-ğəm əncamına yoxdur ümid,
Bir təsəllidir sənə ol söz ki, derlər var sübh.

Kimsədə rüxsarına taqəti-nəzzarə yox,
Aşiqi öldürdü şövq, bir nəzərə çarə yox.

Bağrı bütünlər mənə tənə edərlər müdam,
Halımı şərh etməyə bir cigəri parə yox.

Yığdı mənim başıma dəhr ğəmin, neynəsin,
Badieyi-eşqdə mən kimi avarə yox.

Dəhrdə həmta sənə var pərirüx desəm,
Var gözəl çox, vəli sən kimi xünxarə yox.

Gözdə gəzib cizginir qətreyi-əşkim müdam,
Qətreyi-əşkim kimi çərxdə səyyarə yox.

Çak görüb köksümü, qılma əlacını, təbib,
Zaye olur mərhəmin, məndə bitər yarə yox.

Zarlığım eşqdən var, Füzuli vəli,
Ol məhi-bimehrdən rəhm məni-zarə yox.





Ləblərin tək ləlü ləfzin tək düri-şəhvar yox,
Ləlü gövhər çox, ləbin tək ləli-gövhərbar yox.

Səndən etmən dad: "Cövrün var, lütfün yox" deyib,
Məsti-zövqi-şövqünəm, birdir yanımda var, yox.

Kimə izhar eyləyim bilmən bu pünhan dərdi kim,
Var yüz min dərdi-pünhan, qüdrəti-izhar yox.

Dövr sərməsti-şərabi-qəflət etmiş aləmi,
Munca sərməstin tamaşasına bir hüşyar yox.

Xəlqi mədhuş eyləmiş xabi-şəbi-tuli-əməl,
Sübh təhqiqi əlamatına bir bidar yox.

Surəti-ziba-sənəmlər yox demən bütxanədə,
Var çox, amma sənə bənzər büti-xunxar yox.

Ey Füzuli, səhldir hər ğəm ki, ğəmxari ola,
Ğəm budur kim, məndə min ğəm var, bir ğəmxar yox.

Nalədəndir ney kimi avazeyi-eşqim bülənd,
Nalə tərkin qılmazam ney tək kəsilsəm bənd-bənd.

Qıl mədəd, ey bəxt, yoxsa kami-dil mümkün deyil,
Böylə kim, ol dilrüba bidərddir, mən dərdmənd.

Dağlardır odlu köksümdə qarası qopmamış,
Ya səbati-eşq üçün od üzrə bir neçə sipənd.

Açılır könlüm gəhi kim, giryeyi-təlxim görüb,
Açar ol gülrüx təbəssüm birlə ləli-nüşxənd.

Xaki-rahından məni qaldıra bilməz sayə tək,
Qılsa gərdun aftabın hər şüaın bir kəmənd.

Cam tut der saqiyi-gülçöhrə, zahid tərki-cam,
Ey könül, fikr eylə, gör kim, qansıdır tutmalı pə.

Ey Füzuli, surəti-fəqrin qəbuli-dustdur.
Hiç dərvişi sənin tək görmədim sultanpəsənd.





Gah gözdə, gah könüldə xədəngin məkan tutar,
Hər qanda olsa, qanlını əlbəttə qan tutar.

Dil çəksə nola canü təni xaki-kuyinə,
Xarü xəs iltər onda ki, quş aşiyan tutar.

Zikri-ləbinlə zülfünə can buldu dəstrəs,
Onun kimi ki, oxuyub əfsun ilan tutar.

Dil tutdu qönçə ilə bərabər dəhanını,
Bu əqli-naqis ilə özün nüktədan tutar.

Xürşid xirməninə urar şölə-şölə od,
Ahım ki, ləhzə-ləhzə rəhi-asiman tutar.

Can eylədikcə meyli-tamaşayi-qamətin,
Göz rövzənin sirişgi-rəvanım rəvan tutar.

Tutmaq dilər qapında Füzuli məqam, leyk,
Bu sirri kimsəyə aça bilməz, nihan tutar.

Pərişan xəlqi-aləm ahu əfğan etdiyimdəndir,
Pərişan olduğum xəlqi pərişan etdiyimdəndir.

Təni-zarımda dərdi-eşq gün-gündən füzun olmaq,
Yetər bidərdə tədbirilə dərman etdiyimdəndir.

Gözüm kim, bağrımın qanın tökər parkalə-parkalə,
Dəmadəm arzuyi-ləli-canan etdiyimdəndir.

Deyil bihudə gər yağsa fələkdən başıma daşlar,
Binasın tişeyi-ahımla viran etdiyimdəndir.

Qaçan rüsva olurdum qan udub səbr edə bilsəydim,
Məlamət çəkdiyim bihudə əfğan etdiyimdəndir.

Xəta səndən deyil, cismim oxundan binəsib olsa,
Hübabi-əşki-gülgun içrə pünhan etdiyimdəndir.

Füzuli, ixtilati-mərdümi-aləmdən ikrahım,
Pərivəşlər xəyalın munisi-can etdiyimdəndir.





Canı kim cananı üçün sevsə, cananın sevər,
Canı üçün kim ki, cananın sevər, canın sevər.

Hər kimin aləmdə miqdarıncadır təbində meyl,
Məni ləbi-cananımı, Xızr abi-heyvanın sevər.

Başa dəm düşdükcə təqsir eyləməz, eylər mədəd,
Ol səbəbdən müttəsil çeşmim ciyər qanın sevər.

Mişki-Çin avarə olmuşdur vətəndən mən kimi,
Qansı şuxun bilməzəm zülfi-pərişanın sevər.

Su ki, sərgərdar gəzər, başında vardır bir hava,
Ğaliba, bir gülrüxün sərvi-xuramanın sevər.

Nolacaqdır, tərki-eşq etmə, Füzuli, vəhm edib,
Ğayəti, derlər, bir bəndə sultanın sevər.

Mehri könlümdə nihan olduğun ol mah bilir,
Kimsə bilməz, füqəra sirri-dilin şah bilir.

Sorman ol mahilə hali-dilimi, tanrı üçün,
Biləli onu özüm, bilməzəm allah bilir.

Gah yüz lütf qılır, gah təğafül, guya,
Gah bilməz bu giriftarlığım, gah bilir.

Can fəda eyləməyi yara həmin mən bilirəm,
Bu təriqi demə hər qafilü gümrah bilir.

Nəzəri-lütf diriğ etmə Füzulidən kim,
Sənə sidqilə özün bəndeyi-dərgah bilir.





Ah eylədiyim sərvi-xuramanın üçündür.
Qan ağladığım qönçəyi-xəndanın üçündür.

Sərgəştəliyim kakili-mişginin ucundan,
Aşüftəliyim zülfi-pərişanın üçündür.

Bimar tənim nərgisi-məstin ələmindən.
Xunin ciyərim ləli-dürəfşanın üçündür.

Yaxdım tənimi vəsl günü şəm tək, amma,
Bil kim, bu tədarük şəbi-hicranın üçündür.

Qurtarmağa yəğmayi-ğəmindən dilü canı,
Səyim nəzəri-nərgisi-fəttanın üçündür.

Can ver, könül, ol ğəmzəyə kim, bunca zamanlar,
Can içrə səni bəslədiyim onun üçündür.

Vaiz bizə dün düzəxi vəsf etdi, Füzuli,
Ol vəsf sənin gülbüyi-əhzanın üçündür.

Hüsnün olduqca füzun eşq əhli artıq zar olur,
Hüsn nə miqdar olursa, eşq ol miqdar olur.

Cənnət üçün mən edən aşiqləri didardən,
Bilməmiş kim, cənnəti aşiqlərin didar olur.

Eşq dərdindən olur aşiq mizacı müstəqim,
Aşiqin dərdinə timar etsələr, bimar olur.

Zahidi-xudbin nə bilsin zövqünü eşq əhlinin,
Bir əcəb meydir məhəbbət kim, içən hüşyar olur.

Eşq sevdasına sərf eylər Füzuli ömrünü,
Bilməzəm bu xabi-qəflətdən qaçan bidar olur.





Ey gül, nə əcəb silsileyi-mişki-tərin var,
Vey sərv, nə xoş canalıcı işvələrin var!

Acıtdı məni acı sözün, tünd nigahın,
Ey nəxli-məlahət, nə bəla bərgü bərin var!

Peykanları ilə doludur çeşmi-pürabım,
Ey bəhr, sanırsan sənin ancaq göhərin var!

Ol səngdilə naleyi-zarın əsər etmiş,
Ey dil, sənə bu zövq yetər, ta əsərin var!

Eşq içrə, könül, demə ki, mən bixüdəm, ancaq,
Ey qafil, özündən sənin ancaq xəbərin var.

Dedim: "yetər et cövr, çü xaki-rəhin oldum".
Dedi ki: "yetər cövr sənə ta əsərin var".

Çox baxdığına ğəmzə ilən bağrın üzərsən,
Hər kimə ki, baxmazsan, onunla nəzərin var.

Eşq əhlinə ol mah, Füzuli, nəzər etmiş,
Sən həm özünü göstər əgər bir hünərin var.

Tökdükcə qanımı oxun, ol asitan içər,
Bir yerdəyəm əsir ki, torpağı qan içər.

Əhli-zamanə qanına çox təşnədir zəmin,
Qanın kimin tökərsə, fələk ol zaman içər.

Mey içmədən açılmaz imiş babi-məğfirət,
Sövgəndlər bu babdə piri-müğan içər.

Üqbadə kövsər istəməsin rindi-meykədə,
Dünyadə bəs deyilmi meyi-ərğəvan içər.

Ğəmzən görünməyib gözə, qanlar içər müdam,
Zahid kimi ki, badəni eldən nihan içər.

Meydən əgərçi tövbə verir el Füzuliyə,
Ey sərv, sən qədəh sunar olsan, rəvan içər.





Məndə Məcnundan füzun aşiqlik istedadı var,
Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var.

Nola qan tökməkdə mahir olsa çeşmin mərdümü,
Nütfeyi-qabildürür, ğəmzəm kimi ustadı var.

Qıl təfaxür kim, sənin həm var mən tək aşiqin,
Leylinin Məcnunu, Şirinin əgər Fərhadı var.

Əhli-təmkinəm, məni bənzətmə, ey gül, bülbülə,
Dərdə yox səbri onun, hər ləhzə min fəryadı var.

Öylə bədhaləm ki, əhvalım görəndə şad olur,
Hər kimin kim, dövr cövründən dili-naşadı var.

Gəzmə, ey könlüm quşu, qafil fəzayi-eşqdə,
Kim, bu səhranın güzərgahlarda çox səyyadı var.

Ey Füzuli, eşq mənin qılma nasehdən qəbul,
Əql tədbiridir ol, sanma ki, bir bünyadı var.

Aşiyani-mürği-dil zülfi-pərişanındadır,
Qanda olsam, ey pəri, könlüm sənin yanındadır.

Eşq dərdilə xoşam, əl çək əlacımdan təbib,
Qılma dərman kim, həlakım zəhri-dərmanındadır.

Çəkmə damən naz edib üftadələrdən, vəhm qıl,
Göylərə açılmasın əllər ki, damanındadır.

Gözlərim yaşın görüb şur, etmə nifrət kim, bu həm,
Ol nəməkdəndir ki, ləli-şəkkərəfşanındadır.

Məsti-xabi-naz olub cəm et dili-sədparəmi
Kim, onun hər parəsi bir növki-müjganındadır.

Bəs ki, hicranındadır xasiyyəti-qəti-həyat,
Ol həyat əhlinə heyranəm ki, hicranındadır.

Ey Füzuli, şəm tək mütləq açılmaz yanmadan,
Tablar kim, sünbülündən rişteyi-canındadır.





Ol pərivəş kim, məlahət mülkünün sultanıdır.
Hökm onun hökmüdürür, fərman onun fərmanıdır.

Sürdü Məcnun növbətin, indi mənəm rüsvayi-eşq,
Doğru derlər hər zaman bir aşiqin dövranıdır.

Ləhzə-ləhzə könlüm odundan şərərlərdir çıxan,
Qətrə-qətrə göz tökən sanmış sirişkim qanıdır.

Çaklər köksümdə tiği-eşqdən, eyb etməyin,
Kim, cünun gülzarının bunlar güli-xəndanıdır.

Ey Füzuli, ola kim, rəhm edə yar əfğanına,
Ağlagil zar, onca kim, zar ağlamaq imkanıdır.

Mənim kim, bir ləbi-xəndan üçün giryanlığım vardır.
Pərişan türrələr dövründə sərgərdanlığım vardır.

Yaşım təxti-rəvandır, taci-zərrin şöleyi-ahım,
Görün kim, dövləti-eşq ilə nə sultanlığım vardır.

Yumulmaz əşk tüğyanından ansız çeşmi-xunbarım,
Xəyali-surəti-canana xoş heyranlığım vardır.

Sirişkim gör, məni ey əbr, özündən, kəm xəyal etmə.
Havayi-eşqlə min səncə əşkəfşanlığım vardır

Ləbin dövründə kim insan olan candır ona mütləq,
Əgər abi-həyat etsəm tələb, heyvanlığım vardır.

Füzuli cami-mey tərkin qılıb zöhd ilə təqvadan,
Qamu damaya rövşəndir bu kim, nadanlığım vardır.





Sərvi-azad qədinlə mənə yeksan görünür,
Nəyə sərgəştə ola baxsa xuraman görünür.

Can görünməz desələr təndə inanman, nişə kim,
Lütfdən hər gecə baxsam təninə can görünür.

Derəm əhvalımı canana qılam ərz, vəli,
Görə bilməm özümü onda ki, canan görünür.

Ey deyən: "səbr qıl, ah eyləmə yarı göricək"
Mənə düşvardır ol, gər sənə asan görünür.

Sordum əhvalımı eşqində münəccimlərdən,
Baxdılar tale evinə, dedilər: "qan görünür!"

Nə kamandarsan, ey məh ki, atıb ğəmzə oxun,
Yıxdığın seyddə nə zəxm, nə peykan görünür.

Bir sənəm zülfünə guya ki, verilibdir könlün
Ki, Füzulinin ikən halı pərişan görünür.

Şəfayi-vəsl qədrin hicr ilə bimar olandan sor,
Zülali-zövq şövqün təşneyi-didar olandan sor.

Ləbin sirrin gəlib gövtarə məndən, özgədən sorma,
Bu pünhan nüktəni bir vaqifi-əsrar olandan sor.

Gözü yaşlıların halın nə bilsin mərdümi-ğafil,
Kəvakib seyrini şəb ta səhər bidar olandan sor.

Xəbərsiz olma fəttan gözlərin cövrün çəkənlərdən,
Xəbərsiz məstlər bidadını hüşyar olandan sor.

Qəmindən şəm tək yandım, səbadan sorma əhvalım,
Bu əhvalı şəbi-hicran mənimlə yar olandan sor.

Xarabat-cami-eşqəm, nərgisi məstin bilir halım,
Xarabat əhlinin halını bir xümmar olandan sor.

Məhəbbət ləzzətindən bixəbərdir zahidi-ğafil,
Füzuli, eşq zövqün zövqü-eşqi var olandan sor.





Xəm qədilə ağlaram ol türrüyi-tərrarsız,
Gərçi derlər çəngdən çıxmaz tərənnüm tarsız.

Sineyi-çakimdən əksik etmə tiri-ğəmzəni,
Ey güli-rəna bilirsən kim, gül olmaz xarsız.

Saxlamazdım navəkin gözdə, bəlasın çəkməsəm,
Su verib ol nəxli bəslərdimmi olsa barsız?!

Yol azarsan zülməti-heyrətdə, ey dil, vaqif ol,
Zinhar, ol kuyə varma ahi-atəşbarsız.

Giryeyi-zarilə xoşhaləm ki, bəhri-eşqdə,
Əşgsiz göz bir sədəfdir lölöi-şəhvarsız.

Cana azari-xədəngin xoş gəlir, ey qaşı yay,
Bir sifariş qıl ki, bizdən ötməsin azarsız.

Zöhddən keçməz Füzuli, eyləməz tərki-riya,
Pənd çox verdim, eşitməz, arsızdır, arsız.

Fəğan kim, bağrımın ol lalərüx qan olduğun bilməz,
Ciyər pərkaləsində daği-pünhan olduğun bilməz.

Həbibim könlümü cəm eyləməz rüxsarı dövründə,
Məgər zülfü kimi halım pərişan olduğun bilməz?

Qılır təqsir edib bir lütf hər dəm könlüm almaqdan,
Vəfa rəsmin sanır düşvar, asan olduğunu bilməz.

Gözəllər dövləti-vəslin bulub, məğrur olan aşiq,
Nişati-vəsldə ənduhi-hicran olduğun bilməz.

Dili-sədparədən bidadi kəsməz ğəmzeyi-məstin,
Nə ğafil padşahdır, mülk viran olduğun bilməz.

Sanır zahid özün xali xəyalından ğələtdir bu,
O, heyran olduğundandır ki, heyran olduğun bilməz.

Füzuli xəstəyə düşmən sözilə dust cövr eylər,
Zəhi sadə, müariz qövli böhtan olduğun bilməz.





Könüldə min ğəmim vardır ki, pünhan eyləmək olmaz,
Bu həm bir ğəm ki, el tənindən əfğan eyləmək olmaz.

Nə müşkül dərd olursa bulunur aləmdə dərmanı,
Nə müşkül dərd imiş eşqin ki, dərman eyləməz olmaz.

Fəna mülkünə çox əzm etmə, ey dil, çəkmə zəhmət kim,
Bu tədbir ilə dəfi-dərdi-hicran eyləmək olmaz.

Saqın, könlüm, yıxarsan, pənddən dəm vurma, ey naseh,
Həvayi-nəfs ilə bir mülki viran eyləmək olmaz!

Dəhanın üzrə ləlin istəmiş dil, dəfi müşküldür,
Görünməz hiç cürmü, yox yerə qan eyləmək olmaz.

Dualar eylərəm, məndən yana bir dəm güzar etməz,
Nə çarə, sehrilə sərvi xuraman eyləmək olmaz.

Füzuli, aləmi-qeyd içrəsən, dəm urma eşqindən,
Kəmali-cəhl ilə dəviyi-irfan eyləmək olmaz.

Mənə badi-səba ol sərvi-gülrüxdən xəbər verməz,
Açılmaz qönçeyi-bəxtim, ümidim nəxli bər verməz.

Töküb göz yaşımı sənsiz, həlakım istərəm, amma,
Əcəl peykinə seyri-əşk girdabi güzər verməz.

Gözümdə məskən et, xari-müjəmdən etiraz etmə,
Güli-xəndanə sordum, xarə yar olmaq zərər verməz.

Əgər can almaq istərsən, tənimdən oxunu kəsmə,
Ki, pəjmürdə nihalə verməyincə su, səmər verməz.

Qiyas et şəmdən, vəhm eylə çərxin inqilabından
Kim, ol baş almağa qəsd etməyincə taci-zər verməz.

Bəla zimnində rahət olduğun izhar edər xəlqə,
Fələk, bihudə xari-xüşkdən gülbərgi-tər verməz.

Füzuli, dəhrdən kam almaq olmaz olmadan giryan,
Sədəf su almayınca əbri-nisandan gühər verməz.





Məskən, ey bülbül, sənə gah şaxi-güldür, gah qəfəs,
Necə aşiqsən ki, ahından tutuşmaz xarü xəs.

Yar kuyunda gər olsaydı, müsəlmanlar, yerim,
Kafərəm gər rövzeyi-rizvanə eylərdim həvəs.

Kuh fəryadi-sədasın verdi Fərhadın demin,
Nəqşi-Şirindir verir avaz, olub fəryadrəs.

Naqə Leyli məhmilin çəkmiş biyaban seyrinə,
Eylə Məcnunu bu halətdən xəbərdar, ey cərəs!

Bir nəfəs qalmış həyatımdan, həbibim, sübh tək,
Nola gər bir mehr göstərsən mənə axır nəfəs.

Xali etdim dil həvayi-ixtilati-xəlqdən,
Bəzmi-ğəmdə, ney kimi həmdəm mənə fəryad bəs.

Ey Füzuli, gər sənə cəmiyyətdə-dildir murad,
Bağla bir dildarə könlün, qeyrindən peyvəndi kəs.

Bilməz idim bilmək ağzın sirrin düşvar imiş
Ağzını derlərdi yox, dediklərincə var imiş.

Aciz olmuş yıxmağa ah ilə kuhi Kuhkən,
Neyləsin miskin, onun eşqi həm ol miqdar imiş.

Daşa çəkmiş xəlq üçün Fərhad Şirin surətin,
Ərz qılmış xəlqə məhbubun, əcəb biar imiş.

Kəbə ehramına zahid, dedilər, bel bağladı,
Eylədim təhqiq, onun bağlandığı zünnar imiş.

Ömrlərdir eylərəm əhvali-dünya imtahan,
Nəqdi-ömrü hasili-dünya haman bir yar imiş.

Zövqi-didarilə dildarın yox etdim varımı,
Dövləti-baqi ki, derlər, dövləti-didar imiş.

Dün Füzuli arizin görgəc, rəvan tapşırdı can,
Laf edib derdi ki, canım var, əmanətdar imiş.





Dil ki, sərmənzili ol zülfi-pərişan olmuş,
Nola cürmü ki, asılmasına fərman olmuş.

Şahsən, mülki-məlahətdə sənə qullar çox,
Biri oldur ki, varıb Misrdə sultan olmuş.

Rəhm edib aşiqini həşr günü yaxmayalar,
Ki, bu dünyada əsiri-ğəmi-hicran olmuş.

Dedilər ğəm gedirər badə, çox içdim sənsiz,
Qəmi-hicrana müfid olmadı ol qan olmuş.

Bağbani-çəməni-dəhrə xəyalı-dəhənin,
Səbəbi-tərbiyəti-qönçeyi-xəndan olmuş.

Adəm əvvəl səri-kuyun verib, almış cənnət,
Eşidib təni-mələk, sonra peşiman olmuş.

Ey Füzuli, mənim əhvalıma bir vaqif yox,
Böylə kim, aləm onun hüsnünə heyran olmuş.

Dil uzadır bəhs ilə ol arizi-xəndanə şəm,
Od çıxar ağzından, etməzmi həzər kim, yana şəm?!

Nola qeyrət atəşi canım əritsə mum tək,
Bu nə sözdür kim, demişlər arizi-cananə şəm?!

Arizi-canan ilə bəhsi-kamali-hüsn edər,
Dil ucundandır ki, saət düşər nöqsanə şəm.

Gah ayağı bağlı, gah boynu, nədəndir bilməzəm,
Bir pəri eşqindən olmuşdur məgər divanə şəm?!

Nola canım qamətim istərsə, könlüm arizim,
Rəsmdir aləmdə: bülbül gül sevər, pərvanə şəm.

Qıl şəbistanı münəvvər kim, nisarın qılmağa,
Riştədən dürlər çəkib cəm eyləmiş damanə şəm.

Ey Füzuli, şövqdən yaxdın tənin ruzi-vüsal,
Netdin, ey ğafil, gərəkməzmi şəbi-hicranə şəm?!





Olur rüxsarına gün,ləlinə gülbərgi-tər aşiq,
Sənə əksik deyil, göydən yağar, yerdən bitər aşiq.

Mənə məqsud tərki-eşq idi, vəh kim, meyi-hüsnün,
Olub gün-gündən əfzun, qıldı gün-gündən bətər aşiq.

Tamaşayi-camalından nəzər əhlini mən etmə,
Nə sud ol xub üzdən kim, ona qılmaz nəzər aşiq.

Çəməndə pay-busundan olubdur səbzələr xürrəm,
Haman bir səbzəcə olmağa aləmdə yetər aşiq.

Qılırsan min ciyər qan, hər yana baxdıqca, ey zalım,
Nə baxmaqdır bu, hər dəm qandan alsın bir ciyər aşiq?

Qırırsan əhli-eşqi, tutalıb kimsə əlin tutmaz,
Nə işdir bu, gərəkməzmi sənə ey simbər, aşiq?

Nə pərvanə doyar bir şöləyə, nəşəm bir ahə,
Füzuli, sanma kim, bənzər sənə aləmdə bir aşiq.

Ey firaqi-ləbi-canan, ciyərim xun etdin,
Çöhreyi-zərdimi xunab ilə gülgun etdin.

Ciyərim qanını göz yaşına tökdün, ey dil,
Varə-varə onu Qülzüm, bunu Ceyhun etdin.

Necə hüsn ilə səni Leyliyə nisbət qılayım,
Bilməyib qədrimi, tərki-məni-Məcnun etdin.

Söylədin kim, tutaram şad könüllərdə məqam,
Şad ikən, bu söz ilə könlümü məhzun etdin.

Əhd qıldın ki, cəfa kəsməyəsən aşiqdən,
Aşiqi və deyi-ehsan ilə məmnun etdin

Cürə-cürə mey içib, zeybi-camal artırdın,
Zərrə-zərrə gözümün nurunu əfzun etdin.

Ey Füzuli, axıdıb seyli-sirişk, ağlıyalı,
Eşq əhlinə fəğan etməyi qanun etdin.





Qıldı zülfün tək pərişan halımı xalın sənin,
Bir gün, ey bidərd, sormazsan: “nədir halın sənin?”

Getdi başından, könül, ol sərvi-qəddin sayəsi,
Ağla kim, idbarə təbdil oldu iqbalın sənin.

Zinət üçün cism divarında etməzdim yerin,
Çəkməsəydi eşq lövhi-canə timsalın sənin

Tiz çəkməzsən cəfa tiğin məni öldürməyə,
Öldürər axır məni bir gün bu ehmalın sənin.

Qərqi-xunabi-ciyər qılmış gözüm mərdümlərin,
Arzuyi-xali-mişkinu rüxi-alın sənin.

Damgahi-eşqdən tut bir kənar, ey mürği-dil,
Sınmadan səngi-məlamətdən pərü balın sənin.

Sayəvəş çoxdan, Füzuli, xaki-kuyun yaslanır,
Ol ümidilə ki, bir gün ola pamalın sənin.

Daği-hicran ilə yanmaqdan, ciyər qan olsa yey,
Mülkü-dil ğəm mənzili olunca, viran olsa yey.

Yarı əğyar ilə görmək aşiqə düşvar irir,
Böylə görməkdən, əsiri-dərdi-hicran olsa yey.

Sinəmə peykanını göndər dəfinə kim,
Sinədə suzan könül olunca, peykan olsa yey.

Sirrimi rüsvalığım faş etmədən aləmlərə,
Zar cismin əşk girdabında pünhan olsa yey.

Dağıdarsa, nola iqri-zülfünü badi-səba,
Fitnə əhli olanın cəmi pərişan olsa yey.

Dün Füzuli səhv edib keçmiş meyü məhbubdən,
Tövbə edib, bu yaman işdən peşiman olsa yey.





Ey məh, mənimlə dostları düşmən eylədin,
Düşmən həm eyləməz bu işi kim, sən eylədin.

Peykanlarınla doldu tənim, afərin sənə,
Bidad çəkməyə tənimi ahən eylədin.

Təhsin sənə kim, könlüm evin tirə qoymadın,
Hər zəxmi-navəkin ona bir rövzən eylədin.

Olsun ziyadə rifətin, ey ahi-atəşin,
Möhnətsəramızı bu gecə rövşən eylədin.

Əksilməsin təravətin, ey əşki-laləgun,
Gül-gül damıb məqamımızı gülşən eylədin.

Can çıxsa, mənzil etməyə ev tut hübabdan,
Ey göz yaşı ki, qəsdi-binayi-tən eylədin.

Mümkün deyil, Füzuli cahanda iqamətin,
Bihudə sən bu mərhələdə məskən eylədin.

Səba, lütf etdin, əhli-dərdə dərmandan xəbər verdin,
Təni-məhzuna candan, cana canandan xəbər verdin!

Xəzanı-ğəmdə gördün iztirabın bülbüli-zarın,
Bahar əyyamı tək gülbərgi-xəndandan xəbər verdin.

Dedilər, yar, üşşaqın gəlir cəm etməyə könlün,
Məgər kim, yara üşşaqi-pərişandan xəbər verdin?!

Süleyman məsnədindən divi-gümrəm rəğbətin kəsdin,
Dənizdə xatəmi-hökmi-Süleymandan xəbər verdin.

Füzuli, ruzgarın tirə gördüm şami-hicrandan,
Nəsimi-sübh tək xurşidi-rəxşandan xəbər verdin.





Gəlir ol sərvi-səhih, ey gülü lalə açılın!
Vey məhü mehr çıxın, qüdrətə nəzzarə qılın!

Əzmi-bağ eyləmiş ol sərvi-rəvan, ey güllər,
Zər nisar edə görün, cümlə yığılın, dərilin!

Götürün oxların, ey didələrim, torpaqdan,
Bu yarar nəsnələrin qədrini yaxşıca bilin!

Eyləmin, ey dilü can, xəncəri-müjganına meyl,
Bilirəm nolisər axır, gəlin ondan kəsilin!

Göz yaşı tiğiniz üçün tökülür, ey xublar,
Sizi ta etməyə rüsva, görünən dəmdə silin!

Düşdü od canıma, ey təndə olan peykanlar,
Qızmadan mərəkə, bir yanə, ərinmin, çəkilin!

Ey Füzuli, qədimiz qıldı fələk xəm, yəni,
Vaxtdır çıxmağa dünya qapısından, əyilin!

Eşqdən canımda bir pünhan mərəz var, ey həkim!
Xəlqə pünhan dərdim izhar etmə, zinhar, ey həkim!

Var bir dərdim ki, çox dərmandan artıqdır mənə,
Qoy məni dərdimlə, dərman eyləmə, var, ey həkim!

Gər basıb əl nəbzimə, təşxis qılsan dərdimi,
Al əmanət, qılma hər bidərdə izhar, ey həkim!

Gəl mənim tədbiri-bihudəmdə sən bir səy qıl
Kim, olam bu dərdə artıqraq giriftar, ey həkim!

Gör təni-üryan ilə əhvalımı hicran günü,
Var imiş ruzi-qiyamət, qılma inkar, ey həkim!

Çəkməyincə çareyi-dərdimdə zəhmət, bilmədin,
Kim, olur dərmani-dərdi-eşq düşvar, ey həkim!

Rənc çəkmə, səhhət ümmidin Füzulidən götür,
Kim, qəbuli-səhhət etməz böylə bimar, ey həkim!





Pənbeyi-daği cünun içrə nihandır bədənim,
Diri olduqca libasım budur, ölsəm kəfənim.

Canı canan diləmniş, verməmək olmaz, ey dil,
Nə niza eyləyəlim, ol nə sənindir, nə mənim.

Daş dələr ahım oxu şəhdi-ləbin şövqündən,
Nola zənbur evinə bənzəsə beytül-həzənim.

Tövqi-zənciri-cünun daireyi-dövlətdir,
Nə rəva kim, məni ondan çıxara zəfi-tənim.

Eşq sərgəştəsiyəm, seyli-sirişik içrə yerim,
Bir hübabəm ki, havadan doludur pinəhənim.

Bülbüli-qəmzədəyəm, bağü baharım sənsən,
Dəhənü qəddü rüxün qönçəvü sərvü səmənim.

Edəmən tərk, Füzuli, səri-kuyun yarın,
Vətənimdir, vətənimdir, vətənimdir, vətənim.

Canlar verib, sənin kimi canana yetmişəm,
Rəhm eylə kim, yetincə sənə canə yetmişəm.

Şükraneyi-vüsalına verdiyim bu kim,
Çox dərd çəkmişəm ki, bu dərmanə yetmişəm.

Halım deyib, müradıma yetsəm, əcəb deyil,
Bir bəndəyəm ki, dərgəhi-sultanə yetmişəm.

Müri-mühəqqərəm ki, sərasimə çox gəzib.
Nagah bargahi-Süleymanə yetmişəm.

Bir bülbüləm ki, gülşən olubdur nəşimənim,
Ya tutiyəm ki, bir şəkəristanə yetmişəm.

Dövri-fələk müyəssər edibdir muradımı,
Guya ki, talibi-gühərəm, kanə yetmişəm.

Miskin Füzuliyəm ki, sənə tutmuşam üzüm,
Ya bir kəminə qətrə ki, ümmanə yetmişəm.





Yar hali-dilimi zar bilibdir, bilirəm,
Dili-zarımda nə kim var, bilibdir, bilirəm.

Yarı əğyar bilibdir ki, mənə yar olmaz,
Mən dəxi onu ki, əğyar bilibdir, bilirəm.

Zülfünü əhli-vəfa seydinə dam eyləyəli,
Məni ol damə giriftar bilibdir, bilirəm.

Mən nə hacət ki, qılam şərh ona dərdi-dilim,
Qamu dərdi-dilimi yar bilibdir, bilirəm.

Yar həmsöhbətim olmazsa, Füzuli, nə əcəb,
Özünə söhbətimi ar bilibdir, bilirəm.

Ney kimi, hər dəm ki, bəzmi-vəslini yad eylərəm,
Ta nəfəs vardır quru cismimdə, fəryad eylərəm.

Ruzi-hicrandır, sevin, ey mürği-ruhum kim, bu gün
Bu qəfəsdən mən səni əlbəttə, azad eylərəm.

Vəhın edib ta salmaya sən mahə mehrin hiç kim,
Kimə yetsəm, zülmü cöhründən ona dad eylərəm.

Qan yaşım qılmaz vəfa giryan gözüm israfına,
Bunca kim, hər dəm ciyər qanından imdad eylərəm.

İncimən hər necə kim, əğyar bidad eyləsə,
Yar cövricün könül bidadə mötad eylərəm.

Bilmişəm bulman vüsalın, leyk bir ümmid ilə,
Gah-gah öz xatiri-naşadımı şad eylərəm.

Lövhi-aləmdən yudum əşk ilə Məcnun adını,
Ey Füzuli, mən dəxi aləmdə bir ad eylərəm.





Bağa girdim, səri-kuyun anıb əfğan etdim,
Gül görüb, yadın ilə çaki-giriban etdim.

Baxıban nərgizə, əyyar gözün qıldım yad,
Nərgizi naləvü əfğanıma heyran etdim.

Qönçəvü lalə demə, dağ qarasın qoparıb,
Alü alayə sarıb səbzədə pünhan etdim.

Güli-tər üzrə düşən şəbnəmə düşdü nəzərim,
Gözümü şövqi-camalınla dürəfşan etdim.

Bərgi-gül sanma ki, xunabə tökən dəmdə gözüm,
Neçə yarpağə ciyər qanı silib, qan etdim.

Göricək sünbülü, andım şikəni-kakilini,
Sünbülü giryəvü ahımla pərişan etdim.

Ey Füzuli, rəvişi-əql məlul etdi məni,
Səhv qandım ki, cünun dərdinə dərman etdim.

Tutuşdu ğəm oduna şad gördüyün könlüm,
Müqəyyəd oldu ol azad gördüyün könlüm.

Diyari-hicrdə seyli-sitəmdən oldu xarab,
Fəzayi-eşqdə abad gördüyün könlüm.

Nə gördü badədə bilmən ki, oldu badəpərəst,
Müridməşrəbü zöhhad gördüyün könlüm.

Fəraqın odunu gördükcə mum tək əridi,
Sabatü səbrdə fulad gördüyün könlüm.

Gətirdi icz, görüb eşq müşgül olduğunu,
Qamu hünərlərə ustad gördüyün könlüm.

Deyildi böylə, dəmində bir əhli-işrət idi,
Bu qanlar içməyə mötad gördüyün könlüm.

Füzuli, eylədi ahəngi-eyşxaneyi-Rum,
Əsiri-möhnəti-Bağdad gördüyün könlüm.





Gərəm qıl, kəsmə, saqi, iltifatın binəvalardan,
Əlindən gəldiyi xeyri diriğ etmə gədalardan.

Əsiri-qürbətiz, bir səndən özgə aşinamız yox,
Ayağın kəsmə, başınçün, bizim möhnətsaralardan.

Demə, zahid ki, tərk et simbər bütlər tamaşasın.
Məni kim qurtarar tanrı sataşdırmış bəlalardan?!

Girib məscidlərə gər müqtədalar peyrovu olman,
Budur vəchi ki, hərgiz görmədim üz müqtədalardan.

Təbiba, xaki-kuyi-yardandır əşk təskini,
Bizə artırma zəhmət, göz yaşarar tutiyalardan.

Fələkdir mehri zayil, yar qafil, ömr müstəcil,
Nədir tədbir, bilmən, canə yetdim bivəfalardan.

Vucudum ney kimi surax-surax olsa, ah etmən,
Məhəbbətdən dəm urdum, incimək olmaz cəfalardan.

Füzuli, nazəninlər görsən, izhari-niyaz eylə,
Tərəhhüm umsa eyb olmaz gədalar padşahlardan.

Ucaldın qəbrim, ey bidərdlər, səngi-məlamətdən,
Ki, məlum ola dərd əhlinə qəbrim ol əlamətdən.

Məzarım üzrə qoymum mil, əgər kuyunda can versən,
Qoyun bir sayə düşsün qəbrimə ol sərv qamətdən.

Görən saətdə ol qamət qiyamın, qıymadım canə.
Qiyamət həm gələ, qurtulmayam mən bu nədamətdən.

Qiyamətdə hesabı olmayanlardandır ol qafil,
Ki, fərq eylər fəraqın şamını sübhi-qiyamətdən.

Təriqi-səbrü tədbiri-səlamət ləzzətin bilmən,
Mənə eşqü məlamət yey gəlir səbrü səlamətdən.

Təbiət inhirafın gör həvayi-eşqdən təndə,
Əlac et düşmədən, saqi, mizacın istiqamətdən.

Füzuli, keç səlamət küçəsindən, səbr kuyundan,
Fəqağət olmayan yerdə səfər yeydir iqamətdən.





Kuhkən künd eyləmiş min tişəni bir dağilən,
Mən qoparıb salmışam min dağı bir dırnağilən.

Ğəm yolunda mən qalıb, getdisə Məcnun, yox əcəb,
Sayruya düşvardır həmrəhlik etmək sağ ilən.

Gərdi-rahın verməsə göz yaşına təskin, nola,
Tutmaq olmaz böylə seylabın yolun torpağilən.

Ğəm oğurlar eşq bazarında nəqdi-ömrümü,
Qılmaq olmaz sud sövdada yaman ortağilən.

Rövzeyi-kuyunda bulmuşdur Füzuli bir məqam,
Kim, ona cənnət quşu yetməz min il uçmağilən.

Ta sirişki-dideyi-Fərhadı gördü laləgün,
Çeşmələr suyunu gözdən saldı kuhi-Bisütun.

Ta ələm qaldırdı ahi-atəşinim, şərm edib
Qıldı xurşidin fələk zərrin livasın nilgun.

Daş bağırlı olmasaydı Bisütun, Fərhad üçün,
Su yerinə gözlərindən axıdardı seyli xün.

Ey görən min dağ ilə səbrü səbatım, eyləmə,
Nisbətim Fərhadə kim, bir dağ ilə olmuş zəbun.

Quş yuvası sanma kim, sərgəştə Məcnun başına
Xarü xəscəm eyləmiş girdabi-dəryayi-cünun.

Ta göründü səfheyi-hüsnündə xəttin, rəşkdən
Daşa çaldı afitabi-sadəlövhün çərxi-dun.

Ey Füzuli, xani-kuyi-yarə yetdim, qanı Xızr
Kim, verəm kamın, olam abi-həyatə rəhnümun.





Gör sirişkim şəbi-hicran, deme kim, qandır bu,
Zərrə-zərrə şərəri-atəşi-hicrandır bu.

Sanma kim, qanlı tikan sinə dəlib, baş çəkmiş,
Şöleyi-atəşi-ahi-dili-suzandır bu.

Kəsmə ümmid, könül, başına çizginməkdən,
Ola nagah, düşə fürsət ələ, dövrandır bu.

Dəmbədəm canımı, ey dərdü bəla, incitmin,
Lütf edin bir-iki dəm kim, sizə mehmandır bu.

Nə yaxarsan oxun, ey atəşi-dil, vəsl günü,
Bizə hicran gecəsi şəmi-şəbistandır bu.

Könül istər ala bir bu səri-zülfündən, leyk
Vermədən can, dilər almaq, sanır asandır bu.

Dün demişsən ki: "Füzuli mənə qurban olsun!"
Sənə qurban olayım, yenə nə ehsandır bu?!

Aşiq oldum yenə bir tazə güli-rənayə,
Ki, salır al ilə hərdəm məni yüz qovğayə.

Lət urub qalibi-fərsudəmi gəh həbs qılır,
Gah sərasiməvü üryan buraxır səhrayə.

Gözümün qanı ilə kiməxtini al etdim ki,
Aləti-sənət ola ol büti-biparvayə.

Bu nə işdir ki, bizi iynə kimi incəldib,
Salır iplik kimi hərdəm bir uzun sövdayə.

Ayağın bağlanmış avarələrin sənət ilə,
Yox nəhayət səri-kuyunda gəzən şeydayə.

Ləxt-ləxt olmuş ikən ğəmzə dərəfşini çəkib,
Çarəsiz olmadı bir gün məni-ğəmfərsayə.

Yaxa çak edəni başmaq kimi salır ayağa,
Ey Füzuli, bax onun etdiyi istiğnayə.





Olsaydı məndəki ğəm Fərhadi-mübtəladə,
Bir ah ilə verərdi min Bisütuni badə.

Versəydi ahi-Məcnun fəryadımın sədasın,
Quşmu qərar edərdi başındakı yuvadə.

Fərhadə zövqi-surət, Məcnunə seyri-səhra,
Bir rahət içrə hər kəs, ancaq mənəm bəladə.

Əşki-rəvanıma el cəm oldu, var ümidim
Kim, ola varə-varə cəmiyyətim ziyadə.

Gah ğəmzən içmək istər, qanımı, gah çeşmin,
Qorxum budur ki, nagah qanlar ola aradə.

Sərvərlik istər isən, üftadəlik şüar et
Kim, düşmədən əyağə, çıxmadı başa badə.

Gər görməmək dilərsən rəsmi-cəfa, Füzuli,
Olma vəfayə talib dünyayi-bivəfadə.

İstədim mərhəm oxundan ciyərim yarəsinə,
Atdı min ox ki, dəyər hər biri bir parəsinə.

Bir-birilə çəkişir gərdi-rəhincin müjələr,
Gör nə qanlar düşəcəkdir onların arəsinə.

Çəkməz oldu könül oxlar yükün, ol sərv məgər,
Çəkərək ata oxun, rəhm edə biçarəsinə.

Qanı göz yaşı kimi əhli-nəzər kim, yügürüb
Bir içim su verə dəşti-ğəmin avərəsinə.

Hər tərəf əkslərimdir görünən, ya yığılıb,
Gəldi su xəlqi sirişkim suyu nəzzarəsinə.

Bilməzəm kim, nəzər əhli nəsini əksildər,
Qəzəb eylər nəzər etsəm məhi-rüxsarəsinə.

Ey Füzuli, ciyərim qanını qoymaz tökülə,
Can fəda ol sənəmin ğəmzeyi-xunxarəsinə.





Uyub ahuyə düşdü mişk Məcnun tək biyabanə,
Nola çəksən onu zənciri-zülfi-ənbərəfşanə.

Çəkər kafir gözün hərdəm ciyərdən ğəmzə peykanın,
Nə gücdür bu, verdi ala bilməz bir müsəlmanə?

Bəla navəkləri sancılmasınmı köksümə hər dəm,
Dolaşır şanə tək hər ləhzə ol zülfi-pərişanə.

Oxun gəldikcə sinəmdən sədalardır çıxan, binən,
Dil eylər nalə, ya peykan dəyər sinəmdə peykanə.

Sədayi-navəkin çıxdıqca, can xürrəm olur, guya
Bu zindani-bəladan çıxmağa rüxsət verər canə.

Boyanıb qana, olmuş parə-parə güllər əzası,
Məgər xəncər çəkib, sən sərv tək çıxdın gülüstanə.

Məlamət oduna yandır, Füzuli, çıx bu aləmdən,
Tərəhhüm qıl, rəva görmə ki, aləm oduna yanə.

Yenə ol mah mənim aldı qərarım bu gecə,
Çıxacaqdır fələyə naleyi-zarım bu gecə.

Şəmvəş məhrəmi-bəzm eylədi ol mah məni,
Yanacaqdır yenə eşq oduna varım bu gecə.

Həm vüsalı urur od canıma, həm hicranı,
Bir əcəb şəm ilə düşdü sərü karım bu gecə.

Nə tütündür ki, çıxar çərxə, dili-zarə məgər,
Hicr dağını urur laləüzarım bu gecə?!

Sübhə saldı bu gecə şəm kimi qətlimi hicr,
Ola kim, sübh gəlincə gələ yarım bu gecə.

Parə-parə ciyərim itlərinə nəzr olsun,
Ol səri-kuyə əgər düşsə güzarım bu gecə.

Var idi sübh vüsalına, Füzuli, ümmid,
Çıxmasa həsrət ilə cani-fikarım bu gecə.





Batalı qanə oxun dideyi-giryan içrə,
Bir əlifdir sanasan kim, yazılır qan içrə.

Yeridir sineyi-suzanıma külxən desələr,
Bəs ki, yanmışdır oxun sineyi-suzan içrə.

Canı tən içrə nə saxlardım əgər bilsə idim,
Ki, deyil gizli ğəmi-ləli-ləbin can içrə.

Ala gör oxlarını didələrimdən, ey dil,
Heyfdir, olmaya nagah itə müjgan içrə.

Çak könlüm arasında yaraşır peykanın,
İqdi-şəbnəm xoş olur qönçeyi-xəndan içrə.

Qəddinə sərv demiş, qönçələrin tənindən,
Duramaz badi-səba hiç gülüstan içrə.

Ey Füzuli, kimə suzi-dilimi şərh qılım,
Yox mənim kimi yanan atəşi-hicran içrə.

Arizin görsə fələk, mehr buraxmaz ayə,
Zərrə-zərrə qılıb onu buraxar səhrayə.

Surətin əksin alıb, bağa girər hərdəm su,
Rəşkdən qan içirər bərgi-güli-rənayə.

Yeridir əksinə ayinə dəmir bənd ursa,
Nə üçün qarşı durar sən kimi bihəmtayə.

Bulduğu yerdə həsəddən gün urar sayənə tiğ,
Ki, rəfiq olmayasan mahi-mələksimayə.

Oxa peykan deyilir ğəmzən üçün peyvəstə,
Toxunur tənə oxu qaşın ucundan yayə.

Ləbi-ləlin sifəti şərhi-müsəffadır, leyk
Acı etmiş onu səfrayi-həsəd səhbayə.

Yar meylin sənə salmazsa, Füzuli, nə əcəb,
Necə meyl etmək olur sən kimi bir rüsvayə?!





Ey təğafül birlə hər saət qılan şeyda məni,
Vaqif ol kim, öldürər bir gün bu istiğna məni.

Zəfim eldən yaşırıb, əhvalımı saxlar, vəli,
Naleyi-biixtiyarımdır qılan rüsva məni.

Gər məni xunabeyi-əşkim nihan eylər, nə sud,
Qanda olsam, möhnəti-eşqin qılar peyda məni.

Valehi-zövqi-ləbi-meygunü çeşmi-məstinəm,
Saqiya, sanma xarab etmiş meyi-səhba məni.

Xali etmişdir məni məndən məhəbbət, dustlar,
Eyb qılmın, görsəniz aləmdə bipərva məni.

Guşeyi-mehrabə tutmuşdum rəhi-zöhdü səlah,
Qoymadı öz halıma ol nərgisi-şəhla məni.

Ey Füzuli, bir sənəm zülfünə könlüm bağladım,
Çəkdi zənciri-cünunə aqibət sevda məni.

Məni candan usandırdı, cəfadan yar usanmazmı?
Fələklər yandı ahımdan, muradım şəmi yanmazmı?

Qamu bimarına canan dəvayi-dərd edər ehsan,
Nəçün qılmaz mənə dərman, məni bimar sanmazmı?

Ğəmim pünhan tutardım mən, dedilər yara qıl rövşən,
Desəm ol bivəfa bilmən, inanarmı, inanmazmı?

Şəbi-hicran yanar canım, tökən qan çeşmi-giryanım,
Oyadar xəlqi əfğanım, qara bəxtim oyanmazmı?

Güli-rüxsarına qarşu gözümdən qanlı axar su,
Həbibim, fəsli-güldür bu, axar sular bulanmazmı?

Deyildim mən sənə mail, sən etdin ağlımı zail,
Mənə tən eyləyən qafil, səni görgəc utanmazmı?

Füzuli rindi-şeydadır, həmişə xəlqə rüsvadır,
Sorun kim, bu nə sevdadır, bu sevdadən usanmazmı?





Getdi əldən sənəmin sünbüli-məşkəfşanı,
Yenə dövr etdi pərişan məni-sərgərdanı.

Öylə mötad olubam atəşi-hicranına kim,
Görməsəm yandırar, əlbəttə məni hicranı.

Göydıə ahım yeli söndürdü çırağın günəşi,
Yerdə əşkim ayağa saldı düri-qəltanı.

Göz bəyazına çəkər lələrin surətini,
Dəmbədəm xameyi-müjgan ilə bağrım qanı.

Çıxdı can, kimsəyə izhar edə bilmən dərdim,
Nödəyin, ah, dərdin nə olur dərmanı?

Ey sitəm daşını bidərdlərə zaye edən,
Yapa gör bir neçə daş ilə dili-viranı.

Versə can, yetməsə canana, Füzuli, nə əcəb,
Hər kişi kim, sevər öz canı üçün cananı.

Fariq etdi mehrin özgə məhliqalardan məni.
Hirz imiş eşqin sənin, saxlar bəlalardan məni.

Könlüm aldın, göstərib, min lütfü minnət canıma,
Eylədin müstəğni özgə dilrübalardan məni.

Vamiqü Fərhad tək rüsvayə qılmın nisbətim,
Bir fəqirəm, sanmınız ol xüdnümalardan məni.

İşvəvü naz ilə rəf etdin ğəmüənduhumu,
Sehr ilə biganə etdin aşinalardan məni.

Qıl təkəllüm, zülfün ənduhunu könlümdən çıxar,
Bir füsun ilə xilas et əjdahalardan məni.

Qayəti-zöhdü vərə, zahid vüsali-hur isə,
Vəchi yox mən eyləmək huriliqalardan məni.

Hər cəfa qılsan, Füzuli tək, şikayət qılmazam,
Eşq ətfarında sanmın bivəfalardan məni.





Yar qılmazsa mənə cövrü cəfadan qeyri,
Mən ona eyləməzəm mehrü vəfadan qeyri.

Ey deyən qeyrə könül vermə, qanı məndə könül,
Səri-zülfündə olan bəxti qaradan qeyri.

Qıldı Məcnun kimi çoxlar həvəsi-eşq, vəli.
Doymadı dərdə, məni-bisərü padan qeyri.

Mişki-Çin zülfün ilə eyləsə dəva, nə əcəb,
Nə olar üzü qara qulda xətadan qeyri?

Ləbinə çeşmeyi-heyvan deməzəm kim, ləbinin
Var bir cana yarar feyzi, bəqadan qeyri.

Hiç kim bilmədi təhqiq ilə ağzın sirrin,
Sirri-qeybi nə bilir kimsə xüdadan qeyri.

Ey Füzuli, bizə təqdir ğəm etmişdi ruzi,
Qılalım səbr, nədir çarə rizadan qeyri.

Hasilim yox səri- kuyunda bəladan qeyri,
Qərəzim yox rəhi-eşqində fənadan qeyri.

Neyi-bəzmi-ğəməm, ey ah, nə bulsan yelə ver,
Oda yanmış quru cismimdə havadan qeyri.

Pərdə çək çöhrəmə hicran günü, ey qanlı sirişk
Ki, gözüm görməyə ol mahliqadan qeyri.

Yetdi bikəsliyim ol qayətə kim, çevrəmdə,
Kimsə yox cizginə, girdabi-bəladan qeyri.

Nə yanar kimsə mənə atəşi-dildən özgə
Nə açar kimsə qapım badi-səbadan qeyri.

Pozma, ey mövc, gözüm yaşı hübabın ki, bu seyl,
Qoymadı hic imarət bu binadan qeyri.

Bəzmi-eşq içrə, Füzuli, necə ah eyləməyim,
Nə təməttö bulunur neydə sədadan qeyri?





Gördüm ol xurşidi-hüsnün, ixtiyarım qalmadı,
Sayə tək bir yerdə durmağa qərarım qalmadı.

Bir gün olmaz tələtin görmək müyəssər, ah kim,
Zərrəcə ol gül yanında etibarım qalmadı.

Pak qıldı xatirimdən dəhri-dun ayinəsin,
Öylə məhv oldum ki, bir zərrə qübarım qalmadı.

Ğəm günü həmdəmlərim qərq oldular göz yaşına.
Silməyə göz yaşımı bir qəmgüsarım qalmadı.

Ruzigarım xoş keçirdi, ah kim, dövran dönüb,
Oldu əhvalım xarab, ol ruzigarım qalmadı.

Rahi-eşq içrə mənə ancaq fəna məqsud idi,
Şükr kim, məqsudə yetdim, intizarım qalmadı.

Ey Füzuli, el qamu əğyarım oldu yar üçün,
Suzi-dildən qeyri bir dilsuz yarım qalmadı.

Hər görən eyb etdi abi-dideyi-giryanımı,
Eylədim təhqiq, görmüş kimsə yox cananımı.

Ləhzə-ləhzə xublar gördüm ki, dil qəsdindədir,
Parə-parə eylədim mən həm dili-suzanımı.

Çox yetirmə göylərə əfğanım, ey kafir, saqın,
İncinir nagəh Məsiha eşidib əfğanımı.

Qılma hər saət məni rüsvayi-xəlq, ey bərqi-ah,
Eylərnə rövşən şəbi-ğəm külbeyi-əhzanımı.

Çıxma, ey divanə, bazari-məlamətdən deyu,
Müttəsil çaki-giribanım tutar damanımı.

Qansı bütdür bilməzəm imanımı qarət qılan,
Səndə iman yox ki, sən aldın deyim imanımı.

Ey Füzuli, canə yetmişdim könüldən, şükr kim,
Bağladım bir dilbərə, qurtardım ondan canımı.





Canımın cismilə zövqi-ittisaalı qalmadı,
Ah kim, sənsiz dirilmək ehtimalı qalmadı.

Şükrlillah, bəxt yar oldu, yetirdim mənə,
Başımı bir qılca boynumda vəbalı qalmadı.

İstədim ol mahə ərzi-hal edim, heyrət mənə
Öylə qalib oldu kim, bir söz macalı qalmadı.

Bilməzəm xalın xəyalı qanda təsvir eyləyim,
Dağdən bir yer tənü canımda xali qalmadı.

Hər kimi gördünsə ğəm üftadəsi tutdun əlin,
Vəh ki, məndən qeyri bir ğəm paymalı qalmadı.

Ey xoş ol sərməst kim, könlündə şövqü zövqdən
Axirət əndişəsi, dünya xəyalı qalmadı.

Afərin, ey cam, kim, sildin könül ayinəsin,
Xatiri-pakımda dünyanın məlalı qalmadı.

Dürdnisbət paymali-qeyddir hər kim ki, var,
Bəzmi dəhr içrə hərifi-laübali-qalmadı.

Gör, Füzuli, eşq tüğyanın, ədəm mülkün gözət,
Əzmi-künc et kim, havanın etidalı qalmadı.

Giryədir hərdəm açan qəmdəm tutulmuş könlümü,
Əşkdir xali qılan qan ilə dolmuş könlümü.

Ey pərivəşlər, cəfa rəsmin unutmıb, lütf edin,
Eyləmin bədxu cəfa mötadı olmuş könlümü.

Vədeyi-vəsl ilə, gülrüxlər, etmin müztərib
Möhnəti-hicran ilə aram bulmuş könlümü.

Xənvəri-bidad ilə hərdəm görər zəxm üzrə zəxm,
Hiç bir dəm görmədim önmüş önülmüş könlümü.

Paybəndi-lütf olub, bir yerdə sakin bulmadım
Dəşti-heyrətdə tərəddüddən yorulmuş könlümü.

Simbərlərdən gələn daşları yığmış çevrəmə,
Eşq məmur eyləmək istər pozulmuş könlümü.

Hər zaman bir atəşinrüxsar sevdasın çəkər,
Ey Füzuli, gör bu odlara urulmuş könlümü!





Sanma kim, bülbül açar uçmağa balü pərini,
Gül yaxıb onu, soruşmuş göyə xakistəirin.

Göz ilə üzüm arasında müjəm sədd oldu.
Ki, gözümdən su çıxıb yumaya xaki-dərini.

Mövci-əşkim görüb, əbruyə salır çin, nə əcəb
Ki, su verməк çıxarır ol qılıncın cövhərini.

Düşdü vəsfi-düri-dəndanı ağızdan-ağıza
Eşidib saldı biyabanə dəniz gövhərini.

Göz üzün görməsə qanlar tökülər ah, nola,
Fitnəyi basa, müşərrəf qıla göz mənzərini.

Rəşeyi-cam bizi tutdu, nola gər saqi
Gələ qurtara bizi, ala əyaği-tərini.

Oldu nəzzarəmizə cəm, Füzuli, ətfal,
Gəl tutalım bu sipah ilə cünun girvərini.

Məhrəm qoyub önərmə sinəmdə qanlı dağı,
Söndürmə öz əlinlə yandırdığın çırağı.

Uymuş cününə könlüm, əbrunə der məhi-nov,
Nə etibar ona kim, seçməz qaradan ağı.

Qəddin ğəmində sərvin sormağa zəfi-halın,
Gülzardan kəsilməz irmaqların ayağı

Dür tək dişin sözünü hər dəm eşitmək istər
Bəhrin müdam onunçun sahildədir qulağı.

Zülfi siyəh sənəmlər olmuş sənin əsirin,
Eşqində hər birinin öz zülfü boynu bağı

Gər mişk dersə aşiq ol buyi-zülfə, saqi,
Tünd olma, bir qədəh ver tər eyləsin dimağı

Dövran həvadisindən yox bakımız, Füzuli,
Darül-amanımızdır meyxanələr bucağı.





Qamətin xidmətinə sərvin əyilməz başı.
Nə bilir əhli-təriqin rəvişin ol naşı.

Öyünür didə ki, heyranəm əzəldən üzünə,
Oldu məlum bu lafında ki, çoxdur yaşı.

Əşk ləli rəhi-eşqində tutubdur ətəyim,
Qorxuluqdur, necə salıb gedəlim yoldaşı?!

Yetdi ol qayətə zəfim ki, çəkər təsvirim
Hər zaman daireyi-heyrətə min nəqqaşı.

Möhtəsib, tanrı üçün gəl mənə çox vermə əzab,
Meyli-məscidmi edər meykədələr ovbaşı?

Kəsdi mən şiftədən əhli-səlamət yolunu
Bəs ki, ətrafıma cəm oldu məlamət daşı.

Ey Füzuli, nə bəla oxları kim, gəlsə mənə,
Səbəb ol qaşları yayın gözüdür, ya qaşı

Xoş gəldi dün ol ayə sirişkim nəzarəsi.
Böylə olur ki, aşiqin işlər sitarəsi.

Ey hər mərəz əlacına hökm eyləyən həkim,
Bimari-dərdi-eşq olanın yoxmu çarəsi?

Çıxmaq dilər səfineyi-tən cünbüşilə can
Dəryayi eşqdən ki, ədəmdir kənarəsi.

Derlər ki, var Vamiqü Məcnun, əcəb deyil,
Dağılmış ola atəşi-eşqin şərarəsi.

Noldu gətirmədin ələ sədparə könlümü,
Vəhm eylədinmi əl kəsə bu şişə parəsi?

Səndən həmişə tiri-bəladır gələn mənə,
Böylə olurmu aşiqü məşuqun arəsi?

Ey söyləyən Füzuliyə eşq içrə səbr qıl,
Söylə bu mərhəm ilə kimin bitdi yarəsi?!





Mübəddəl qılmağa sübhi-vüsalə şami-hicranı,
Mənim ahəm əlidir sübhü şamü çərx damanı.

Gözüm yaşilə həmrəng olduğuçün kəşfi-razında,
Basırkən bağrıma, düşdü gözümdən bağrımın qanı.

Dili-pürxunmudur sinəmdə, ya ol qaşları yayın
Çəkilmiş navəki, cismimdə qalmış qanlı peykanı.

Üzün görmək təmənnasındayam, amma budur müşkül
Ki, dəm düşdükcə açdırmaz mənə göz əşk tüğyanı.

Dedim, ey Xızr, bənzər yar ləli abi-heyvanə,
Bu təzim ilə torpaqdan götürdün abi-heyvanı.

Nisari-xaki-payın layiqi bir gövhər istərdim,
Qamu gözdən keçirdim qətlə-qətrə əşki-ğəltanı.

Füzulinin yetər eşqinə inkar eylə, ey gərdun!
Güvahi-hal yetməzmi sənə fəryadü əfğanı?!

Ayinə sevər candan rüxsareyi-cananı,
Bir qayətə yetmiş kim, ayrılsa çıxar canı.

Fəryad ki, əks oldu ol kim görəyim derdim,
Ayineyi-rüxsarın lövhi-dili-heyranı.

Ol çahi-zənəxdanda derdim görərəm könlüm,
Könlümdə görər oldum ol cahi-zənəxdanı.

Azadələrin könlün cəm etmiş ikən qəflət,
Tərpətmə səba, billah, ol zülfi-pərişanı.

Yara ğəmi-pünhanım izhar edə bilməzdim,
Şadəm ki, rəvan oldu gözdən ciyərim qanı.

Dərdü ğəmi-pünhanım fəhm etdi el ahımdan,
Yüz ah ki, faş oldu dərdü ğəmi-pünhani.

Hicran gecəsin görgəc duzəx ələmin bildim
Kim, ruzi-qiyamətdir yarın şəbi-hicranı.

Candan keçəli buldum rahət ğəmi-aləmdən,
Xoş hikmət ilə buldum ol dərdə bu dərmanı.

Yarəb, nə səbəbdəndir kim, hiç əsər qılmaz,
Dildarə Füzulinin fəryad ilə əfğanı.





Məhşər günü görüm, derəm ol sərvqaməti,
Gər onda həm görünməsə, gəl gör qiyaməti.

Tərki-mey etdin, ey könül, əyyami-gül gəlir,
Əlbəttə, bu işin çəkilir bir nədaməti.

Məcnun ki, padşahi-sipahi-vühuş idi,
Mən tək müsəxxər etmədi mülki-məlaməti.

Səhranəvərd ikən, mənə təsviri-Kuhkən
Öyrətdi şəhri-eşqdə rəsmi-iqaməti.

Səngi-məlamət ilə çəkin çevrəmə hasar
Əşkim fənayə verməsin əhli-səlaməti.

Zahid çox etmə tən mey üftadəsinə kim,
Çoxları yıxdı piri-müğanın kəraməti.

Ğəm zülmətində bulmağa dərdü bəla məni,
Bəsdir, Füzuli, atəşi-ahım əlaməti.

Dün könül dilbərə şərhi-ğəmi-pünhan etdi.
Cəm ikən, könlünü bir parə pərişan etdi.

Yer tutam, derdi könül nalə ilə kuyunda,
Yetmədi bir yerə hər necə ki, əfğan etdi.

Vədə verdi ciyərim qanın içə müjganın
İntizar ilə bu həsrət ciyərim qan etdi.

Ğəmzə tiğilə gözün könlümü yüz parə qılıb
Hər birin bir hədəfi-navəki-müjgan etdi.

Qıldı mehrabe qaşın fikri fəqihi mail
Gör necə kafiri ol vəz müsəlman etdi.

Görəyin çox yaşasın didə ki, mərdümlük edib,
Ğəm hücumunda məni əşk ilə pünhan etdi.

Ey əcəl, can təməin qılma Füzulidən kim,
Bir kamal-əbruya çoxdan onu qurban etdi.





Fələk ayırdı məni cövr ilə cananımdan,*
Həzər etməzmi əcəb naləvü əfğanımdan?

Oda yandırmasa gər şölə ilə nöh fələki,
Nə bitər ataşi-ahi-dili-suzanımdan?

Ğəmi-pünhan məni öldürdü, bu həm bir ğəm kim,
Gülrüxüm olmadı agəh ğəmi-pünhanımdan.

Ah idi həmnəfəsim, ah ki, ol həm axır
Çıxdı ikrah qılıb, külbüyi-ehzanımdan.

Mən, nə hacət ki, qılam daği-nihanım şərhin,
Aqibət zahir olur çaki-giribanımdan.

Haq bilir, yar deyil canü dilimdən qaib,
Nola gər qaib isə dideyi-giryanımdan.

Can əgər çıxsa tənimdən əsəri-mehri ilə,
Əsəri-mehrini sanmın ki, çıxar canımdan.

Lütf edib sən məgər, ey bad, bu gündən böylə
Verəsən bir xəbər ol sərvi-xuramanımdan.

Ey Füzuli, ğəmi-hicr ilə pərişandır hal,
Kimsə agah deyil hali-pərişanımdan.

* "Leyli və Məcnun"dan.

Ey xoş ol günlər ki, mən həmraz idim canan ilə,
Neməti-vəslin görüb, nazın çəkərdim can ilə.

Görməmişdi gülşəni-eyşim xəzani-təfriqə,
Olmamışdı tirə əyyamım şəbi-hicran ilə.

Məhvəşimdən, dustlar, dövran cüda istər məni,
Düşmənimdir, hic bilməm etmişəm dövran ilə.

Yetsə gər aşiqlərin əflakə əfğanı, nə sud,
Yetmək olmaz mahvəşlər vəslinə əfğan ilə.

Yaşurub saxlardım eldən daği-hicranın əgər
Etmək olsaydı müdara dideyi-giryan ilə.

Zövqdən dibaçə bağlandı kitabi-ömrümə,
Qoymadı dövran necə övqatım ol ünvan ilə.

Ey Füzuli, əxtəri-bəxtim müsaid olmadı
Kim, olam bir dəm müqarin ol məhi-taban ilə.





Fəzayi-eşqi çün gördüm, səlahi-əqldən durəm,
Məni rüsva görüb, eyb etmə, ey naseh ki, məzurəm

Əgər çaki-giriban eyləsəm, mən eyləmən, çün mən
Mətai-nəngdən ari, libasi-ardən urəm.

Mənü səhrayi-vəhşət, mənzil etməm afiyət güncün
Əsiri-dami-zülmət olmazam, çün talibi-nurəm.

Təmərrüd əql fərmanından etsəm, dustlar, billah,
Məni rəyimlə sanmın, eşq sultanına məmurəm.

Mənə kim tənə eylər, kim nəsihət əhli-aləmdən,
Xoşam kim, etibari-eşq ilə hər dildə məzkurəm.

Bəlayi-eşqü dərdi-dust tərkin qılmazam, zahid,
Nə müştaqi-behiştəm sən kimi, nə talibi-hurəm.

Xəyali-çinü zülfü taqi-əbrüsilə zövqüm gör,
Sanasan həşmət ilə Kəsriyəm, qədr ilə fəğfurəm.

Qərəz bir ad imiş aləmdə, mən həm eylərəm bir ad,
Bihəmdillah, Füzuli, rindü rüsvalıqda məşhurəm.

Can vermə ğəmi-eşqə ki, eşq afəti-candır,
Eşq afəti-can olduğu məşhuri-cahandır.

Sud istəmə sevdayi-ğəmi-eşqdı hərgiz
Kim, hasili-sevdayi-ğəmi-eşq ziyandır.

Hər əbruyi-xəm qətlinə bir xəncəri-xunriz,
Hər zülfi-siyəh qəsdinə bir əfi ilandır.

Yaxşı görünür surəti məhvəşlərin, amma
Yaxşı nəzər etdikdə, sərəncamı yamandır.

Eşq içrə əzab olduğun ondan bilirəm kim,
Hər kimsə ki, aşiqdir, işi ahü fəğandır.

Yad etmə qara gözlülərin mərdümi-çeşmin,
Mərdüm deyib aldanma ki, içdikləri qandır.

Gər dersə Füzuli ki, gözəllərdə vəfa var,
Aldanma ki, şair sözü, əlbəttə, yalandır.





Eşq dərdi, ey müalic, qalibi-dərman deyil!
Cövhərindən eyləmək cismi cüda asan deyil!

Dövr cövründən şikayət edənə aşiq deməm,
Eşq məsti vaqifi-keyfiyyəti-dövran deyil!

Şəhrdən səhrayə bir fərq olduğun hər kim bilir,
Bilmiş ol kim, eşq səhrasında sərgərdan deyil!

Hər kim idrak eylər öz keyfiyyəti-halın, hənuz
Dust rüxsarına eyni-şövq ilə heyran deyil!

Canı canan ittihadı fariq eylər cismdən,
Cismdən agah olan can vasili-canan deyil!

Der imiş düşmən ki, həmdəmdir Füzuli yar ilə,
Hər sözü böhtan isə, həqqa, bu söz böhtan deyil!

Ya rəb, bəlayi-eşq ilə qıl aşina məni!
Bir dəm bəlayi-eşqdən etmə cüda məni!

Az eyləmə inayətini əhli-dərddən,
Yəni ki, çox dərdlərə qıl mübtəla məni!

Getdikcə hüsnün eylə ziyadə nigarımın,
Gəldikcə dərdinə betər et mübtəla məni!

Mən qandanü mülaziməti-etibarü cah,
Qıl qabili-səadəti-fəqrü fəna məni!

Öylə zəif qıl tənimi firqətində kim,
Vəslinə mümkün ola yetirmək səba məni!

Nəxvət qılıb nəsib Füzuli kimi mənə,
Ya rəb, müqəyyəd eyləmə mütləq mana məni!





Eşq damına giriftar olalı zar olubam,
Nə bəladır ki, ona böylə giriftar olubam?

Dil deməkdən kəsilib, tən hərəkətdən, vəh kim,
Künci-ğəmxanəyə bir surəti-divar olubam.

Qüdrətim yox ki, qılam kimsəyə şərhi-ğəmi-dil,
Öylə kim, arizeyi-hicr ilə bimar olubam.

Həzərim tənədən ol qayətə yetmişdir kim,
Yara əğyar olub, əğyarım ilə yar olubam.

Deməzəm dəxi: «Sənə aşiqəm», ey gül, zira
Sənə aşiqliyim izhar edəli xar olubam.

Əqlü səbrü dilü din getdi bihəmdillah kim,
Səfərü-sahili-dəryayə səbükbar olubam.

Yox, Füzuli, xəbərim mütləq özümdən, bəs kim,
Valehi-nəqşi-xəyali-rüxi-dildar olubam.

Vəfa hər kimsədən kim, istədim, ondan cəfa gördüm,
Kimi kim, bivəfa dünyada gördüm, bivəfa gördüm.

Kimə kim, dərdimi izhat qıldım istəyib dərman,
Özümdən həm betər bir dərdə onu mübtəla gördüm.

Mükəddər xatirimdən qılmadı bir kimsə ğəm dəfin.
Səfadən dəm uran həmdəmləri əhli-riya gördüm

Əgər su damənin tutdum, rəvan döndərdi üz məndən
Və gər güzgüdən umdum sidq, əksi-müddəa gördüm.

Ayaq basdım dəri-ümmidə, sərgərdanlıq əl verdi,
Hünər sərriştəsin tutdum, əlimdə əjdəha gördüm

Mənə göstərdi gərdun tirə bəxtim kövkəbin yüz gəz,
Məni-bədbəxt ona hər gah kimi, baxdım, qara gördüm.

Füzuli, eyb qılma üz çevirsə əhli-aləmdən,
Nədən kim, hər kimə üz tutdum, ondan yüz bəla gördüm.





Yar rəhm etdi məgər naləvü əfğanımıza
Ki, qədəm basdı bu gün gülbeyi-ehzanımıza?!

Əşk baranı məgər qıldı əsər kim, nagah
Bitdi bir şaxi-güli-tazə gülüstanımıza?!

Bizə ah atəşinin yandığı ondan bilinir
Ki, çırağ eylədi rövşən şəbi-hicranımıza.

Bu vüsalə yuxu əhvalı demək mümkün idi,
Yuxu olsaydı əgər dideyi-giryanımıza.

Bir xəyal ola məgər gördüyümüz, yoxsa nigar,
Mütləqa xatirə gəlməz ki, gələ yanımıza.

Yar mehmanımız oldu, gəlin, ey canü könü
Qılalım sərf nəmiz var isə mehmanımıza

Dilbərin canə imiş qəsdi, Füzuli, gəl kim,
Can verib dilbərə minnət qoyalım canımıza.

Küfri-zülfün salalı rəxnələr imanımıza
Kafər ağlar bizim əhvali-pərişanımıza

Səni görmək mütəəzzir görünür böylə ki, əşk
Sənə baxdıqca dolar dideyi-giryanımıza.

Cövrü çox eyləmə kim, olmaya nagah tükənə
Az edib cövrü cəfalar qılıban canımıza.

Əskik olmaz ğəmimiz bunca ki, bizdən ğəm alıb,
Hər gələn ğəmli gedər, şad gəlib yanımıza.

Var hər həlqeyi-zəncirimizin bir ağzı,
Müttəsil verməyə ifşa ğəmi-pünhanımıza.

Ğəmi-əyyam, Füzuli, bizə bidad etdi,
Gəlmişiz icz ilə dad etməyə sultanımıza.





Xilafi-rəyim ilə, ey fələk, mədar etdin!
Məni gül istər ikən mübtəlayi-xar etdin!

Müruri-ömrdə bir dönmədin muradım ilə,
Dönə-dönə mənə zülm etməyi şüar etdin!

İhanətimdə nədir, bilməzəm, muradın kim,
Əzizi-aləm ikən, xarü xakisar etdin!

Ümidvar idim əvvəl ki, bir nişat görüm,
Binayi-möhnətimi indi üstüvar etdin!

Cəfa əlilə qılıb çak pərdeyi-səbrim,
Nihan olan ğəmimi xəlqə aşikar etdin!

Vəfadə verməyə can vermədin mənə möhlət,
Məni bu əhd vəfasında şərmsar etdin!

Bir özgəni mənə yar eyləməkdə sən guya,
Mənimlə yar olanı özgə ilə yar etdin!

Məgər bilindi, Füzuli, sənə fələk halı
Ki, varını bu cahanın yox etibar etdin?!

Aşiq oldur kim, qılır canın fəda cananına,
Meyli-canan etməsin hər kim ki, qılmaz canına

Canını canana verməkdir kamalı aşiqin,
Verməyən can etiraf etmək gərək nöqsanına.

Vəsl əyyamı verib canana can rahət bulan,
Yeydir ondan kim, salır canın ğəmi-hicranına

Eşq rəsmin aşiq öyrənmək gərək pərvanədən
Kim, yanar gördükdə şəmin atəşi-suzanına

Fani ol eşq içrə kim, bənzər fənası aşiqin
Feyzi-cavid ilə Xızrın çeşmeyi-heyvanına

Eşq dərdinin dəvası qabili-dərman deyil,
Tərki-can derlər bu dərdin mötəbər dərmanına

Hiç kim canan üçün can verməyə laf etməsin
Kim, gəlibdir bu sifət ancaq Füzuli şanına.





# Mürəbbelər

*(dördlüklər)*

Pərişanhalın oldum, sormadın hali-pərişanım,
Ğəmindən dərdə düşdüm, qılmadın tədbiri-dərmanım,
Nə dersən, ruzgarım böyləmi keçsin, gözəl xanım?
Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım!

Əsiri-dami-eşqin olalı səndən vəfa görməm,
Səni hər qanda görsəm, əhli-dərdə aşina görməm,
Vəfavü aşinalıq rəsmini səndən rəva görməm,
Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım!

Dəgər hər dəm vəfasız çərx yayından mənə bir ox,
Kimə şərh eyləyim kim, möhnətü ənduhu dərdim çox,
Sənə qaldı mürüvvət, səndən özgə hiç kimsəm yox
Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım!

Gözümdən dəmbədəm bağrım əzib yaşım kimi getmə!
Səni tərk etməzəm çün mən, məni sən dəxi tərk etmə!
İkən həm zalım olma, mən kim məzlumu incitmə!
Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım!

Qatı könlün nədən bu zülm ilə bidadə rağibdir
Gözəllər nisbəti olmaz cəfa, səndən nə vacibdir,
Sənin tək nazəninə nazənin işlər münasibdir
Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım!

Nəzər qılmazsan əhli-dərd gözdən axıdan seylə,
Yamanlıqdır işin üşşaq ilə, yaxşımıdır böylə?
Gəl, allahı sevərsən, aşiqə cövr etmə, lütf eylə,
Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım!

Füzuli şiveyi-ehsanın istər, bir gədayındır,
Dirildikcə sənin kuyun yoluda xaki-payındır
Gərək, öldür, gərək qoy, hökm-hökmün, rəy –rəyindir,
Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım!

* * *

Hasilim bərqi-həvadisdən məlamət dağıdır,
Məsnədim kuyi-məlamətdə fəna torpağıdır
Zar könlüm təndə zindani-bəla dustağıdır,
Rəhm qıl, dövlətli sultanım, mürüvvət çağıdır!

Dövr cövründən tənü canımda rahət qalmadı,
Surəti-halımda asari-fərağət qalmadı,
Möhnətü ğəm çəkməyə minbəd taqət qalmadı,
Rəhm qıl, dövlətli sultanım, mürüvvət çağıdır!

Könlümün mülkün cəfa seylabı viran eylədi,
Bəxtimin halın hücumi-ğəm pərişan eylədi,
Bağrımı əndişeyi-dövri-fələk qan eylədi,
Rəhm qıl, dövlətli sultanım, mürüvvət çağıdır!

İntihasız cövrlər odlara yandırdı məni,
Acı sözlər dadlı canımdan usandırdı məni,
Xəlqdən bihudə fəryadım utandırdı məni,
Rəhm qıl, dövlətli sultanım, mürüvvət çağıdır!





İstəyib bir çarə, çox yeldim, yüyürdüm hər yana,
Rəhm edib bir kimsə imdad etmədi mütləq mana,
Çarəsiz qaldım, mürüvvət istəyib gəldim sana,
Rəhm qıl, dövlətli sultanım, mürüvvət çağıdır!

Dadə gəldim ədl divanına, fəryadım eşit!
Sən ki, adilsən gör əfğanım nədəndir, ğurə yet!
Şərhi-halım sor, muradım ver, əlim tut fikrim et!
Rəhm qıl, dövlətli sultanım, mürüvvət çağıdır!

Gör Füzulinin rüxi-zərdində əşki-alını,
Pərdeyi-idbar tutmuş surəti-iqbalını,
Dərdməndindir, inayətlər edib sor halını,
Rəhm qıl, dövlətli sultanım, mürüvvət çağıdır!

* * *

Qeyri ilə hər dəm nədir seyri-gülüstan etdiyin?*
Bəzm edib, xəlvət qılıb, yüz lütfü ehsan etdiyin?
Əhd bünyadın mürüvvətdirmi viran etdiyin?
Hanı, ey zalım, bizimlə əhdü peyman etdiyin?!

Ləhzə-ləhzə müddəilər pəndini guş eylədin,
Qana-qana qeyr cami-şövqünü nuş eylədin,
Varə-varə əhdü peymanı fəramuş eylədin,
Hanı, ey zalım, bizimlə əhdü peyman etdiyin?!

Qeyrə salıb meylini bizdən sovutdun aqibət,
Tərki-mehr etdin, təriqi-zülm tutdun aqibət,
Əhdlər, peymanlar etmişdik, unutdun, aqibət,
Hanı, ey zalım, bizimlə əhdü peyman etdiyin?!

* "Leyli və Məcnun"dan.

Cürmümüz noldu ki, bizdən eylədin bizarlıq,
Biz ğəmin çəkdik, sən etdin özgəyə ğəmxarlıq,
Sizdə adət bumudur, böylə olurmu yarlıq,
Hanı, ey zalım, bizimlə əhdü peyman etdiyin?!

Çərx tək bədmehrlik rəsmini bünyad eylədin,
Yaxşı adın var ikən, döndün yaman ad eylədin,
Dönə-dönə bizi ğəmnak, özgəni şad eylədin,
Hanı, ey zalım, bizimlə əhdü peyman etdiyin?!

Könlümüz minbəd zülfünçün pərişan olmasın,
Bağrımız ləlin havasilə dəxi qan olmasın,
Bivəfasan, çeşmimiz yadınla giryan olmasın,
Hanı, ey zalım, bizimlə əhdü peyman etdiyin?!

Vədeyi-vəsl ilə aldın səbrimiz, aramımız,
Olmadı bir gün vüsalından müyəssər kamımız,
Keçdi hicr ilə Füzulidən betər əyyamımız,
Hanı, ey zalım, bizimlə əhdü peyman etdiyin?!

* * *

Giriban oldu rüsvalıq əlilə çak, damən həm,
Mənə rüsvalığımda dustlar tən etdi, düşmən həm,
Rəhi-eşq içrə qıldım giriftari-bəla, tən həm,
Bu yetməzmi ki, bir dərd artırırsan dərdimə sən həm?

Əgər tutsam ğəmim eldən nihan, səbrü qərarım yox,
Və gər şərhi-ğəmi-pünhanım etsəm, ğəmgüsarım yox,
Əsiri-bəndi-zindanəm, əlimdə ixtiyarım yox,
Bu yetməzmi ki, bir dərd artırırsan dərdimə sən həm?





Olubdur əşki-xunab ilə gülgün çöhreyi-zərdim,
Yanıbdır atəşi-hicranə cani-dərdpərvərdim,
Cəfayi-çərxi-kəcrəftar əlindən var min dərdim,
Bu yetməzmi ki, bir dərd artırırsan dərdimə sən həm?

Gəhi şövqi-vüsalü gəh bəlayi-hicr ilə zarəm,
Özüm həm bilməzəm dərdim nədir, mən necə bimarəm,
Ğəmi-eşq içrə bir dərmanə yox dərdə giriftarəm,
Bu yetməzmi ki, bir dərd artırsan dərdimə sən həm?

Cuda səndən bəlavü dərdi-hicran ilə tutdum xu,
Qılır hər dəm mənə bidad dərd ayru, bəla ayru,
Bəlavü dərdə düşdüm, rüzgarım böylə, halım bu,
Bu yetməzmi ki, bir dərd artırırsan dərdimə sən həm?

Təbibi-eşqə çün izhar qıldım dərdi-pünhani,
Məni-bimarə mütləq olmadı bir səhhət imkanı,
Əzəldən var min dərdim ki, yoxdur hiç dərmani,
Bu yetməzmi ki, bir dərd artırırsan dərdimə sən həm?

Füzuli, hər zaman bir tən ilə bağrım qılırsan qan,
Əcəb, bilməzmisən kim, eşqdən keçmək deyil asan,
Bilirsən, düşmüşəm bir dərdə kim, yoxdur ona dərman,
Bu yetməzmi ki, bir dərd artırırsan dərdimə sən həm?

# Müxəmməslər
*(Beşliklər)*

Ey hərir içrə tənin mütləq bülur içrə gülab,
Köksün abi-rövşən, ol ab üzrə düymədndir hübab!
Öylə zibasan ki, yox nəzzarənə aləmdə tab,
Vay, əgər tezcik çıxıb, sərpib ləçək, salsan niqab,
Hiç şək yox kim, səni görgəc olur aləm xarab.

Dil çəkib zərrin o tağın, verdi ləlindən sorağ,
Tutdu ol göftar üçün ləli-binaguşun qulağ,
Zülfünə həmdəm darağ, aşüftə mən ondan irağ,
Diş salıb hərpiçü tab açdıqca zülfündən darağ,
Rişteyi-canımda rəşkimdən düşər yüz piçü tab.

Ey üzü gül, köynəyi gülgunü donu qırmızı!
Atəşin kisvət geyib odlara yandırdın bizi.
Adəm oğlundan sənin tək doğmaz, ey zalım qızı!
Ayü Gündür hüsn bəhsində camalın acizi,
Guiya atan məhi-tabandır, anan Aftab!

Al sacaq altında mişkin saç pərişanhalıyam,
Sim-saq üzrə qızıl xalxallar pamalıyam,
Sanma, xalxalın kimi, mehrindən, ey məh xaliyəm,
Arizin dövründə, zərrin silsilən timsalıyam,
Ğəmzən oxundan həzin canımda yüz min iztirab!





Sürmədən gözlər qara, əllər hənadan lalərəng,
Hiç şahid yox bu rəng ilə ki, sənsən şuxu şəng,
Vəsməli qaşın yaşıl tozlu kaman, ğəmzən xədəng,
Ğəmzəvü qaşına meyl eylər Füzuli bidirəng,
Quş əcəbdir qılmamaq tirü kamandan intinab!

* * *

Vay, yüz min vay kim, dildardan ayrılmışam,
Fitnə çeşmü sahiri-xunxardan ayrılmışam,
Bülbüli-şuridəyəm, gülzardan ayrılmışam,
Kimsə bilməz kim, nisbət yardan ayrılmışam,
Bir qədi şümşadü gülrüxsardan ayrılmışam!

Qəddi tuba, ləli firdövsün şərabi-kövsəri,
Xülqü xuyi bir mələk, surətdə əmsali-pəri,
Bürci-əflakın səadətli, şərəfli əxtəri,
Hüsn ara məcmu xubların sərasər sərvəri,
Bir qədi şümşadü gülrüxsardan ayrılmışam!

Dustlar mən naləvü fəryad qılsam, eyb iməs,
Çərxi-bədmehrin əlindən dad qılsam, eyb iməs,
Ğəm diyarın dil ara abad qılsam, eyb iməs,
Bu bina birlə cahanda ad qılsam, eyb iməs,
Bir qədi şümşadü gülrüxsardan ayrılmışam!

Düşmüşəm ğəmxaneyi-hicrana zarü dərdnak,
Pənceyi-həsrət edib hər dəm giribanımı çak,
Gündə yüz gəz hicr tiğilən oluram mən həlak,
Gərdişi-dəvvar cövründən məni-dilxəstənak,
Bir qədi şümşadü gülrüxsardan ayrılmışam!

İştiyaqü şövqdən canü tənim aludədir,
Şami-ğəm fərzaneyi-bəxtim mənim uyğudədir
Ağlamaqdan çeşmü cismi-dərdnakım sudədir,
Sanma, ey həmdəm ki, fəryadım mənim bihudədir,
Bir qədi şümşadü gülrüxsardan ayrılmışam!

Vəsl umub cövrü cəfasını çəkərkən can hənuz,
Meh umub şövqündə yanarkən dili-suzan hənuz,
Cismi-ğəmnakımda var ikən ğəmi-hicran hənuz,
Yetmədən payanə ahü naləvü əfğan hənuz,
Bir qədi şümşadü gülrüxsardan ayrılmışam!

Mülki-vəsli dilbərin könlümdə məmur olmadan,
Eşq canından dilü can məstü məxmur olmadan,
Dərdü-bidərman hicrandan tənim dur olmadan,
Həm Füzuli eşqü aşiqliyi məşhur olmadan,
Bir qədi şümşadü gülrüxsardan ayrılmışam!

* * *

Tən pozuldu əşki-çeşmi-xunfişanımdan mənim,
Göydü can könlümdəki suzi-nihanımdan mənim,
Ta əsər var cismü cani-natəvanımdan mənim,
Ğəm kəm etməz gözü könlüm cismü canımdam mənim,
Bu başımdan savulub, ol getsə yanımdan mənim.

Meyli-vəsl əymiş qədimi cəngi-bəzmi-yar tək,
Rəglərim sızlar əl ursam, cəng üzrə tar tək,
Cəngü ney mümkün kəm edə zarlıq mən zar tək,
Bəs ki, məmluyəm həvayi-eşqə musiqar tək,
Min fəğan hərdən çıxar hər üstünxanımdan mənim.





Aləmi tutdu sirişkim qanı, tutmazsan xəbər!
Saldı yaşım rəxnələr yollara, qılmazsan nəzər!
Qan yaşımdan sarı kim, tutmuş yolun, qıl bir güzər!
Meyl qıl məndən yana, hər dəm bu istiğna yetər!
Qanlı isəm, dəxi gəl keç imdi qanımdan mənim!

Güz evi tək oldu əşkimdən çox evlər qərqi-ab,
Göz evi tək qıldı çox ev mərdümi-çeşmim xarab,
Aləmi seylabə verdim, ey camalı Aftab!
Görünür mərdüm gözünə seyl ilən qopmuş hübab,
Suya hər ev kim, gedər əşki-rəvanımdan mənim!

Ey xəyalın xəlvəti nəqdi-rəvanım məxzəni,
Göz yaşı olur rəvan hər gəl xəyal etsəm səni,
Lütf umub səndən, səri-kuyində etdim məskəni,
Gəl, gözüm nuri, Füzuli tək çox ağlatma məni,
İncimazmi xatirin ahü fəğanımdan mənim?!

# Müsəddəs

*(Altılıq)*

Dün sayə saldı başıma bir sərvi-sərbülənd
Kim, qəddi dilrüba idi, rəftarı dilpəsənd,
Göftara gəldi nagəh açıb ləli-nuşxənd,
Bir püstə gördüm onda tökər rizə-rizə qənd.
Sordum:—Məgər bu dürci-dəhəndir—dedim, dedi:
–Yox-yox, dəvayi-dərdi-nihanındurur sənin!

Əymiş hilali üstünə tərfi-gülahını,
Çox dilşikəstənin göyə yetirmiş ahını,
Zülfün dağıtdı, gizlədi əbr içrə mahını,
Gördüm üzündə həlqeyi-zülfi-siyahını,
–Ol piçü tabı çox nə rəsəndir?– dedim, dedi:
–Dövri-rüxümdə rişteyi-canındurur sənin!

Vermiş fürüğ şəmi-rüxi Gün çırağına,
Salmış şikəst sərv qədi gül budağına,
Dün sərv tək basanda qədəm göz bulağına,
Bir necə xardən ələm irmiş ayağına.
–Gül bərginə batan nə dikəndir? – dedim, dedi:
–Müjgani-çeşmi-əşkfəşanındurur sənin!





Seyr ilə saldı bağə nəzər ol səmənüzar,
Ənvai-zibü zinət ilə fəsli-novbahar,
Tökmüş gül üzrə sünbüli-geysuyi-müşkbar,
Yaxmış lətif ayağına gülbərg tək nigar,
–Nəsrinə rəngi-lalə nədəndir? – dedim, dedi:
–Ğəmzəm xədəngi tökdüyü qanındurur sənin!

Düşmüş üzarı üzrə müənbər səlasili,
Aşüftəhal edib necə bisəbrü bidili,
Ağlımı valeh eylədi şəklü şamaili,
Göz gördü qamətin, dilü can oldu maili,
–Vəh bu nə türfə sərvi-çəməndir?-dedim, dedi:
–Mənzuri-dideyi-nigəranındurur sənin!

Seyri-sirişkim oldu rəvan xaki-kuyinə,
Can valeh oldu ləli-ləbü göftü guyinə,
Dil düşdü dami-silsileyi-mişkbuyinə
Ol ləhzə kim, sataşdı gözüm zülfü ruyinə,
–Əqrəb məhi-münirə vətəndir?-dedim, dedi:
–Vəhm eylə kim, xətərli qiranındurur sənin!

Dün sübhdəm ki, laləvü nəsrin salıb niqab,
Gül çöhrəsindən atdı səba pərdeyi-hicab,
Gülzarə çıxdı seyr ilə ol rəşki-Aftab,
Şəbnəm nisarın etdi yugüş lölöi-xoşab,
–Bunlar nədir, nə dürri-Əfəndir? – dedim, dedi:
–Əbsəm, Füzuli, əşki-rəvanındurur sənin!

# Tərcibənd

Mən kiməm? – Bir bikəsü biçarəvü bixaniman,
Taleim aşüftə, iqbalım nigun, bəxtim, yaman,
Nəmli əşkimdən zəmin məmlu, ümümdən asiman,
Ahü naləm navəki peyvəstə, xəm qəddim kaman.
Tiri-ahım bixəta, təsiri-naləm bigüman,
Müttəsil qəmxaneyi-sinəmdə yüz ğəm mihman.
Harda bir ğəm itsə, məndən istəsinlər, mən zəman.
Yox mənə qeydi-bəlavü dami-möhnətdən aman.
Çıxmadı könlümdən əndubü ğəmü möhnət haman,
Ey mənim canım sənü könlüm səninlə şadman.
Sənsiz olmam ayrı möhnətdən, bəladan bir zaman,
Əl aman, hicran bəlavü möhnətindən əl aman!

Faqir idim cümlə aləmdən, bilir aləm məni,
Eyb edərdi, bixəbər sanıb, bəniadəm məni.
Qoymadı dövrani-çərx öz halıma xürrəm məni,
Şad ikən aləmdə çərx etdi əsiri-ğəm məni.
Eşq nagah oldu peyda, tutdu müstəhkəm məni.
Saldı yüz sövdayə ol giysuyi-xəm-dər-xəm məni.
İndi Məcnundan rəhi-eşq içrə sanmın kəm məni,
Yar xud qılmaz hərimi-vəslinə məhrəm məni.
Sən ki, məhrəmsən, səba, billah anıb hər dəm məni,
Söylə, ey gül, kim, sənə bəxt eyləməz həmdəm məni.
Sənsiz olmam ayrı möhnətdən, bəladan bir zaman,
Əl aman hicran bəlavü möhnətindən əl aman!





Bülbüli-zarəm, güli-rüxsari-alından cüda,
Tutiyi-laləm, şəkər nisbət məqaləndən cüda.
Der idim səbr eyləyim olsam camalından cüda,
Bilmədim düşvar imiş olmaq vüsalından cüda,
Tirə oldu ruzigarım zülfü xalından cüda
Oldu səhra mənzilim vəhşi qəzalından cüda
Mu tək incəldi tənim nazik nihalından cüda
Xəm gətirdi qamətim mişkin hilalından cüda,
Çıxdı cani-natəvan şirin zülalından cüda,
Oldum, əlqissə, rüxi-fərxəndəfalından cüda,
Sənsiz olmam ayrı möhnətdən, bəladan bir zaman,
Əl aman, hicran bəlavü möhnətindən əl aman!

Sinə cakü didə nəmnakü bədəl əfkardır,
Can həzin, xatir ğəmin, şeyda könül bimardır,
Mən bu qəm içrə ki, dəfin eyləmək naçardır,
Məsləhət sordum, dedilər məsləhət izhardır,
Söylədim dərdi-dilimi, bildi ol kim yardır
Mən bu ğəm içrə ki, dəfin eyləmək naçardır,
Dəxi izhar edəməm, nə hacəti-təkrardır,
Eyləyim səbrü təhəmmül ta həyatım vardır.
Cana yetgəc ta ki, məndə qüvvəti-göftardır,
Söylərəm, ey gül, ki, səndən ayrılaq düşvardır.
Sənsiz olmam ayrı möhnətdən, bəladan bir zaman,
Əl aman, hicran bəlavü möhnətindən əl aman!

Yar bilgəc halımı bir rəhm peyda eyləyə,
Anlayıb dərdi-dilimi bir müdava eyləyə,
Olmaya qafil, mənə minbəd pərva eyləyə,
Rəhm edib, ancaq məni aləmdə rüsva eyləyə,
Ta özün könlüm onun eşqində şeyda eyləyə,

Tuta damanın onun, vəslin təmənna eyləyə,
Qılmaya ikrah cövründən, müdara eyləyə,
Düşməyə ondan cüda, kuyində məva eyləyə,
Gər özündən onu yar ayırsa, ğovğa eyləyə,
Dəmbədəm yüz şövq ilə bu beyti inşa eyləyə:
Sənsiz olmam ayrı möhnətdən, bəladan bir zaman,
Əl aman, hicran bəlavü möhnətindən əl aman!

Fərq eşq içrə, Füzuli, izzü cahımdır mənim,
Şiveyi-mehrü məhəbbət rəsmü rahımdır mənim,
Dərdimi sabit qılan üşşaqə ahımdır mənim,
Ah bu dəvadə bir adil güvahımdır mənim,
Gərçi ğəm məqsudu qətli-bigunahımdır mənim,
Dərgəhi-piri-müğam ümmidgahımdır mənim,
Mən onun bir çakəri, ol padşahımdır mənim,
Ey ki, hər cürm olsa, lütfün üzrxahımdır mənim,
Ayıran səndən məni bəxti-siyahımdır mənim,
Sənsiz olmam ayrı möhnətdən, bəladan bir zaman,
Əl aman, hicran bəlavü möhnətindən əl aman!





*Mənəm ki, qafiləsalari-karvani-ğəməm...*

## Tərkibbənd

Mənəm ki, qafiləsalari-karvani-ğəməm,
Müsafiri-rəhi-səhrayi-möhnətü ələməm,
Həqir baxma mənə, kimsədən saqınma kəməm,
Fəqiri-padşahasa, gədayi-möhtəşəməm.
Sirişk təxti-rəvandır mənə, bu ah,-ələm,
Cəfavü cövr-mülazim, bəlavü dərd-həşəm.

Nə mülkü mal mənə çərx versə məmnunəm,
Nə mülkü maldən avarə qılsa məhzunəm,
Əgərçi müflisü pəstü mühəqqərü dunəm,
Dəmadəm öylə xəyal eylərəm ki, Qarunəm,
Könüldə nəqdir-vəfa gənci, leyk pünhani,
Gözüm xəzaneyi-ləlü gühər, vəli fani.

Həyat sərf edübən dərd qılmışam hasil,
Sirişki-alü rüxi-zərd qılmışam hasil,
Zəmir güzgüsünə gərd qılmışam hasil,
Təbiəti-səgi-şəbgərd qılmışam hasil,
İşim qara gecə ta sübh naləvü fəryad,
Nə versələr ona şakir, nə dersələr ona şad.

Sirişkriz güləndamlar həvasilə,
Şikəstəhal siyəhzülflər bəlasilə,
Zəmanə içrə ğəmi-eşq macərasilə,
Həmişə məsləhətim özgələr rizasilə,
Nə dövri-gərdişi-gərdun mənim muradım ilə,
Nə qayəti-əməlim hüni-etiqadım ilə.

Həsud surəti-əhvalıma nəzər qılmaz,
Cəfa qılır məni-bicarəyə, həzər qılmaz,
Sanır ki, naləvü zarım ona əsər qılmaz,
Onu mürur ilə aləmdə dərbədər qılmaz,
Zamanə içrə mürərrəbdir intiqami-zaman,
Həmişə yaxşıya yaxşı verər, yamana yaman.

Xoşam ki, xameyi-təqdiri-izədi-mütəal,
Vücud lövhünə təsvir edəndə surəti-hal,
Rəqəm qılıb əgər idbardır və gər iqbal,
Olur təğəyyür ona qeyridən bir əmri-mühal,
Səadəti-əzəli qabili-zaval olmaz,
Günəş yer üstünə həm düşsə paymal olmaz.

Əzizi-həq həsədi-düşmən ilə olmaz xar,
Həsud hiyləsi iqbalı eyləməz idbar,
Əgərçi gülbünə gahi xəzandan afət var,
Tədarük eylər ona afiyət nəsimi-bahar,
Qərəz ki, hər kim əzəldən olursa dövlətmənd,
Mühaldır yetə asari-dövlətinə gəzənd.





Əgərçi bir neçə gün iqtizayi-aləmi-dun,
Cahanda eylədi iqbal rəyətini nigun,
Zamanə surəti-əhvalım etdi digərgun,
Vəfa xətinə qələm çəkdi çərxi-buqələmun,
Bu gün zamana ol əhvaldan peşimandır,
Əgərçi kafər idi, haliya müsəlmandır.

Füzuli, eylədiyin əhdinə vəfa qılğıl,
Yetər şikayət edib şərhi-macəra qılğıl,
Vücudunu hədəfi-navəki-bəla qılğıl,
Qamu cəfalara səbr eyləyib dua qılğıl,
Kim, ola dust rizası həmin sənə hasil,
Rizayi-dustdur əsli-təməttö, ey qafil!

# Bahariyyə

Gətir,saqi, qədəh kim, novbahari-aləmaradır!
Zəmin səbzü hava canbəxşü gülşən rahətəfzadır!
Pərişan olma kim, gülbərg tək hala bu gülşəndə
Nişatü eyş üçün əsbabi-cəmiyyət mühəyyadır.
Açıldı lalə, güldü qöncə, gəldi işrət əyyamı,
Zəbani-hali-səbzə işrət·iymasına guyadır.
Gör öz halını sən, çəkmə ğəmi-mazivü müstəqbəl,
Ki, hala mövsimi-gülgəştü dövrü-cami-səhbadır.
Səhər gülzarə gir, billah, bu mövsimlərdə vü hər dəm
Tamaşa qıl ki, divanında gülün xoş tamaşadır.
Açıldı qönçə timarı və məlum oldu məzmunu,
Budur kim: fövq qılman mövsimi-gül cami-gülguni

Gətir, saqi, qədəh kim, eyş xoşdur zamanında,
Zaman fövt etmə, dəhrin qüsseyi-sudu ziyanında
Qumari «təhtəhəl-ənhar»* oxur gülzar vəsfində,
Ənadil «hazihi cənnət»** oxur gülzar şanında.
Səba qöncə dəhanın pür zər etsə, hic eyb olmaz.
Ki, mədhi-Xani-xaqanqədir qöncə dəhanında.
Hava səbzə zəbanın tiz əgər qılsa, yeridir kim,

* "Altından çaylar".

Açıqlaması: qumrular gülzarı tərifləyib "Altından sular" şərqisini oxur.

** "Bu cənnətdir".

Açıqlaması: bülbüllər "Bu cənnətdir" oxur, gülzarın şəninə.





Sənayi-xani-xeyrəncamdır səbzə zəbanında.
Qədəh tutmaqdan ikrah etməzəm ta kim, eşitdim mən,
Səhər bülbül dilində, gül qatında, səbzə yanında.
Açıldı qönçə tumarı və məlum oldu məzmunu,
Budur kim: fövt qılman mövsimi-gül cami-gülguni.

Gətir, saqi, qədəh kim, bağü səhra laləzar oldu,
Əcəb fəsli-xücəstə, mövsimi-xoşruzgar oldu.
Şükufə bərgi torpaq üzrə simin xiştlərdir kim,
Əsasi-eyşi-xəlq ol xiştlərdən üstvar oldu.
Ciyər qanı kimi getmişdi gözdən tazə gül şəkli,
Yenə daği-dili-əhli-vəfa tək aşikar oldu.
Çıxardı səbzəvü gül xakdən çox ləlü firuzə.
Vəli yüz şükr kim, Xan xaki-payinə nisar oldu.
Füzuli, gər xəzan fəsli olardın müttəqi, hala
Mey iç kim, mövsimi gül gəldi, əyyami-bahar oldu.
Açıldı qönçə tumarı və məlum oldu məzmunu,
Budur kim: fövt qılman mövsimi-gül cami-gülguni*.

* İxtisarla.

# RÜBAİLƏR

1

Canımda olan zəxireyi-nitqü həyat,
Cismimdə olan cövhəri-hüsni-eşqində,
Sərf olmadı xublar rəhi-eşqində,
Əfsus ki, bihudə keçirdim ovqat.

2

Derlər ki, qılır qönçə ləbi-yar ilə bəhs,
Gülbərgi-tər ol ləli-gühərbar ilə bəhs.
Ol bir neçə dilsizlərə töhmətdir bu,
Dəvayə gərək ləhceyi-göftar ilə bəhs.

3

Xeyli ğəmin etdi nəqdi-səbrim tarac,
Səbr ilə müyəssər olmadı dərdə əlac.
Rüxsarıma tökdü mərdümi-çeşmim qan,
Hinduyi görün ləl verir Rumə xərac.

4

Ey şərbəti-vəslin ələmi-hicrə əlac!
Bazari-ğəmində eşq nəqdinə rəvac.
Gər tutsa xədəngin rəngi-canım nə əcəb,
Nəbz ilə qılır təbib təşxisi-mizac.





5

Mey şövqü olubdur mənə adət, ey şeyx!
Gəldikcə bu şövq olur ziyadət, ey şeyx!
Xoşdur mənə mey, sənə ibadət, ey şeyx!
Rəy ilə deyil eşqü iradət, ey şeyx!

6

Ta məhmili-mehrdir bu zəngari-məhd,
Mehrinlə vəfa əhlinədir möhkəm əhd.
Birdir bizə bəzmgahi-eşqində fələk
Gər qəhrilə zəhr versə, vər, lütfilə şəhd.

7

Hər yerdə ki, ol simbərü simin xəd
Ərz eyləyə əriz, aça sünbül, çəkə qəd;
Rəngi-gülü buyi-sünbülü cilveyi-sərv
Hökm eyləməzəm kim, ola məqbuli-xirəd.

8

Ta boynuma saldı ol xəmi-zülf kəmənd,
Tədbir ilə açılmadı boynumdan bənd.
Çox pənd verildi, olmadı faidəmənd.
Yetməzmi mənə pənd verən, xəlqə bu pənd?!

9

Ey şəhid-ləbin sözü şəkərvar ləziz!
Ləlin kimi qanda bir şəkər var ləziz?
Tüngi-şəkər olmasaydı dürci-dəhənin,
Olmazdı çıxan ləhceyi-göftar ləziz.

## 10

Hərdəm mənə yar ərzi-rüxsar eylər,
Hüsnilə məni betər giriftar eylər.
Guya ki, kəmali-eşq dərsin oxudur,
Hərdən mənə təlimini təkrar eylər.

## 11

Hər dil ki, əsiri-ğəmi-hicran olmaz,
Şayəsteyi-zövqi-vəsli-canan olmaz.
Hər dərd ki var, var dərmanı, vəli
Bidərdlərin dərdinə dərman olmaz.

## 12

Hicrin ciyərini hər kimin qan eylər,
Tədric ilə vəslin ona dərman eylər.
Zülfün kimi kim, müddət ilə kafir idi,
Ləlin onu bir dəmdə müsəlman eylər.

## 13

Biz aləmi-eşq aləmaraləriyüz,
Meyxaneyi-dərd dürdpeymaləriyüz
Gülbərgi-nədamət çəmənidir aləm
Biz bu çəmənin bülbüli-şeydaləriyüz.

## 14

Kimdir ki, ğəmində naleyi-zar etməz,
Dərdin sənə nalə ilə izhar etməz.
Fəryadına hic kimsənin yetməzsən,
Fəryad ki, fəryad sənə kar etməz.





## 15

Canan isə mətlub, təmə candan kəs!
Mətlub isə can, ümid canandan kəs.
Can sevmək ilə müyəssər olmaz canan,
Ya bundan ümid, ya təmə ondan kəs.

## 16

Kuyinə sənin nə daşə kim, urdum baş,
Qıldım onu qərqi-xun, töküb gözdən yaş.
Göz yaşına rəhm eylə ki, çox müddətdir,
Bidadına səbr edib basar bağrına daş!

## 17

Ey kəsbi-kamala etiqadın naqis,
Təhsili-kamala ictihadın naqis!
Ar etmə tələbdə, qıl həzər ondan kim,
Kamillər içində adın ola naqis.

## 18

Ey bad, qıl əhvalımı cananıma ərz!
Sərgəştəliyim sərvi-xuramanıma ərz!
Öldürdü kinayətilə ağyar məni,
Bu zülmi-sərihi eylə sultanıma ərz!

## 19

Ey cövhəri-eşqin əsəri cinsü ərəz,
Yox aşiqə səndən özgə aləmdə qərəz.
Çün bildin əsirinəm tərəhhüm qıl kim,
Tədbir gərək, müşəxxəs olduqda mərəz.

## 20

Zahid, meyi-nabdəndir ikrah qələt!
Sən xah sözüm səhih tut, xah qələt.
Məscidlərə girdiyim deyil rəğbətdən
Sərməstliyimdən eylərəm rah qələt.

## 21

Mey nəfyini eyləyib şüar, ey vaiz!
Tutdun rəhi-təni-yar, ey vaiz!
Tərki-meyü məhbub edərik cənnət üçün
Şərh eylə ki, cənnətdə nə var, ey vaiz!

## 22

Təhdid ilə keçdi rüzgar, ey vaiz!
Fövt oldu şərabü vəsli-yar, ey vaiz!
Gər kövsərü hurisə qərəz, vermə əzab,
Nə tərk buyur, nə intizar, ey vaiz!

## 23

Pərvanəyə zülmü-bihisab eylər şəm,
Zülm oduna bağrını kabab eylər şəm
Guya ki, bilir zülm sərəncamı nədir,
Bihudə deyil ki, iztirab eylər şəm.

## 24

Hər şam yetər vüsali-cananə çırağ,
Ta sübh qalır həmdəmü həmxanə çırağ
Rəşk oduna yandırdı məni hər saət,
Vəhm eyləməz ahım oduna yanə çırağ.





## 25

Hər gəh ki, bahar qıldı arayişi-bağ,
Novmidlik urdu laləvəş bağrıma dağ,
Zira tikan üzrə tutdu bülbül məskən
Gül bad güzərgəhində yandırdı çırağ.

## 26

Yox dərdə bir müvafiqi-təb hərif
Kim, söhbəti dilgüşa ola, təbi zərif.
Fəryad ki, nacins müsahiblər ilə,
Bifaidə zayə oldu ovqati-şərif.

## 27

Sərmənzili-hər muradə rəhbərdir eşq,
Keyfiyyəti-hər kamalə məzhərdir eşq.
Gəncineyi-kainatə gövhərdir eşq,
Hər sadir olan nəşəyə məsdərdir eşq.

## 28

Uşşaqə deyil qeydi-əlaiq layiq,
Hərgiz ğəmi-rüzgar çəkməz aşiq.
Qeydi-ğəmi-rüzgar bir illətdir.
Ol illətə eşqdir təbibi-haziq.

## 29

Məcnun oda yandı şöleyi-ah ilə pak,
Vamiq suya batdı, eşqdən oldu həlak
Fərhad həvəs ilə yelə verdi ömrün,
Xak oldular onlar, mənəm indi ol xak.

## 30

Mən durdu müqabil sənə bulduqda kamal,
Gördü ki, özündə yox səncə hüsnü camal
Bir qayətə yetdi incəlib ğəmdən kim,
Zəfi-bədənilə bədr ikən oldu hilal.

## 31

Həmdəm gör axan sirişki-alımı mənim,
Tutmuş ruyi-kəbrüba misalımı mənim
Billah, yeri ol gülrüxə ərz eyləyə gör
Bir rəng ilə bu surəti-halımı mənim.

## 32

Ey qaib olan dideyi-xunbarımdan!
Vey rahət olan sineyi-əfkarımdan!
Mən varımı yox səninçün etdim, nə rəva,
Sən tutmayasan xəbər yoxü varımdan.

## 33

Qəddinə dedim ki, sərvi-büstandır bu!
Tünd oldu ki: ey xəstə, nə hədyandır bu!
Pabəstəvü ürü bizəbandır dediyin,
Xəndanü qəbapuşü xuramandır bu!

## 34

Dedim ləbinə: ləli-Bədəxşandır bu!
Güldü, dedi: ey fəqir, böhtandır bu!
Bir daşa nə rəng ilə qılırsan nisbət,
Şirinü şəkətfəşanü xəndandır bu!





## 35

Yandırdı məni şövqi-camalın, ey mah!
Hər ləhzə əcəb deyil yetirsəm göyə ah!
Zülfün girəhi çıxdı əlimdən nagah
Gör kim, nə cəfa etdi mənə bəxti-siyah!

## 36

Rüxsara səri-zülfi pərişan eylə!
Gözdən güli-rüxsarını pünhan eylə!
Bir neçə pərişanları öz halına qoy,
Hər ləhzə yetər qəsdi-dilü can eylə!

## 37

Müjganımı, ey şəm, gühərbar etmə!
Pünhan ğəmimi aləmə izhar etmə!
Eşq əhlinə zülmdür vəfa eyləməmək,
Zinhar, bu zülmü etmə, zinhar etmə!

## 38

Rüxsarına eyb etmə nigah etdiyimi,
Göz yaşı töküb, naləvü ah etdiyimi
Ey padşəhi-hüsn, tərəhhüm çağıdır,
Əfv eylə ki, bilmişəm günah etdiyimi.

## 39

Fəryad ki, eşq biqərar etdi məni,
Dərdü ğəm ilə zarü nizar etdi məni
Xaki-səri-kuyunda qubar etdi məni
Sərgəştəvü xarü xaksar etdi məni.

**40**

Gördüm səni əldən ixtiyarım getdi,
Baxdım üzünə, səbrü qərarım getdi.
Xak oldumu hər yana qubarım getdi.
Əlqissə, qapında etibarım getdi.





*Əsiri-bami-zülmət olmazam çün talibi-nurəm...*

# İctimai-fəlsəfi məzmunlu qəzəlləri

Dust bipərva, fələk birəhm, dövran bisükun,
Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun.

Sayeyi-ümmid zayil, afitabi-şövq gərm,
Rütbeyi idbar ali, payeyi-tədbir dun.

Əql dun-himmət, sədayi-tənə yer-yerdən bülənd,
Bəxt kəşməfqət, bəlayi eşq gün-gündən füzun.

Mən qəribi-mülkü rahi-vəsl pür təşvişü məkr,
Mən hərifi-sadəlövhü dəhr pür nəqşü füsun.

Hər səhiqəd, cilvəsi, bir seyli-tufani-bəla,
Hər hilaləbru qaşı sərxəti-məşqi-cunun.

Yeldə bərgi-lalə tək, təmkini-daniş bisəbat
Suda əksi-sərv tək, təsiri-dövlət vajgun.

Sərhədi-mətlub pür möhnət, təriqi-imtahan
Mənzili-məqsud pür asib, rah-azimun





Şahidi-məqsəd nəvayi-cəng tək pərdənişin
Sağəri-işrət hübabi-safi-sərba tək nigun.

Təfriqə hasil, təriqi-mülki-cəmiyyət məxuf,
Ah, bilməm neyləyim, yox bir müvafiq rəhnümun.

Çöhreyi-zərdin Füzulinin tutubdur əşki-al,
Gör ona nə rənglər çəkmiş sipehri-niligun.

Dəhr bir mənzil, xəyaliq karivani biş iməs,
Söz qamu əfsanə, el əfsanəxani biş iməs.

Tərki-fikri-dünyəvi sevdayi-üqba eylə kim,
Dünyəvi üqba xəyaliyü gümani biş iməs.

Əhli-həşmət kisvətin zərbəft edər bilməz kim ol,
Bağı-cəmiyyət baharına xəzani-biş iməs.

Gər təvanalıq sözün söylər hülul etgəc qəza
Hər kimi görsən təvana natəvani biş iməs.

Eyləyib möhnət zamanında dəmadəm iztirab,
İstəmə rahət ki, rahət həm zəmani biş iməs.

Ömr nağdın sud sevdasında zaye qılma kim,
Ol kim, adın sud qılmışsan ziyani-biş iməs.

Etibar, ey dil, Füzulidən götür kim, ol fəqir
Bidilü biçareyü bixanimani biş iməs.





Deyilsən çoxdan, ey gərdun, cahan seyrində yoldaşım,
Nola xəm olsa qəddin, səndən artıqdır mənim yaşım.

Tərazuyi-əyari-möhnətəm bazari-eşq içrə,
Gözüm hərdəm olub, min daşa hər saət dəyər başım,

Sirişkim al, bağrım para, bir kuhi-bəlayəm kim,
Həmişə ləlvü ləl ilə rəngindir içim, daşım.

Mənə manənd bir divanə surət bağlamaz, guya,
Qələm sındırdı təsvirim çəkəndən sonra nəqqaşım.

Füzuli, xəzini-gənci-vəfayəm, ol səbəbdəndir.
Gühərlər tökdü israf ilə bu çeşmi-gühərpaşım.

Bəqa mülkü dilərsən, fani et varını dünya tək,
Ətək çək gördüyündən afitabi-aləmara tək.

Təəllüq zülmətin təcrid xurşidinə qıl mətlə
Əgər aləmdə bir gün görmək istərsən Məsiha tək.

Könül hər surəti-Şirinə vermə, iç meyi-məni,
Həzər qıl, daşa çalma tişəni Fərhadi-şeyda tək.

Rəfiqin olsa dilsiz canəvər hər saxla raz ondan,
Saqın, sirrin düşürmə dillərə Məcnuni-rüsva tək.

Yetər tavus tək üçbilə qıl arayişi-surət
Vucudundan keçib, aləmdə bir ad eylə ənqa tək.

Gühər tək qılma təğyiri-təbiət, dəlsələr bağrın,
Qərar et, hər havadan olma şurəngiz dərya tək.

Füzuli kainat əsbabının qıldım tamaşasın,
Nədamətsiz tənəüm yox, təsərrüfsüz tamaşa tək.





Gəl, ey rahət sanan əsbab cəmin, qılma nadanlıq,
Təriqi-fəqr tut kim, fəqr imiş aləmdə sultanlıq.

Murad ər səltənətdən kami-dildir, nəfsə tabesən
Nə hasil səltənət adilə qılmaq bəndəfərmanlıq.

Pərişanlıqdan, ey xəlqi-cahan, siz cəm edin xatir
Ki, mən cəm eylədim hər handa vardır bir pərişanlıq.

Nə taledir bu kim, aləmdə ağaz etmədim bir iş
Kim, ol işdən sərəncam etmədim hasil pərişanlıq.

Mənə zülmi-sərih ol kafər eylər, kimsə mən etməz,
Füzuli, küfr olurmu gər desəm yoxdur müsəlmanlıq?!

# QİTƏLƏR

Padşahi-mülk dinarü dirəm rüşvət verib,
Fəthi-kişvər qılmağa eylər mühəyya ləşgəri.

Yüz fəsadü fitnə təhrikilə bir kişvər alır,
Ol dəxi asari-əmnü istiqamətdən bəri.

Göstərən saətdə dövrani-fələk bir inqilab,
Həm özü fani olur, həm ləşgəri, həm kişvəri.

Gör nə sultanəm məni dərviş kim, feyzi-suxən
Eyləmiş iqbalımı asari-nüsrət məzhəri.

Hər sözüm bir pəhləvandır kim, bulub təyidi-həqq,
Əzm qıldıqca tutar tədric ilə bəhrü bəri.

Handa kim, əzm etsə, mərsumü məvacib istəməz,
Hansı mülkü tutsa, dəyməz kimsəyə şurü şəri.

Paymal etməz onu asibi-dövri-rüzgar,
Eyləməz təsir ona dövrani-çərxi-çənbəri.

Qılmasın dünyada sultanlar mənə təklifi-cud,
Bəsdurur başımda tövfiqi-qənat əfsəri.

Hər cəhətdən fariğəm, aləmdə haşa kim, ola
Rizq üçün əhli-bəqa əhli-fənanın çakəri.





Hər kimin var isə zatında şərarət küfrü
İstilahati-ülum ilə müsəlman olmaz.

Gər qara daşı qızıl qan ilə rəngin edəsən,
Təbə tağyir verib, ləli-bədəxşan olmaz.

Eyləsən tutiyə təlim ədayi-kəlamat,
Nitqi insan olur, amma özü insan olmaz.

Hər uzun boylu şücaət edə bilməz dəva,
Hər ağac kim, boy ata, sərvi-xuraman olmaz.

Əhli-kamala cahil əgər qədr qılmasa,
Məzurdur, məlamətin etmək rəva deyil.

Cahil təbiətində məzaqi-kamal yox,
Hər nəfsə iqtidayi-təbiət xəta deyil.

Ülfət həmişə fəri olur aşinalığın,
Cahil fəzilət əhli ilə aşina deyil.





Müstəqil mərifət əhlini ayaqlara salıb,
Fələki-süflə qılır möhnətü ğəm pamalı.

Ol ki, cahildir, edib cümlə muradın hasil,
Etibar ilə qılır məsnədi-qədrin ali.

Bu səbəbdən bilirəm kim, bu cahan övrətdir,
Övrətin böylədir övladı ilə əfalı.

Ulu övladı kəsər süddənü tədib verər,
Süd verib lütf ilə bağlar beşiyə ətfalı.

Mən sübhü şam dudi-dili-suznak ilə,
Bağrın kabab edib, verərəm çərxə inqilab.

Hutü həməl* mədarı ilə asiman dəxi,
Qan uddurub verər dili suzanıma əzab.

Dünyada yox fərağətə ümmid, netəkim,
Qan uddurur oda, netəkim, cizginir kabab.

* Hut və həməl (astr.) bürcləri. On iki bürc. Günəş hərəkətində bunlarda qərara tutub keçir.





Əlindən ahlar, ey əxtəri-bəxti-siyahım kim,
Məni xəlq içrə aliqədr ikən, qayətdə xar etsin.

Qılıb xurşidi-hirman mətləi ümmid gərdunun,
Vücudumdan misali-sayə səlbi-etibar etdin.

Səvadi-didəmi mütləq bəyazi-eynə döndərdin,
Bəyazi-hüsni-halım xali-ruyi-ruzigar etdin.

Dəhr bir seylabdır, mülhəq ədəm dəryasına,
Biz ki, sərgərdanıq, ol seylabə düşmüş xarü xəs.

Cizginir xarü xəs, ol seylab olduqca rəvan,
Yetmədən dəryaya, rahət mümkün olmaz bir nəfəs.





Yaxamı pənceyi-təxvifi-rəhi-şər tutar,
Daməni-mərifəti-əhli rəyasət tutsam.

Jəngi-iflas tutar ayneyi-rahətimi,
Tərki-hükkam qılıb, künci-qənaət tutsam.

Hiç halətdə bulunmaz əsəri-rahəti-dil,
Oluram müztəribül-hal nə sənət tutsam.

Olsa məqsudunca dövrani-fələk bir neçə gün,
Olma məğrur, ey ki, hali-dəhr rövşəndir sənə.

Qatili-abavü əcdadın müaf etməz səni,
Umma onda dustluq rəsmin ki, düşməndir sənə.





Sərfi nəğdi-örm edib mən kəsbi-ürfan etmişəm,
Əhli dünya həm kamali-cəhl ilə təhsili-mal.

Dəhr bir bazardır, hər kim mətaın ərz edər;
Əhli dünya – simü zər, əhli-hünər – fəzlü kamal.

Kim ki, məndən nəf bulmaz, istəməz nəfin onun,
Ol ki, yox nəfim ona, nəfi mənə olmaz halal.

İstəməm nadan mənə gər versə gənci-simü zər
Kim, əvəzsiz mala nadandan təsərrüfdür vəbal.

Sən nə afətsən mənə, ey əqli-bədfərcam kim,
Bulmaq olmaz surəti-qürbündə asari-nişat?

Tifllər, divanələr səndən mübərra olmağın,
Dünyəvü üqbada bulmuşlar kamali-inbisat

İzzəti zillətdə bilməzlər təriqi-imtiyaz,
Hillətü hirmanda çəkməzlər əzabi-ehtiyat.

Ol ki, daim həmşinindir, müəzzəbdir mudam,
Netə kim, təklifə hökmi-şər ilə sənsən manat.

Ol zamandan kim, sənə verdim inani-ixtiyar,
Ol zamandan keylədim möhkəm səninlə irtibat.

Olmayıb xali ğəmü ənduhdan qəlbim evi,
Xar bəstədir mənə peyvəstə, xakistər büsat.

Olmayaydım kaş ki, hərgiz səninlə həmnişin,
Qılmayaydı kaş ki, mütləq səninlə ixtilaq.

* Ki eylədim





Doğruluq ilə istə ülüvvi-məqam kim,
Gəldikcə halına verə dövri-fələk rəvac.

Doğruluq ilə hərflərlə sədrdir, «əlif»,
«Ya» hərfini ayağa buraxmışdır evicac.*

Doğruluq ilə gəz ki, səni sərbülənd edə,
Əyrilər ilə eyləmə, əlbəttə, imtizac.

«Ya» ixtilatı ilə sərir oldu paymal,
Başda məqam tutdu «əlif» nüsrətilə tac.**

***Açıqlaması:** «Əlif» (J) düzlüyünə görə hərflərə başçıdır (başda gəlir). «Ya» əyriliyinə görə axıra düşmüşdür. Əlifba sırasında axırda gələn «yaün», göründüyü kimi, yazılışca da, əyri-üyrüdür.

****Açıqlaması:** Tac: Əlifin qələbəsi sayəsində başda yer tutdu, sərir – taxt «ya» ilə qoşulduğuna görə məhv oldu. Sərir sözünə «yaün» artırmaqla mənə tamam dəyişir.
«xəstə», «bimar» mənasını alır.

Pərdə çək eybinə zülmət kimi xəlqin daim,
Gər dilərsən ki, nəsib ola sənə abi-həyat.

Qılma xurşid kimi eybnümalıq ki, fələk
Yerə salmaya səni bəd ülüvvüd-dərəcat.

Cəhd qıl zatın ola məzhəri-asari-qəbul,
Qılma ol cahə təfaxür ki, ola xarici-zat.

Fəzl olur sanma sənə mənziləti-əslü nəsəb,
Cah olur sanma sənə kəsrəti-əsbabü cihat.

Ariyətdən özünə qılma qəmər tək ziynət,
Qeyridən ariyətin nur isə həm yazıya at!





Ey müəllim, aləti-təzvirdir əşrarə elm,
Qılma əhli məkrə təlimi-maarif zinhar!

Hiylə üçün elm təlimin qılan müfsidlərə,
Qətli-am üçün verər cəllada tiği-abdar!

Hər nə təzvir etsə əhli-cəhl ona olmaz səbat,
Məkri-əhli-elmdir əsli-fəsadi-rüzgar.

Ey qaziyi-xücəstəliqa kim, həqq eyləmiş
Sahibsəriri-məsnədi-hökmi-qəza səni!

Cəhd eylə kim, mülahizeyi-hökmi-dünyəvi
Hökmi-qəzada etməyə əhli-xəta səni!

Məqbuli-xəlq qılmış ikən elmü mərifət,
Mərdudi-xaliq eyləməyə irtişa səni!





Ey vəziri-mülkpərvər kim, nizami mülk üçün,
İntixab etmiş cəmin xəlqdən sultan səni!

Həllü əqdin aləmin qılmış müfəvvəz rəyinə,
Naibi-hökmi-xilafət eyləyib dövran səni.

Qıl həzər kim, olmaya nagəh mizacın münqəlib,
Qılmaya sərməst cami-şövkəti-divan səni!

Olasan insaf üçün mənsub ikən əhli-fəsad,
Edə din əhlinə afət qilləti-iman səni.

Etməyə məmureyi-islami viran, kəndüyə,
Əzəmi əvanü ənsar eyləyə şeytan səni.

Etmiş ikən əfzəli-xəlqi-cahan iqbal ilə,
Ərzəli-əhli-cəhənnəm eyləyə sübhan səni!

Zülm ilə ağçalar alıb zalım
Eylər ənam xəlqə minnət ilə.
Bilməz onu kim, etdiyi zülmə
Görəcəkdir cəza məzəllət ilə.
Müddəası bu kim, rizayi-illah
Ona hasil ola bu adət ilə.
Cənnəti almaq olmaz ağça ilə,
Girmək olmaz behiştə rüşvət ilə.

***

Ey ki, əndişeyi-mal ilə sərasimə olub,
Dünü gün dəhrdə aşüftə keçər əhvalın!
Cəmi-mal eylədiyin rahət üçündür, amma
Rahətin əksik olur hər necə artar malın.
Mal çox yığma, həzər eylə əzabından kim,
Rənci artar ağır olduqca yükü hammalın.





Çox təfaxür qılma cəmi-mal ilə, ey xacə, kim,
Simü zər cəmiyyəti əhli-qürur eylər səni.

Bargahi-qürbdən cəmiyyəti-malü mənal.
Hər nə miqdar olsa, ol miqdar dur eylər səni.

Gərçi nemət çox, kifayətdən təcavüz qılma kim,
İmtila bari-bədəndir, bihüzur eylər səni.

Bəxil qılmasa cəm etdiyi dirəm sərfin,
Nihali-məqsədi sərsəbz olub səmər verməz.

Əlindəki gühəri bəzl qılmasa mümsik,
Şəbi-ğəminə əməl müjdeyi-səhər verməz.

Tükənməyincə kəvakib Günəş tülu etməz,
Tökülməyincə şükufə nihal bər verməz.





Seyti-fəsalət ilə sözüm tutdu aləmi,
Mən məhdi-etibarda tifli-zəbun hənuz.

Buyi-xoşumla oldu müəttər dimağlar,
Mən nafeyi-vücudda bir qətrə xun hənuz.

Şeir zövqündən olmayan agah
Əhli-nəzmi məzəmmət eyləməsin.

Kəndi cəhlinə etiraf etsin,
Hər kəramata sehr söyləməsin!





Müddəi eylər mənə təqlid nəzmü nəsrdə,
Leyk namərbut əlfazü mükəddər zatı var.

Pəhləvanlar badpalar səgridəndə hər yana,
Tifl həm cövlan edər, amma ağacdan atı var.

Ol səbəbdən farsi ləfzilə çoxdur nəzm kim,
Nəzmi-nazik türk ləfzilə ikən düşvar olur.

Ləhceyi-türki qəbuli-nəzmi-tərkib etməyib,
Əksərən əlfazı naməributu nahəmvar olur.

Məndə tövfiq olsa, bu düşvarı asan eylərəm,
Novbahar olğac tikəndən bərgi-gül izhar olur.





# Fəzliyə nəsihət

İstərdim aləmin işini etmək imtahan,
Oldum bu məqsəd ilə cahan seyrinə rəvan.
Əvvəlcə düşdü bir bağa nagah yolum mənim,
Oldu qəribə işlər o bağda mənə əyan.
Gördüm o cümlədən qoca bağban bəhər üçün,
Ümidlə, qayğı ilə əkib bir cavan fidan.
Səy eyləmiş o vaxta qədər ki, budaq verib,
Yarpaq açıb, şükufə yetirmiş ağac haman.
Meyvə ki, əsl məqsəd idi, zahir olcağın,
Əvvəl şükufədən o qida aldı bir zaman.
Ayrıldı bir qədər böyüyüncə şükufədən,
Yarpaqla şaxədən o qidalandı durmadan.
Əzasına ağacdan onun su rəvan idi,
Tamsız, yetişməmiş, böyüyüb boy atan zaman.
Həddi-kamala çatmadan o meyvə daima
Üstündə idi ol ağacın şad, kamiran.
Dəydi, ağacla bir-birinin ziddi oldular.
Rəng ilə ətri verdi bi ziddiyyəti nişan.
Meyvə ağacdan incədir, ətri ziyadədir,
Olmaz ağacda meyvədəki ətr bigüman.
Ayrılmalıydı meyvə ağacdan dəyən kimi,
Verməz təbiət heç kəsə bu hökmlə aman.
Meyvə dərilməz isə ağacdan, bu qaydadır,
Dövran əlilə hər ikisinə yetər ziyan.

Həm meyvəni əzib, çürüdür məvh edər hava,
Həm də dəyər ağac başına daş zaman-zaman
Yoxdursa meyvədə ağaca ehtiyac əgər,
Meyvə ağacda tutmamalı boş yerə məkan
Dinlə məni, ağıllı balam, diqqət ilə sən,
Bu incə nüktə sirrini ta eyləyim bəyan.
Salsan həqiqət aləmində yaxşı bir nəzər,
Sən meyvəsən, mən isə ağac, dəhr busitan.
Dünya bağında hər ağacı bəsləmək üçün
Qəddi bükük fələk özüdür piri-bağiban
Yarpaq, şükufə, şaxə əgər bilməsən nədir,
Arvadla malü mülküm idi, ey əzizi can.
Qoydun o gün ki, sən bu cahan mülkünə qədəm,
Can şirəsilə cisminə verdi qida anan.
Süddən ayırdı çün səni dövran dayəsi.
Malımla, mülküm ilə tapdı tənin tavan
Möhtac idin mənə nə qədər ki, həyatda sən,
Məndən savay bilməz idin yari-mehriban
Sərf eylədim yolunda bütün ömrümü, bu gün
Qaldırmısan qürur ilə baş göylərə yaman
Cismim zəifləşincə göründü yüküm ağır,
Məndə bəlanı çəkmək üçün qalmamış o can.
Gənclik üzündən işlədiyin hər əməl üçün
Yetməzmi tənə vurdu mənə hər qoca, cavan?





Udsam bu qəmləri, ey oğul, qorxuram öləm,
Rüsvay olaram, qorxuram, etsəm əgər fəğan.
Ey feyzinin kamalı edən qədrimi füzun,
Ey izzəti mənə sayılan şövkət ilə şan!
Səndən savay yoxsa da candan mənə əziz,
Dırnağı ətdən üzməyə qalmış bu gün güman
Meyvə ilə ağac bizə də bir nümunədir.
İbrət götür, gözəl deyilibdir bu dastan.
Yox meyl səndə çün mənə həmdərd olmağa,
Mümkün deyil səninlə olaq yari-həmzəban
Bəsdir, mənə əzab ilə baş əyməyin yetər.
Bəsdir, məzəmmətimlə mənim bağrım oldu qan.
Tutmaz dəxi səninlə mənim ittifaqımız.
Mən bir ovuc sümük, sən isə tazə gülsitan.
Yoldaşlığım tutarmı səninlə mənim bu gün,
Sən bir çevik cavan, mənəm piri-natəvan.
İstərsən aləmi tutasan bir qılınc kimi,
Qın pərdəsində bəs nə üçün qalmısan nihan?
Mənsiz yaşa, qazan özünə hörmət, etibar,
Mən maneyəm, yoxunsa bu gün nam ilə nişan.
Şahin balasının var əgər seydə qüdrəti,
Əlbəttə, məsləhətdir edə tərki-aşiyan.
Bir ləl kan içində kamala çatıb əgər,
Hökmi-təbiət ilə gərək qalmasın nihan.
Dünyanı nəzmə salmaq üçün hikmət oldu bil,
Hər söz ki, söyləmiş bu Füzuliyi-natəvan.

# Ənisül-qəlb

*(Könül həmdəmi)*

Mənim könlüm sədəfdir, sözlərimdir dürri-qəltani,
Dənizdir elmim, allah feyzidir neysan barani.
Təaləllah, nə incə incilərdir kim, bəzək vurmuş,
Qulaqla boynuna onlarla dəhrin əhli-ürfani.
Dilin guya bu dəryaya, bu dürcə bir yolu vardır.
Ki, hər saət səxavətlə bəzər dürr ilə dünyanı.
Əgər heyvan danışmazsa, ona insan deyən olmaz,
Könül əhli dil ilə eyləyir təşxis insanı.
Nədir illət ki, heç kəs öz dilinin qədrini bilməz,
Təbiidir ki, ləlin qədrini bilməz onun kanı.
Sözün şəni o əndazə böyükdür ki, müəllimlər,
Sözün məhsulu bilmişlər düanı, vəhyi, Quranı.
Sən ey söz dilbərinə ziynətü ziyvər verən insan,
Libasi-mərifətdən qılma gəl məhrum o cananı,
Kifayətlənmə səslə, hərflə, mənada feyz axtar
Ki, Davudu nübüvvətdir əziz etmiş, nə əlhanı.
Rəva görmə canın çıxsın bədəndən kəsbi-ürfansız
Ki, ürfan kəsbinə canın bədən olmuş dəbistanı.
Demə bir zərrə torpaqdır bədən, diqqətlə seyr et
Görərsən eyləmiş yüz Xızrı əvarə, biyabani
Çalış ürfan qazan, ta əql olsun hökmünə tabe,
Büsati bərhəm ustadın əlində olmaz imkanı
Demə can boş qəfəsdir, bir düşün, əslini tədqiq et
Bəsirət əhlini gör kim, bu sirrin olmuş heyranı.





Biliksiz olduğuna etiraf et, alim olsan da
Ki, nadandır demişlər görcəyin məğrur dananı
Riyakarlıq gətirsə zövdü təqlid etmə, qıl nifrət
Təkəbbür artırarsa elm, yeydir mencə nisyanı.
Deyil allah üçün zahid edirsə məscidi təmir
Təşəxxüs satmağa istər işə salsın o dükkanı
Çevirsə barmağı təsbeh, aldanma, riya bil sən,
Sayır görsün çatırmı almağa dünyanı, imanı.
Əgər peymanəsi dolsa həmişə meylə bir rindin,
O şeyxdən yaxşıdır ki, xaliq ilə süsdü peymanı.
Əgər bir kəs vurarsa elmdən dəm, bil ki, cahildir,
O hardan anlayır hikmətdəki əsrari-pünhanı?
Elə gizlənməmişdir ki, həqiqət sirri gözlərdən
Ki, açsın hikmət əhli əql üzündən bu müəmmanı
Güman etmə ki, hikmətdən xəbərdar idi Əflatun,
Həqiqət elmdən agah alim sanma Loğmanı.
Yaranmış səd ilə, ya nəhs ilə hər şəkl fitrətdə,
Çətindir uğrasın təğyirı dövr etməklə dövran .
Cəhalətdir səbəb rəmmal hər yerdə məkan salsa,
Bütün işlərdə hakim zənn edər ənkisü ləhyanı.
Münəccim əqlinin naqisliyindən iddia eylər.
Ki, hər işdə müqəssir tutmalı Bürcisü Keyvanı.
Gözəl, ya çirkin olsun-hikmətin hər hökmü baqidir,
Xələl yetməz ona çərxin yerindən qopsa ərkanı.

Həris axmaqlığından zənn edər tənbəl həris olmuş,
Və ya öz səyi sərvət sahibi etmiş çalışqanı
Təbib nadanlığından iddia eylər ki, hər dərdə
Səbəb pəhrizi pozmaqdır, bilər pəhrizi dərmanı
Gözü doymaz hərisin dəhrdə çünki həris insan
Olarsa şahi-İram, tutmaq istər mülki-Turanı
Tamahla odlanan bir qəlbin heç vaxt atəşi sönməz
Qızıldan ötrü şiddət kəsb edər hər ləhzə böhranı
Cahan asayişi təkmilinə bir kəsdə yox qüdrət
Odur sonsuz yola salmış tamah aləmdə insanı
O kəs ki, arzular xalqın malından hər saat, hər gün
Bəzəkli süfrədə olsun kababi, həm də büryanı,
Onun qəlbi yanarmı zülmdən büryan olan qəlbə?
O rəhm eylərmi görsə xalq udur qəmdən ciyər qanı?!
Olarsa şah zalım, xalq xoş gün görməz aləmdə,
Xilas olmaz bəladan bir qoyun, qurd olsa cobanı
Sənin xeyrin üçün kəndli ağac əkmişdir, ey hakim,
Kəsib taxt qurma ondan, eyləmə məyus dehqanı.
Ləbi qəlbindəki dağı sağaldan bir güləndamın
Ləbini, dişləmə, ey bimürüvvət, olma gəl cani.
Nə lazımdır sənə bir təxt kim, qayıq kimi axsın
O göz yaşı selində kim, tökər məzlum müjganı.
Şərik tək pay alırsan kəndlinin daim qazancından,
Sənin borcundur olmaq kəndli payının nigahbanı.





Onun malı talandıqda cərimə çəkməli sənsən,
Cərimə kim çəkər, indi ki, sən etdin bu talanı?
Kim istər şahlara olsun yaxın, mətləb gülü dərsin,
Görər yolda tikan düzmüş comaqdan şah dərbanı.
Xəzinə tapmaq ümidilə bir insan rəvadırmı,
Zəhərli əjdahalar çənginə salsın şirin canı?
Gədanı gözləyərsə təhlükə şahlar hüzurunda,
Gərək tövbə edib, nə şahı görsün o, nə dərbanı.
Gəda öpsün gərək hacıblərin hər gün comağından
Ki, hifz etmiş bəladan, mən qıkmış qürbi-sultanı.
Belə bir qayda var, insan qaçar divlər məkanından,
Demək insan deyil onlar ki, məskən etdi divanı.
Deyilsən şahların halından agah, dərk qılmazsan
Ki, şah xəlqi soyar, ancaq verər əyana əhsanı.
Zərurət qarşısında verdiyi ehsan səxavətmi?
Məgər şah xeyrinə xəlqi çalıb-çarpazmı əyanı?
Səxavət əhlidir ancaq o kəslər ki, riya bilməz
Görər bir gözlə ehsan süfrəsində dostla düşmanı.
Qızıldandır, gümüşdəndir kərimin atdığı hər ox,
Sağaldar yarasını düşmənin dəydikdə peykanı.
Fəqirin olsa idrakı, bu sadə əmri dərk etsə
Ki, ta sağdır, ona ruzi verər təyindi-sübhanı.
Nədən ötrü gərək fəğfur ilə xaqana baş əysin?
Nədən ötrü gərək tərif etsin Keylə Kəsranı?

Xudada qeyrinə könlün evində vermə yer, zinhar,
Əmini-Kəbədən bütxanə gəl etmə o məvanı.
Varınsa əql, özüntək qafili mürşid qəbul etmə,
Büt anlarını gətirmişdir ona iman röhbanı.
Sədaqətlə yapışma damənindən ol kəsin, ey dost
Ki, qalmışdır təəllüq pəncəsində öz giribanı
Çıxarsa qarşıma hər şey onu iynə kimi deş, keç
Ki, iynə saxlamış yoldan göyə qalxan Məsihanı.
Bir arif aləmə nifrət edərsə, var yeri, çünki
Onun hümmət səməndinə gəlir dar dəhr meydanı.
Bu alçaq ruzgara bağlanarmı bir dilavər ki,
Vurar doqquz fələk fövqündə idrak ilə cövlanı.
Əsası qəflət olmuşdur həyatın, yoxsa kim istər
Bina tiksin, fələk yıxsın, aparsın sellər eyvanı?
Tikər eyvanı Kəsra, qaldırar Keyvanə, bilməz ki,
Onun hər kərpici təmsil edər bir başqa Kəsranı.
Könül vermə cahana, varlığı təşvişdir cana.
Zavalı bağrı qan eylər, qılar məyus insanı.
Çəkil, üzlətdə yer tut, kimsəsiz qaldıqda bir insan,
Mələklər qorxulu gündə olar ənsarü əvanı
Fəna bir mülkdür, asudədir xəlqi hər afətdən
Xilas olmaq dilərsən fitnədən, gəl fani ol, fani.
O kəslər ki, yeməz dünya qəmi, qorxmaz qiyamətdən,
Siratın dərdini çəkməz, düşünməz vəzi-mizanı.





Malın varsa, onu sərf et, əgər sən kamil insansan,
Çatarsan bil kamala sərvətin tapdıqda nöqsanı.
Deyilsən kəm qəmərdən, keç özündən vəsli-canandır
Ki, ay incəlmək ilə tez tapar xurşidi-tabanı
Fəqir olsan da şad ol, şam kimi gül, odda yansan da,
Ki, odla canlanan şəmin alovdur abi-heyvanı.
Ölüm haqdırsa öl üsrətdə, nemət dərdinə qalma,
Ölüb üsrətdən azad olmağı nemət kimi tanı
Olan bir dərdə adətkərdə dərman dərdinə qalmaz,
Dəyişməz bir cəhənnəm maliki rizvana niyranı
Behişti hər kəsin bir zövqdür, körpə uşaqlarçun
Ana ağuşu cənnətdir, bal arxı dayə püstanı.
Kamali-eşqdən dəm vurmağa ol kimsə layiqdir
Ki, cananın qəminə nəzr edib qurban edə canı.
Deyil canana aşiq, mütləq öz canına aşiqdir
O aşiqlər ki, can dərdindən istər vəsli-cananı.
Ayırsın yaxşını pisdən bəni-adəm-deyə, xalıq
Nəsihətnamə şəklində bizə göndərdi füqranı
Fəqət tutsun deyə üstün dəvadan xalq hər dərdi,
Ələm hərfi ilə hikmət katibi yazdı bu ünvanı.
Qəmi olmazsa, heç vaxt xalıqı yad eyləməz bir kəs,
Kim allahı sevər, istər ki, qəmlə keçsin hər anı
Varın artanda kibr ilə fəqirə az şəmadət qıl,
Onunla tez səni yeksan edər bu çərx dövranı.

...Zəmanə əhlinə bel bağlama hüsnü camalınla
Ki, Yusif hüsnünə qıldı həsəd namərd ixvanı.
Güvənmə qüvvənə, laqeyd baxma məkri-dünyaya
Ki, salmışdır tora yüz Rüstəmi bir Zal dastanı.
Əgər aqilsən olma hiyləsindən düşmənin qafil,
Unutma Adəmi yoldan çıxardan məkri-şeytanı.
Düşün hər danəsi bir zərrə əlvan torpaq olmuşdur,
Bu şahlar tacına ziynət verən ləli-Bədəxşanı.
Zamanə şahların başına tədriclə səpər torpaq,
Uşaq tək aldanar onlar görüncə şəkli-əlvanı.
Fələk tərsinə dövr etsə, sən olma əmrinə mayil,
Qonaqçın olsa qatil, qaç evindən, olma mehmanı
Başında şur vardırsa, onu hər zövqlə pozma,
Ucuz bir qiymətə vermə əlindən gənci-sultanı.
Ürəkdə vermə yer dərdinə hər bir lalərüxsarın,
Saqın, hər zülfi ənbər dilbərin olma pərişanı.
Şoranlıq torpağa səpmə səfa toxmu, olar zaye
Samanda ətr axtarma, gülə oxşatma yovşanı.
Sənin tək çoxları dəm vurdular eşqü məhəbbətdən,
Dəyişcək surət, oldu eşqinin cümlə peşimanı.





Şirin hər vəslin ardınca acı bir ayrılıq vardır,
O vəsli istəməz bir kəs düşüncə dərdi-hicranı.
Fəqih allaha doğru axtarır yol masəvallahdan,
Əcəb naqisdir onlar ki, bilər mürşüd o nadanı.
Tapar haqq axtaranlar haqqı Fironun calalından,
Bu işdə möcuzə vadar edən Firon Musanı.
Əgər bir kəs xüdanın varlığına istəyir isbat,
Bütün varlıqdır ki, allah varlığının əsl bürhanı.
Rəhimdən başlamış əqlə dolunca, hər bir insanın,
Yetər ruzusu haqdan, lazım olmaz səyü tavanı.
Vurarkən əqldən dəm, ol qədər əqli olar naqis,
Sanar ki, səyinin məhsulu olmuşdur əti, qanı.
Nədən bilməm təkəbbürlə özündən dəm vurar Həmrud,
Ki, yox bir milçəyin şərrini dəf etməkçün imkanı.
Xudadan qeyri acizdir hamı, fərz et Süleymandan,
O torpaq uddu kim, daim ona car idi fərmanı.
Əgər bir şəxs insandır, yetər qorxsa bir allahdan,
Əgər divdirsə, qorxmaz, toplasan da yüz Süleymanı.
Fəsadi-küfrdə görmüş səlahi sahibi-hikmət,
Onunçun, yoxsa hər bir batilin asandı bütlanı.
Gül istər bəsləsin dehqan, onu hifz etmək istərkən,
Tikan divarla hər yandan gərək hörsün gülüstanı.
Zamanə zalimi zalim əlilə məhv edər, bil kim,
Düyünlü taxtanı hamar edər nəccar suhanı.

Çox iman küfrə mədyundur, bu haqda Yusifi yad et,
Ki, büt qaytardı pis yoldan onu, dəf etdi üsyanı.
...Soyarkən kafəri hər dəm deyərsən ki, halal işdir,
Sözün indi nədir bəs kim, soyursan hər müsəlmanı?!
Bu dünya dalğalı dəryadır, ondan bir kiçik qətrə.
Göründü Nuh dövründə, dedilər Nuh tufanı!
Boğulmaq qorxusundan bu dənizdə hər bir avarə,
Atar əl-qol, üzər, keçə bilməz bu dəryanı.
Murada çatsın aşiq, qoy cahan ziri zəbər olsun,
Boğulmaq bilməz ördək, dalğa qoy titrətsin ümmanı.
...Çalış xalqa xeyir ver, xoş sifətlərlə qazan hörmət,
Arı bal vermək ilə əldə etmiş şöhrəti, şanı.
Bəzərsən cismini bica yerə əlvan libas ilə,
Gəlibsən lüt cahanə, lüt edərsən tərk dünyanı.
Muradın hər iki dünyada səbr ilə olar hasil,
Çalış səbr eylə, təmin eylə dünyanı, həm üqbanı.
İki dünya işi öhdəndədir, sən isə acizsən,
Qəribə bir işə düşdün, çətindir məncə səhmanı.
Məgər peyğəmbərin pak ruhu lütfən dadına çatsın,
İki dünyada tapsın hər çətinlik rahi-asanı.
...Xudaya, şükr, asayişdən ötrü bir bina tikdim,
Ki, səbrü elmü hilmin mayəsindən oldu bünyanı.
Bu qəsri tikmədim tək mən, əsasın qoydu üç kami,
Tanıtdı aləmə Şirvanı, Dehlini, Xorasanı.





Evin üç rüknünü Xaqani, Xosrov, Cami tikmişdi,
Mən isə eylədim Bağdadda təkmili-ərkanı.
Füzuli kamiyab olmazdı öz rəyinə bu işdə,
Yaratdı onların ruhu onunçün böylə imkanı.
İlahi, rəhm qıl avarə bir insana aləmdə
Ki, ömrünü edib zaye yazar bu hərzə-hədyanı.
Xeyir, hədyan deyil, aləm bilir qiymətlidir şeirim,
Odur dərya olan bu qəlbimin dürr ilə mərcanı.
İlahi, könlümə hər elmdən pay ver, bilirsən ki,
"Mənim könlüm müəllimdir, mənəm tifli-dəbistanı*".
Çıxardı təb kanından polad bir nəzm Xaqani,
"Səfa ayinəsi"ndə aləmə göstərdi Şirvanı.
Ona Xosrov ziya verdi, Xorasana rəvan etdi,
Gəzib əldən-ələ xeyli zaman Dehliylə Məltanı.
Cila verdi ona Cami, alıb göndərdi Bağdada,
Bu töhfə şad qıldı xadimani-Şah-mərdanı.
Mənim kor təbim ondan bixəbərdi bir zaman, amma
Mən ariflər əlindən qapdım ol yaquti-rəxşanı.
Mənim nəzmimlə ol ayinə bir ziynət qazanmış kim,
Baxan olmuş camalında kamali-hüsn heyranı.
"Ənisül-qəlb" adı verdim o məhbubə, budur arzum
Ki, olsun mərifət əhli olan məclisdə cövlanı.
...Onu İran zəmindən Darül-ədli-Rumə göndərdim,
Bu ümmid ilə kim, olsun əmin əllər nigəhban**!..

---

* Xəqani Şirvaninin "Meratüs-səfa" ("Sədaqət güzgüsü") fəlsəfi şeirinin mətləi. Şərq ədəbiyyatında həm də "Qəsideyi-şiniyyə" adı ilə məşhurdur.

** İxtisar edilmişdir

# Lüğət

## I Fars-ərəb mənşəli sözlər

### A

A b- su.
Abi-həyat, abi-heyvan-dirilik suyu.
Aba –atalar, ata-baba.
Abnus-Qara, bərk ağacdır, atəşdə Ud tək közərib xoş ətir saçır. Suya vurulub gözə çəkilərsə, şəbkorluğu (gecə qaravu) götürür. ("Bürhani-ğate").
Ağaz-başlanğıc.
Azmun-azimayiş-sınaq, imtahan, təcrübə.
Arayiş-bəzək, zinət.
Ariz-yanaq, üz; baş verən, üz verən.
Ariyət- burovuz.
Asib-zərər-ziyan; bəla, müsibət.
Afaq-üfüqlər; dünya.
Afət-bəla.
Afiyət-sağlamlıq.
Aşiyan-yuva, sığınacaq, ev.
Aşub-qarışıqlıq.
Aşuftə-dağınıq, pərişan, məftun, vurğun.

### B

Bab-qapı; kitab fəsli.
Bad-külək, yel.
Badpa-iti qaçan at; məcazi mənası-yel qanadlı.
Badiyə-çöl, səhra.
Baqi-əbədi.
Bal-qanad.
Balin-yastıq, baş tərəfi.
Bang-səs-səda, haray.
Bar-yük; -meyvə.





Barvər-bəhərli.
Beytülhəzən-qəm evi, hüzn otağı; məc, Yusif otağı.
Behcət-gözəllik, şənlik, şadlıq.
Behbud-sağalma, yaxşılaşma.
Bəzm-məclis, qonaqlıq.
Bər-meyvə.
Bərg-yarpaq.
Bərq-şimşək.
Bərqi-lamiə-şimşək parıltısı.
Bəri-iraq, uzaq, boş, azad.
Bəsi-çox.
Bəhr-dəniz; şeir vəznləri.
Bəyazi-eyn-gözün ağı.
Bibak-qorxu bilməz.
Bidad-zülm.
Bidirəng-ansızın, durmadan.
Bim-qorxu.
Binaguş-qulaq dibi.
Bisərü pa-avara, başsız-ayaqsız.
Bitəkəllüf-zəhmətsiz, əziyyətsiz.
Bixirəd-ağılsız.
Bihəmta-əvəzsiz, misilsiz.
Buqələmun-piqmalion.
Biş-artıq, çox.
Çərxi-buqələmun-rəngdən-rəngə girən fələk.
Bülənd-uca, yüksək.
Bürhan –dəlil, sübut.
Bürran-iti, kəskin.
Büt-poeziyada gözəl.

### V

Vabəstə-bağlı olmaq, asılı olmaq.
Vajgün-çəpələnmiş, tərsinə çevrilmiş.
Vala-uca, yüksək.

Vəz-vəziyyət, hal, durmuş, tərz.
Vərə-haramdan çəkinmək.
Vəhm-qorxu.
Vəş(ədat)-kimi, tək.
Vühuş-vəhşi-yırtıcı heyvandır.

## Q

Qəba-don.
Qəvvas-dalğac.
Qəvi-güclü.
Qiladə-boyunbağı, həmayil, xalta.
Qillət-azlıq, süstlük.
Qümar-qumru quşları.
Qülzum-dərin dərya.
Qürb-yaxınlıq.
Qülub-qəlblər, könüllər.
Qülüv(v) ğülüv(v) –həddən aşma, tüğyan, şişirtmə, mübaliğə.
Qürə-püşk.
Qur, ğur-dərinlik (mənaca), mahiyyət.
Qürrə-özünü öyən, loğma, məğrur; parıltı, dan işığı; yeni ay (bir günlük); atın alnındakı ağ xal, qaşqa; naxış, ornament. ( Yusif Ziya Şirvani. "Ərəb və fars sözləri lüğəti").
Qüfran/ğüfran-bağışlama, əfv, mərhəmət.

## D

Dam-duzaq, tələ.
Damən-ətək; daman-ətəklər.
Daniş-elm, bilik.
Deyr-monastr.
Dərun-iç, içəri qat.
Dərdnak-dərdli.
Dəmadəm-anbaan, zaman-zaman.
Dərhəm-alt-üst, qarmaqarışıq.
Dəhr-zaman; dünya.





Dəşt-çöl, səhra.
Dibaçə-müqəddimə, divanlara yazılan ön söz.
Didar-görüş, üz, camal.
Didə-göz.
Dil-könül-ürək.
Dilrüba—könül ovlaya, gözəl.
Dilguşa-könülaçan, fərəh gətirən.
Dinar-qızıl, pul, sikkəli qızıl.
Dirəm (dirhəm)-gümüş pul, ağca.
Dirəfş-bayraq.
Diriğ (diriğa)-heyf, təəssüf; qıymamaq, əsirgəmək.
Dikərgun-pozulmuş.
Dud-tüstü.
Duzəx-cəhənnəm.
Dun-alçaq.
Dunpərvər-alçaqları bəsləyən.
Dunhimmət-himmətcə zəif.
Dur-uzaq.
Durbin-uzaqgörən.
Dürd-xılt, şərab çöküntüsü.
Dürdvəş-xılt kimi, dürd sayaq.
Dürr-inci, mirvari.
Dürri-yetim-tək inci, bidanə, şahdanə inci.
Dürfəşan-dürr saçan, məc gözəl danışan.
Dürc-gövhər mücrüsü, məc gözəlin ağzı.
Düşvar-çətin.
Düşnam-söyüş.

## E

Eymən-arxayın.
Eyn-göz.
Ehya-diriltmə.
Ehmal-səhlənkarlıq, laqeydlik.
Ehtiraz-çəkinmə, daşınma.
Evicac-əyrilik; əyri-üyrü.

## Ə

Əbvab –qapılar; (təki bab).
Əbr-bulud.
Əbru-qaş.
Əbsəm-sus, lal ol.
Əvan-köməkçilər.
Əqran-tay-tuş, yaxınlar.
Ədəm-yoxluq, heçlik.
Ədu-(v)-düşmən.
Əzhar-çiçəklər, güllər.
Əltaf-lütfələr.
Əmvat-ölülər.
Əmvac-dalğalar.
Ənbərbar-ənbər saçan.
Ənadil-bülbüllər-(təki əndəlib).
Ənqa-simürq.
Ənduh-qəm, qüssə.
Ənis-dost, sirdaş.
Ənsar-köməkçilər.
Əncüm-ulduzlar.
Ər-əgər (müxəffəf-ixtisar şəkli).
Ərğəvan-Ərğəvan gülü; gözəl qırmızı rəng.
Ərəz-ariz olan; alınma keyfiyyət; əxz olunan.
Ərsə-meydan, arena.
Əsar-nırxlar, qiymətlər.
Əsalib-üslublar, qaydalar (şeirdə, sənətdə).
Əsrar-sirlər.
Ətvar-hərəkət, davranış, tövr.
Əfza-artıran, əlavə edən.
Əfzun-çox, artıq.
Əfsər-tac.
Əfsəh-fəsahətli, gözəl danışan.
Əfsürdə-solğun.





Əxğər-qor, od parçası.
Əxtər-ulduz.
Əxtərşünas-münəccim.
Əhbab-dostlar; (həbibi-cəmi).
Əcaz-möcüzələr.
Əşk – göz yaşı.
Əşkfişan – yaşsaçan.
Əşrar-şər adamlar, yolkəsənlər, yaramazlar.
Əşrəf-şərəfli, şərafətli adam.
Əşcar-ağaclar.

## J

Jəng-(jəngar)-pas.
Julidə-dağınıq, pərişan saç.

## Z

Zağ-qarğa, zəy.
Zəğən-qara qarğa.
Zəbun-aciz, zəif, düşgün.
Zəman-zamin.
Zəmm –məzəmmət, tənqid, həcv etmə.
Zəmir-ürək, könül; qrammatikada: əvəzlik.
Zənbur-arı.
Zərq-hiylə, riya, biclik; sufilərin geydiyi göy paltar.
Zərd-sarı.
Zərrin-qızılı.
Zəxirə-ehtiyat azuqə.
Zəxm-yara.
Zəhi-nə xoş, nə gözəl.
Ziyvər-bəzək, yaraşıq.
Zində-diri, canlı.
Zinhar-saqın, daşın.
Zövrəq-qayıq.
Zöhd-tərki-dünyalıq.

Zöhhad-zahidlər; (zahid sözünün cəmi).
Zünnar-rahiblərin bağladığı əlvan lenta, qurşaq.

## İ

İqd- boyunbağı, inci düzümü.
İqtida-yamsılama, təqlid.
İqtiza-zərurət, lüzum; tələb etmə.
İdbar-bədbəxtli
İyd (eyd)-bayram.
İyza-əziyyət vermə, incitmək.
İyzəd-tanrı.
İysar-səxavətlə bağışlamaq.
İkrah-nifrət, iyrənmə.
İkram-hörmət, əzizləmə.
İmtila-doldurma.
İnayət-yaxşılıq, qayğı.
İnqiyad-tabe olmaq, itaət etmək.
İnhiraf-dönmə, doğru yoldan azma.
İrtikab-günah işləmək, pis iş görmək.
İrtişa-rüşvətxorluq.
İrşad-yol göstərmək, rəhbərlik etmək.
İstiqamət-möhkəmlik, sabitlik; düzlük.
İstiğna-vara-qənaət etmə; ağır davranma, etinasızlıq.
İstima-dinləmək, qulaq asmaq.
İstitaət-gücü çatmaq, bacarmaq.
İttisal-qovuşmaq, birləşmək, bitişmək.
İxlas-səmimiyyət.
İctinab-qorxmaq, çəkinmək.
İştiyaq-istək, arzu (Şövq sözündən, şiddət dərəcəsi).

## Y

Yəğma-qarət.
Yek dəm-bir an, bir zaman.
Yekrəng-bir rəngdə; əməldə, sözdə sabit olan.
Yeksan-bərabər.





Kam-arzu, istək.
Kan-mədən.
Kax-saray, imarət.
Kəbud-göy rəng, boz (atda).
Kəvakib-ulduzlar.
Kəlimat-kəlmələr, sözlər.
Kəm-əskik.
Kəmtər-əskik, az (müqayisə dərəcəsi).
Kəminə-fağır, aciz.
Kərkəs-quzğun.
Kəsrət-çoxluq.
Kəc-əyri.
Kəcrov-əyri gedişli.
Kəşt-hərəkət, dolanma, gediş.
Kəşti-gəmi.
Kizb-yalan.
Kilk-qələm.
Kisvət-paltar.
Kövkəb-ulduz (cəm Kəvakib).
Kövn-varlıq, dünya.
Küstax-həyasız, ədəbsiz, boz adam.
Kuh-dağ.
Kuhkən-dağçapan-Fərhad.
Külbə-daxma, dar, qaranlıq hücrə.
Külah-papaq.
Küy-məhəllə, küçə.
Kuy-top (çovkan topu).

## G

Gəzənd-zərər-ziyan.
Gənc (gəncinə) –xəzinə.
Gərd-toz.

Gərdun-fələk.
Gireh-düyün.
Girehgir-düyün-düyün; buruq-buruq; qulac-qulac.
Girehgüşa-düyün açan, xilaskar.
Girdab-burulğan.
Girdbad-qasırğa, fırtına.
Giriban-yaxa.
Giribançak-yaxası yırtıq; qoynu param-param.
Giryə-ağlayış.
Giryan-ağlar.
Giysu-saç, zülf.
Gümrah-yolunu azmış, azğın.
Gülbün-gül ağacı, qızıl gül kolu.
Gülbərg-gül yarpağı, qızılgül ləçəyi.
Gülgəşt-gül seyri.
Gülgün-qızılgül rəngi, al.

## L

Laməkan-məkansız (məcazi mənası allah).
Lacərəm-naçar, istər-istəməz.
Ləb-dodaq.
Ləəb-oyun, əyləncə.
Lərzan-titrək.
Ləxt-ləxt-parça-parça, laxta-laxta.
Lət-döymə, zərbə, zərər.
Ləhv-əyləncə, əyyaşlıqla vaxt keçirmək.
Ləhzə -an, göz qırpımında.
Ləşkər-qoşun.
Liva-bayraq.
Liqa-üz, çöhrə, surət.
Lövh-lövhə, səhifə.
Lölö-inci, dürr.





Lölöi-xuşab-sulu inci.
Lütf-mehribanlıq, yaxşılıq.

## M

Mail-meyilli.
Manənd-bənzər, kimi.
Masəva-varlıq.
Mahtab-ay işığı.
Mahvəş (məhvəş) –ayüzlü, aycamallı.
Məani-mənalar, dərin düşüncələr.
Məqal-danışıq, söhbət.
Məqasid-məqsədlər.
Məğbun-aldadılmış, məhrum edilmiş.
Mədar-istinad nöqtəsi.
Mədfən-qəbir.
Məzahir-zahir olan.
Məzhər-bir şeyin zahir olduğu yer.
Məzur-üzürlü.
Meykədə-meyxanə.
Məknun-gizli, gizlədilmiş.
Məmlüv-dopdolu.
Məmur-abad.
Mənzilət-dərəcə, rütbə, məqam.
Mənzur-nəzərə alınmış.
Mərqəd-qəbr, məzar.
Mərdud-rədd olunmuş, qovulmuş.
Mərdüm-göz bəbəyi, camaat, xalq..
Mərdümək-göz bəbəyi, göz giləsi (kiçiltnə, nazlama şəkli).
Mərsum-yol xərci; rəsm-adət halına keçmiş qayda.
Mərkəb-at; minik, qoşqu heyvanı.
Məsdər-mənşə.
Məsnəd-taxt, kürsü, mənsəb, vəzifə.
Məxuf-qorxunc.
Məhfil-məclis, yığıncaq.

Məşrəb-xasiyyət, təbiət, içki içilər yer, içgi qabı.
Minbəd-bundan sonra.
Minqar- dimdik.
Mirat-güzgü.
Möhlük-təhlükəli, öldürücü.
Mövzun-vəznli, şeir, nəzm.
Mövc-dalğa.
Möhnətsəra-(y)-möhnət evi.
Möhtəsib-dini-əxlaqi işlər nəzarət edən məmur.
Mötad-alışmış.
Müalic-əlac edən, həkim.
Müaf-əfv olunmuş, bağışlanmış.
Mübərra-təmiz, pak.
Müqbil-xoşbəxt.
Müqəddəm-öncə, qabaq.
Müqəyyəd-dustaq.
Müqərrər-qərar verilmiş, müəyyənləşdirilmiş.
Müqtəda-rəhbər, davamçısı olan.
Müqtəza-zəruri, vacib.
Müqəvvas-qövsşəkilli.
Müğ-atəşpərəst, məğ –Zərdüşt dininə mənsub, məc yol göstərən meyxanaçı.
Müddəi-rəqib.
Müənbər-ənbər qoxulu.
Müjə-kirpik.
Müjgan-kirpiklər.
Müztərib-iztirablı.
Mül-üzüm şərabı.
Mülazim-yavər, adyutant.
Mültəmis-iltimas, xahiş olunan.
Mümsik-simic, xəsis.
Münqəlib-dəyişilən.
Münim-nemət verən.
Müntəxib-seçən, bəyənən.
Münhərif-əyilmiş, sapmış, istiqamətindən çıxmış.





Mürğ-quş.
Mürdə-ölü, cansız.
Mürid-şagird, ardıcıl, mürşüdün davamçısı.
Müsəvvir-rəssam.
Müsəlsəl-silsilə, zəncirvari-bağlanan, qulac-qulac (saçda).
Müsəxxər-fəth edilmiş.
Müstəhsən-bəyənilmiş, xoşagələn.
Müshəf-Quran.
Müttəsil-fasiləsiz, arası kəsilmədən.
Müfid-faydalı, yararlı.
Müfsid-fəsad əhli, xarabkar adam.
Mühəqqiq-həqiqqət axtaran, üzə çıxaran.
Mühəqqər-alçaldılmış, xar kiçik.
Mühəyya-hazırlanmış, rahlanmış.
Mücərrəb-sınanmış, təcrübədən keçirilmiş.
Mücərrəd-ayrı, təcrid edilmiş; abstrak.
Müşəvvəş-təşvişli, iztirablı, qarmaqarışıq.
Müşəxxəs-təşxis olunmuş, aydınlaşmış.
Müşkin-müşk qoxulu.
Müşkbar-müşk saçan.
Müştaq-şövqlə, zövqlə istəyən, arzu edən.

## N

Navək-ox; məc, kirpik.
Namərdur-gücü çatmayan.
Namərdbut-rabitəsiz.
Namövzun-vəznsiz, ahəngsiz.
Nar-od.
Nafərcam-uğursuz.
Neyrəng- məkr, hiylə, cadu.
Nəng-ar, bədnamlıq
Nəsəq-tərz, qayda
Nəsrin-nəstərən, nəsrin çiçəyi
Nəf-mənfəət, qazanc

Nəxl-xurma ağacı.
Nəhy-qadağan.
Nilgun-mavi.
Nisar-saçmaq.
Nişat-sevinc, şadlıq.
Nişimən-oturaq, məskən.
Növrəs-yeniyetmə.
Nüzhət-könül sevinc, fərəh.
Nüktə-incə məna, dərin məna.
Nüktədan-incə, dərin mənaları bilən.
Nüsrət-qələbə, zəfər.

## P

Payan-son, nəticə.
Paybənd-giriftar, ayağıbağlı.
Paybus-ayaq-öpmə.
Peyvəstə-daima, həmişə.
Peykan-peykan-ox-ucuna bərkidilmiş kəsər.
Peykər-surət, timsal, gözəl.
Pərva-qorxu, ehtiyat.
Pərkalə-parça-parça, iri yaş giləsi.
Pərtöv-işıq, parıltı.
Pəst-alçaq, zəif.
Pir-rəhbər, mürşüd, qoca.
Pirayə-bəzək, yaraşıq.
Pirahən-köynək.
Pül-körpü.
Pürmövc-coşqun dalğalı.
Pürpiç-qıvrım-qıvrım.
Pürxun-qan dolu.
Pürşərər-qığılcım dolu.
Pürqürur-çox məğrur.

## R

Rağib-rəğbət göstərən.
Raz-sirr.





Rəg-damar.
Rəsən-ip, kəndir.
Rəsm-qayda-qanun, şəkil.
Rəf-aradan çıxma, rədd olma.
Rəşk-paxıllıq, qısqanmaq.
Rəxt-yatacaq, paltar.
Rəxşan-işıldayan parlayan.
Rəhnüma-yolgöstərən, rəhbər.
Rəhröv-yolçu, yol gedən.
Ribat-karvansara, mənzil.
Rizvan-cənnət.
Riyaz-bağçalar.
Riyazət-zahidlik, nəfsi öldürmək.
Rind-azad, zirək, qorxusuz, hər şeyi danan.
Risman-ip, kəndir.
Rihlət-köç etmək, keçinmək.
Riştə-sap, ip, iplik.
Rövzən-pəncərə.
Ruzi-hesab-qiyamət günü.
Rüsum-adət və qaydalar.
Rümuz-rəmzlər.
Rüx (rüxsar)-üz, yanaq, yanaqlar.

## S

Saq-baldır, (sim saq-gümüş baldır).
Sağər-qədəh, piyalə.
Sane-yaradıcı.
Sarban-sarvan, dəvəçi.
Sahibsərir-taxt-tac sahibi.
Səbuh-səhər şərabı.
Səvad-qaralıq; yazı-pozu; bəbək.
Sədarət-rəyasət, baş vəzir vəzifəsi.
Səlatin-sultanlar.

Səlb-qarət, zorla alınma.
Səlah-yaxşılıq.
Səngdil-daşürəkli.
Sərab-ilğım.
Sərvər-başçı, rəis.
Sərd-soyuq.
Sərih-açıq, aydın.
Sərəfraz-başı uca.
Sərriştə-kələfin ucu.
Səhab-bulud.
Səhba-şərab, badə..
Səhranəvərd-səhraları gəzən.
Sirət-əxlaq; fitri təbiət.
Simbər-gümüşbədən, gümüş sinə.
Sipah-qoşun, ordu.
Sipehr-göy, fəza.
Sipənd-üzərrik.
Sirişk-göz yaşı.
Sitarə-ulduz.
Sövgənd-and.
Sud-qazanc.
Suzan-yanan.
Suzi-dərun-ürək yanğısı.
Surax-dəlik, deşik.
Sürud-nəğmə, himn.
Sürur-sevinc, şadlıq.
Sütur-sətirlər.
Süflə-alçaq.

## T

Tab-parıltı, işıq.
Taq-tağ, məc qaş.
Tak-tənək.
Talib-sevən, istəyən, tələb edən.
Tar-qaranlıq.





Təqdir-qədər, qismət, hünər və bacarığa görə təriflәmək.
Təğyir-dəyişiklik.
Tədib-ədəb-vermək.
Təəb-məşəqqət, zəhmət, yorğunluq.
Təəllül-yubatmaq.
Təyid-qüvvət almaq.
Təlx-acı.
Təməvvüc-dalğalanmaq.
Tənəüm-naz-nemət içində həyat keçirmək.
Təngdil-qəmli, tutqun, ürək sıxıntısı.
Tər –yaş təzə.
Tərəb-şadlıq.
Tərəşşüh-sızma, tərləmə.
Təsərrüf-ələ keçirmə.
Təsxir-zəbt, istila.
Təfaxür-fəxr etmək, güvənmək.
Təhqiq-axtarış, həqiqət axtarışı.
Təhəyyür-heyrətlənmək.
Təcdid-təzələmə, yeniləşmə.
Təcəmmül-gözəlləşdirmə.
Təcrid-ayırma.
Təşnə-susuz.
Təfriqə-fikir ixtilafı, parçalanma.
Timar-xəstəyə baxmaq, şəfa vermək.
Tişə-kərki, kəsər.
Tövq-boyunbağı, gərdənbənd, boyunduruq.
Tövfiq-kömək, bacarıq, istedad; qələbə.
Tuba-cənnət ağacı; məc, ucaboylu, gözəl.
Turab-torpaq.
Tutiya-göz məlhəmi; məc az tapılan şey.
Türrə-qıvrım saç (alında).
Türfə -nadir şey.

## Y

Ud-musiqi aləti.
Ur-ar, eyib; lüt, çılpaq.

## Ü

Üqba-axirət, o biri dünya.
Üqd-düyün; məc həlli müşkül məsələ.
Üzar-üz, yanaq.
Üzlət-güşənişinlik.
Ülüvv-ucalıq, yüksəklik.
Ülum-elmlər.
Üstüvar-möhkəm, güclü, daimi.
Üstüxan-sümük.
Ücb-məğrurluq, xudbinlik.
Üyub-eyblər.
Üşşaq-aşiqlər.
Ülfət-dostluq, hüsn-rəğbət, qəlbdən bağlılıq.

## F

Fəqih-fiqh alimi-hüquqşünas.
Fəğfur-Çində imperator titulu çini farfor.
Fərd-tək, yalnız.
Fərsudə-əzgin, köhnə, düşgün.
Fərxündə-xoşbəxt, uğurlu.
Fəri-düzəltmə, əmələ gəlmə.
Fəsahət-gözəl, aydın danışmaq və yazmaq bacarığı.
Fəttan-fitnəli.
Fikar-yaralı, pərişan.
Firib-aldanış, hiylə.
Firuz-xoştalə, qalib.
Fisq-əxlaqsızlıq.
Fövt-fürsəti əldən vermək; ölüm.
Füzun-artıq, çox.
Fürqan-Quranın ikinci adı.





Füruğ-işıq, ziya.
Füruzan-işıqlı, alışan.
Füsəha-fəsahət sahibləri, (bax fəsahət).
Füsun –ovsun.

## X

Xazin-xəzinədar.
Xaksar-düşgün-zəlil.
Xamə-qələm.
Xatirnişan-xatirdə qalan.
Xaşak- çör - çöp.
Xeyl-dəstə.
Xalxal (bəndi)-Şərqdə.
Qız-gəlinin topuqlarına taxdığı halqa-bəzək əşyası.
Xəm-əyri.
Xəmidə-bükülmüş, qozbel.
Xəs (xəsüxar, xəsü xaşak)-bax xaşak.
Xəsm-düşmən.
Xirəd-ağıl.
Xirədmənd-alim.
Xudnüma-özünü-gözə soxan.
Xudfürüm- lovğa, özünü çəkən .
Xunriz-qantökən.
Xunxar-qaniçən.
Xurşid-günəş.
Xüld-cənnət, əbədilik.
Xüram-yerim, nazlı yeriş.
Xüşk-quru.
Xürkləb-dodağı cadar, qurumuş.

### H

Hadis-baş verən, üz verən (hadisə)
Həbib-dost, sevgisi.
Həvadis-hadisələr.
Həqayiq-həqiqətlər.
Həmra-qırmızı.
Həmraz-sirdaş.
Hərim-məhrəm yer.
Hərir-ipək.
Hirz-sığnaq; dua, tilsim.
Hirman-məhrumluq, əl üzmək, qovuşmaq.
Hirs-acgözlük.
Hübab-hübab-sulardakı qabarçıq, köpük.
Hüma (j) –dövlət quşu; məc. xoşbəxtlik.
Hümayun-uğurlu, mübarək.

### Ç

Çak-yarıq-yırtıq.
Çakər-nökər.
Çaki-giriban-sinə dağı.
Çarsu (bazar) –dörd yolayrıçı, üstü örtülü bazar, dünya.
Çəng-çəng-musiqi aləti.

### C

Cavid (cavidan) -əbədi, əbədiyyət.
Cah-rütbə, mövqe.
Cahanbin-dünyagörmüş.
Cahansuz-dünyanı yandıran.
Cərəs-zəng, zınqrov.
Cud-səxavət.





Cuybar-axar su, çay, kəhriz, arx.
Cürğ-bayquş.
Cüda-ayrı.
Cürm-günah, suç.
Cünun-dəlilik, dəli, divanə.

### Ş

Şayəstə-yaraşan, layiq.
Şahid-gəlin, sevgisi, gözəl.
Şeyda-vurğun, dəli, aşiq.
Şəbistan-yataq otağı.
Şəbih-bənzər.
Şəbgərd-darğa.
Şəkib-səbr, dözüm.
Şəkərxab-qəflət yuxusu.
Şəmvəş-şam kimi.
Şərər- qığılcım.
Şəhvar-şahanə, şaha layiq.
Şəhd-bal.
Şikəstəhal-qəmli, qüssəli.
Şiftə-məftun aşiq.
Şurəngiz-qovğa, gurultu qoparan.
Şuridə-şurə gələn, dalğın.
Şükuh-calal, əzəmət.

## 2. Əski türk sözləri (arxaizmlər)

### A

Ağca-gümüş pul.
Ağırlamaq-əzizləmək.
Aşurmaq-aşırmaq, keçirmək.

## B

Bən-xal.
Birlə-birlikdə, ilə.
Bulmaq-tapınaq.

## Q

Qayım-möhkəm.
Qanğı (qansı) –hansı.
Qanda (xanda)-hansa-harada.
Qaçan-haçan.
Qamu-hamı, bütün.
Qovğa-dava-dalaş, hay-küy.

## D

Deyü-deyə.
Doymaq-dözmək.
Düşürmək-salmaq, itirmək.
Dün-gecə.

## E

Eyləgəc-elədikcə.

## Ə

Ərinmək-utanmaq.

## İ

İkən-çox.
İltər-yetər, çatar.
İrir-çatır, yetişir.
İrmək-çatmaq, qovuşmaq.





## Y

Yaslanmaq-sərilmək.
Yazı-çöl, səhra.
Yaşırmaq-gizləmək.
Yel-yaxşı.
Yelmək-qaçmaq, yüyürmək.

## G

Gəz-dəfə, kərə.

## K

Kiməxi-sağrı-dəri.
Kedirər-unutdurar.

## H

Hetə kim-ona görə ki, o səbəbə ki.
Holisər-nolacaq (nə olacaq).

## O

Onarmaq-sağaltmaq.
Olisər-olacaq.

## Ö

Önmüş, önülmüş-şad, fərəhli.
Örə-xəfif od, örə (xəstəlik).

## S

Savulmaq-sovuşmaq, keçmək.
Saqın (sakın) –qorx, çəkin, daşın.

Sayru-xəstə.
Sunmaq-vermək, paylamaq. Qədəh sunmaq-şərab vermək.

## U

Urmaq-vurmaq.

## Ç

Çin-çin, doğru, gerçək. (Yuxum çin oldu).

## C

Cizginmək-dolanmaq, hərlənmək, fırlanmaq.





# Kitabın içindəkilər

Füzulinin gözəllik idealı....3

*Məhəbbət şərgiləri*

Qəzəllər....22
Mürəbbelər....121
Müxəmməslər....126
Müsəddəs....130
Tərcibənd....132
Tərkibbənd....135
Bahariyyə....138
Rübailər....140

*Həyat hikmətləri*

İctimai-fəlsəfi məzmunlu qəzəlləri....150
Qitələr....156
Fəzliyə nəsihət (Farscadan tərcümə Mübariz Əlizadənindir)....179
Ənisül-qəlb (Könül həmdəmi) qəsidəsi (Farscadan tərcümə Mübariz Əlizadənindir)....182
Lüğət....192

Nəşriyyatın direktoru:
**Əlirza SAYİLOV**

**Məhəmməd Füzuli**
**"Heyrət, ey büt...". Seçilmis əsərləri**
*Bakı, "Araz" nəşriyyatı – 2013*

***Korrektor:***
**Əsmər İsmayılova**

***Kompüter tərtibatçısı:***
**Murad Hacıbabayev**

*Yığılmağa verilmişdir: 03.X.2013*
*Çapa imzalanmışdır: 25.XI.2013*
*Kağız formatı: 60x84 1/16*
*Şərti çap vərəqi: 14*
*Uçot nəşr vərəqi: 13,5*
*Sifariş: 44*
*Sayı: 500*
*Qiyməti müqavilə ilə*

"Araz" nəşriyyatının mətbəəsində
çap olunmuşdur

"ARAZ" NƏŞRİYYATI
**Bakı, Mətbuat prospekti**
**Tel: 432-34-82**